*Səid ibn Əli ibn Vəhf əl-Qahtani*

# MÜSƏLMANIN QALASI

## *Quran və sünnədən seçilmiş dua və zikrlər*

**Hədiyyədir!**
**Satışı qadağandır!**

**Tərcümə edən:** **Əlixan Musayev**

**Redaktorlar:**

M. Qarayev
A. Salehli
F. Allahverdiyev

*Bu kitabdakı hədislərin hamısı şeyx Albaninin kitablarında nəql edilmiş eyni hədislərlə müqayisə edilərək təhqiq olunmuşdur.*

**Bu kitab Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin razılığı ilə çap edilmişdir.**
**(DK-1020/d 13.11.2002)**

## Mərhəmətli, Rəhmli Allahın adı ilə!

## Müqəddimə

Şübhəsiz ki, həmd Allaha məxsusdur! Biz Ona həmd edir, Onu köməyə çağırır, Ondan bağışlanma və bizi doğru yola yönəltməyi diləyir, nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət verərsə, o, doğru yolda olar, kimi azdırarsa, onu doğru yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, təkdir, şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir. Ona, onun ailəsinə, onun əshabələrinə və Qiyamət gününədək gözəl tərzdə onların ardınca gedənlərə Allahın salavatı və çoxlu salamı olsun!

Bu, mənim "Quran və Sünnədən götürülmüş zikrlər, dualar və ovsunla müalicə" kitabımdan ixtisar etdiyim müxtəsər variantdır. Səfərdə daşınması asan olsun deyə, onun "Zikrlər" bölməsini saxlayıb qalan hissəsini ixtisar etdim.

Mən bu kitabda ancaq zikrlərin mətnini yazmış və hər zikrin mənbəsini göstərmək üçün orijinalda olan bir və ya iki mənbəni qeyd etməklə kifayətlənmişəm. Hədisi rəvayət edən əshabənin kim olduğunu öyrənmək və ya daha çox mənbəni bilmək istəyən kəs orijinala müraciət etsin. Qüdrət və qüvvət sahibi olan Allaha – Onun gözəl adları və uca sifətləri ilə yalvarıram ki, bunu Kəramətli Üzü xatirinə olan xalis əməllərdən etsin, həyatımda və ölümümdən sonra onunla mənə, habelə onu oxuyan, çap edən və yayılmasına can atan hər kəsə fayda versin. Şübhəsiz ki, pak və müqəddəs Allah bunlara hamidir və buna qadirdir. Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə, onun əshabələrinə və Qiyamət gününədək gözəl tərzdə onların ardınca gedənlərə Allahın salavatı və salamı olsun!

*Müəllif*

*Hicri 1409-cu il, Səfər ayı.*

## Zikrin fəziləti

Uca Allah buyurur:

﴿فَٱذۡكُرُونِيٓ أَذۡكُرۡكُمۡ وَٱشۡكُرُواْ لِي وَلَا تَكۡفُرُونِ﴾

«Məni yad edin ki, Mən də sizi yad edim! Mənə şükür edin, Mənə küfr etməyin».[1]

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ ٱذۡكُرُواْ ٱللَّهَ ذِكۡرٗا كَثِيرٗا﴾

«Ey iman gətirənlər! Allahı çox-çox zikr edin».[2]

﴿وَٱلذَّٰكِرِينَ ٱللَّهَ كَثِيرٗا وَٱلذَّٰكِرَٰتِ أَعَدَّ ٱللَّهُ لَهُم
مَّغۡفِرَةٗ وَأَجۡرًا عَظِيمٗا﴾

«... Allahı çox zikr edən kişilər və qadınlar üçün Allah bağışlanma və böyük mükafat hazırlamışdır».[3]

---

[1] əl-Bəqərə, 152.
[2] əl-Əhzab, 41.
[3] əl-Əhzab, 35.

﴿ وَٱذۡكُر رَّبَّكَ فِي نَفۡسِكَ تَضَرُّعٗا وَخِيفَةٗ وَدُونَ ٱلۡجَهۡرِ مِنَ ٱلۡقَوۡلِ بِٱلۡغُدُوِّ وَٱلۡأٓصَالِ وَلَا تَكُن مِّنَ ٱلۡغَٰفِلِينَ ﴾

«Səhər-axşam ürəyində yalvararaq və qorxaraq, səsi qaldırmadan Rəbbini yad et və qafillərdən olma!»[1]

Peyğəmbər ﷺ demişdir: «Rəbbini yad edənlə Rəbbini yad etməyənin misalı diri ilə ölünün misalına bənzəyir».[2]

Başqa bir rəvayətdə o ﷺ demişdir: «Sizə əməllərinizin ən xeyirlisini, Sahibiniz yanında ən təmiz olanını, dərəcələriniz içində ən yüksəyini, sizin üçün qızıl-gümüş xərcləməkdən daha xeyirlisini, düşməninizlə qarşılaşıb onların boyunlarını vurmağınızdan, onların da sizin boyunlarınızı vurmasından daha

[1] əl-Ə'raf, 205.

[2] «Fəthul-Bari», 11/208; Muslim isə bu hədisi belə rəvayət etmişdir: «Allah yad edilən evlə Allah yad edilməyən evin misalı diri ilə ölünün misalına bənzəyir». 1/539.

xeyirlisini bildirimmi?» (Səhabələr) dedilər: «Bəli!» O dedi: «Uca Allahı zikr etməkdir».[1]

Peyğəmbər ﷺ demişdir: «Uca Allah buyurur: «Mən qulumun barəmdəki zənni yanındayam. Məni yad etdikcə onunlayam. O Məni öz-özlüyündə yad etsə, Mən də onu Öz-Özlüyümdə yad edərəm. O Məni camaatın yanında yad etsə, Mən onu onlardan daha xeyirli camaatın (mələklərin) yanında yad edərəm. O Mənə bir qarış yaxınlaşsa, Mən ona bir ərəş yaxınlaşaram. O Mənə bir ərəş yaxınlaşsa, Mən ona bir qulac yaxınlaşaram. O Mənə doğru yeriyərək gəlsə, Mən ona doğru yüyürərək gələrəm».[2]

Abdullah ibn Busr رضي الله عنه rəvayət edir ki, bir kişi (Peyğəmbərə ﷺ) dedi: «Ey Allahın

---

[1] ət-Tirmizi, 5/459; İbn Macə, 2/1245. Bax: «Səhih ibn Macə», 2/316; «Səhihu-t-Tirmizi», 3/139.

[2] əl-Buxari, 8/171; Muslim, 4/2061. Bu, əl-Buxarinin mətnidir.

elçisi! İslam ayinlərinin çoxluğu mənə ağır gəlir. Mənə elə bir şey öyrət ki, ondan bərk-bərk yapışım». O dedi: «Çalış ki, dilin daim Allahı zikr etməklə islaq qalsın».[1]

Peyğəmbər ﷺ demişdir: «Kim Allahın Kitabından bir hərf oxusa, bununla ona bir savab yazılır. Bu savab isə on savab mislindədir. Mən demirəm «əlif, ləm, mim» bir hərfdir. Əksinə, əlif bir hərf, ləm bir hərf, mim bir hərfdir».[2]

Uqbə ibn Amir ؓ demişdir: «Biz Süffədə[3] olarkən Peyğəmbər ﷺ gəlib dedi: «Hansınız hər səhər Büthan, yaxud əl-Əqiq vadisinə gedib günah işləmədən və qohumluq əlaqələrini kəsmədən oradan

[1] ət-Tirmizi, 5/458; İbn Macə, 2/1246. Bax: «Səhihut-Tirmizi», 3/139; «Səhih ibn Macə», 2/317.

[2] ət-Tirmizi, 5/175. Bax: «Səhihut-Tirmizi», 3/9 və «Səhihul-Camius-Səğir», 5/340.

[3] [Süffə – Peyğəmbər ﷺ məscidində, ev-eşiyi olmayan əshabələr üçün ayrılmış bir yerdir.]

hörgüclü iki maya dəvə gətirmək istəyir». Biz dedik: «Ey Allahın elçisi! Biz bunu istəyirik». O dedi: «Sizlərdən biri səhər məscidə gedib qüdrət və qüvvət sahibi olan Allahın Kitabından iki ayə öyrənərsə, yaxud (onları) oxuyarsa, bu onun üçün iki dəvədən daha xeyirli olar. Üç (ayə) onun üçün üç (dəvədən), dörd (ayə) onun üçün dörd (dəvədən) daha xeyirli olar. (Öyrənilən və oxunulan) ayələrin sayı nə qədərdirsə, o qədər də dəvələrdən daha xeyirlidir».[1]

Peyğəmbər ﷺ demişdir: «Kim oturduğu (hər hansı) bir yerdə Allahı yad etməsə, (Axirətdə) Allah onu peşmançılığa məruz qoyar. Kim uzandığı (hər hansı) bir yataqda Allahı yad etməsə, (Axirətdə) Allah onu peşmançılığa məruz qoyar».[2]

---

[1] Muslim, 1/553.

[2] Əbu Davud, 4/264 və başqaları. Bax: «Səhih əl-Cami», 5/342.

Peyğəmbər ﷺ demişdir: «Hər hansı bir məclisdə oturub, orada Allahı yad etməyən və öz peyğəmbərinə salavat gətirməyən bir camaat (Qiyamət günü) mütləq peşmançılığa məruz qalar. Sonra Allah istəsə onlara əzab verər, istəsə onları bağışlayar».[1]

Peyğəmbər ﷺ demişdir: «O camaat ki, məclisdən Allahı zikr etməmiş qalxırlar, onlar uzunqulaq leşi üzərindən qalxmış kimidirlər. Buna görə onlar peşman olacaqlar».[2]

[1] ət-Tirmizi. Bax: «Səhihu-t-Tirmizi», 3/140.

[2] Əbu Davud, 4/264; Əhməd, 2/389. Bax: «Səhih əl-Cami», 5/176.

## (1) Yuxudan oyanarkən edilən zikrlər

١ – (( الْحَمْدُ للهِ الَّذِي أَحْيَانَا بَعْدَ مَا أَمَاتَنَا وَإِلَيْهِ النُّشُورُ ))

1. [Əlhəmdulilləhil-ləzi əhyənə bə'də mə əmətənə və ileyhin-nuşur.]

1. «Bizi öldürdükdən sonra dirildən Allaha həmd olsun. (Ölüb dirildikdən sonra isə) qayıdış Onadır».[1]

٢ – (( لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، سُبْحَانَ اللهِ، وَالْحَمْدُ للهِ، وَلاَ إِلَهَ إِلاَّ اللهُ، وَاللهُ أَكْبَرُ، وَلاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللهِ الْعَلِيِّ الْعَظِيمِ، رَبِّ اغْفِرْ لِي ))

2. [Lə iləhə illəllahu vahdəhu lə şərikə ləhu, ləhul-mulku va ləhul-həmdu va huvə alə kulli şeyin qadir, subhanallahi, valhəmdulilləhi, va lə iləhə illəllahu, vallahu əkbər, va lə həulə va lə quvvətə illə billəhil-aliyyil-azim, rabbiğfir li]

[1] Fəthul-Bari, 11/113; Muslim, 4/2083.

2. «Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir. Allah pak və müqəddəsdir. Həmd Allahadır. Allahdan başqa məbud yoxdur. Allah ən Böyükdür. Qüdrət və güc yalnız Uca və Böyük Allahdadır! Ey Rəbbim məni bağışla!»[1]

٣ – (( الْحَمْدُ للهِ الَّذِي عَافَانِي فِي جَسَدِي، وَرَدَّ عَلَيَّ رُوحِي، وَأَذِنَ لِي بِذِكْرِهِ ))

3. [Əlhəmdulilləhil-ləzi afəni fi cəsədi, va raddə aleyyə ruhi, va əzinə li bizikrihi]

3. «Bədənimə salamatlıq verən, ruhumu mənə qaytaran və mənə Onu yad etməyə izin verən Allaha həmd olsun!»[2]

---

[1] «Kim gecə oyanarkən bunları desə, bağışlanar, dua etsə, ona cavab verilər. Qalxıb dəstəmaz alsa, sonra namaz qılsa, namazı qəbul olunar». «Fəthul-Bari», 3/39 və başqaları. Bu, ibn Macənin mətnidir. Bax: «Səhih ibn Macə», 2/335.

[2] ət-Tirmizi, 5/473. Bax: «Səhihut-Tirmizi», 3/144.

٤– ﴿إِنَّ فِي خَلۡقِ ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضِ وَٱخۡتِلَٰفِ ٱلَّيۡلِ
وَٱلنَّهَارِ لَأٓيَٰتٖ لِّأُوْلِي ٱلۡأَلۡبَٰبِ (١٩٠) ٱلَّذِينَ يَذۡكُرُونَ ٱللَّهَ قِيَٰمٗا
وَقُعُودٗا وَعَلَىٰ جُنُوبِهِمۡ وَيَتَفَكَّرُونَ فِي خَلۡقِ ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضِ
رَبَّنَا مَا خَلَقۡتَ هَٰذَا بَٰطِلٗا سُبۡحَٰنَكَ فَقِنَا عَذَابَ ٱلنَّارِ (١٩١) رَبَّنَآ
إِنَّكَ مَن تُدۡخِلِ ٱلنَّارَ فَقَدۡ أَخۡزَيۡتَهُۥۖ وَمَا لِلظَّٰلِمِينَ مِنۡ أَنصَارٖ (١٩٢)
رَّبَّنَآ إِنَّنَا سَمِعۡنَا مُنَادِيٗا يُنَادِي لِلۡإِيمَٰنِ أَنۡ ءَامِنُواْ بِرَبِّكُمۡ فَـَٔامَنَّاۚ
رَبَّنَا فَٱغۡفِرۡ لَنَا ذُنُوبَنَا وَكَفِّرۡ عَنَّا سَيِّـَٔاتِنَا وَتَوَفَّنَا مَعَ ٱلۡأَبۡرَارِ
(١٩٣) رَبَّنَا وَءَاتِنَا مَا وَعَدتَّنَا عَلَىٰ رُسُلِكَ وَلَا تُخۡزِنَا يَوۡمَ ٱلۡقِيَٰمَةِۗ إِنَّكَ
لَا تُخۡلِفُ ٱلۡمِيعَادَ (١٩٤) فَٱسۡتَجَابَ لَهُمۡ رَبُّهُمۡ أَنِّي لَآ أُضِيعُ عَمَلَ
عَٰمِلٖ مِّنكُم مِّن ذَكَرٍ أَوۡ أُنثَىٰۖ بَعۡضُكُم مِّنۢ بَعۡضٖۖ فَٱلَّذِينَ هَاجَرُواْ
وَأُخۡرِجُواْ مِن دِيَٰرِهِمۡ وَأُوذُواْ فِي سَبِيلِي وَقَٰتَلُواْ وَقُتِلُواْ لَأُكَفِّرَنَّ
عَنۡهُمۡ سَيِّـَٔاتِهِمۡ وَلَأُدۡخِلَنَّهُمۡ جَنَّٰتٖ تَجۡرِي مِن تَحۡتِهَا ٱلۡأَنۡهَٰرُ
ثَوَابٗا مِّنۡ عِندِ ٱللَّهِۚ وَٱللَّهُ عِندَهُۥ حُسۡنُ ٱلثَّوَابِ (١٩٥) لَا يَغُرَّنَّكَ تَقَلُّبُ
ٱلَّذِينَ كَفَرُواْ فِي ٱلۡبِلَٰدِ (١٩٦) مَتَٰعٞ قَلِيلٞ ثُمَّ مَأۡوَىٰهُمۡ جَهَنَّمُۖ

وَبِئۡسَ ٱلۡمِهَادُ ١٩٧ لَٰكِنِ ٱلَّذِينَ ٱتَّقَوۡاْ رَبَّهُمۡ لَهُمۡ جَنَّٰتٞ تَجۡرِي مِن
تَحۡتِهَا ٱلۡأَنۡهَٰرُ خَٰلِدِينَ فِيهَا نُزُلٗا مِّنۡ عِندِ ٱللَّهِۗ وَمَا عِندَ ٱللَّهِ خَيۡرٞ
لِّلۡأَبۡرَارِ ١٩٨ وَإِنَّ مِنۡ أَهۡلِ ٱلۡكِتَٰبِ لَمَن يُؤۡمِنُ بِٱللَّهِ وَمَآ
أُنزِلَ إِلَيۡكُمۡ وَمَآ أُنزِلَ إِلَيۡهِمۡ خَٰشِعِينَ لِلَّهِ لَا يَشۡتَرُونَ بِـَٔايَٰتِ
ٱللَّهِ ثَمَنٗا قَلِيلًاۗ أُوْلَٰٓئِكَ لَهُمۡ أَجۡرُهُمۡ عِندَ رَبِّهِمۡۗ إِنَّ
ٱللَّهَ سَرِيعُ ٱلۡحِسَابِ ١٩٩ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ ٱصۡبِرُواْ
وَصَابِرُواْ وَرَابِطُواْ وَٱتَّقُواْ ٱللَّهَ لَعَلَّكُمۡ تُفۡلِحُونَ ٢٠٠ ﴾

4. «Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl sahibləri üçün dəlillər vardır. O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edir, göylərin və yerin yaradılması haqqında düşünürlər (və deyirlər): «Ey Rəbbimiz! Sən bunları əbəs yerə yaratmamısan. Sən pak və müqəddəssən. Bizi Odun əzabından qoru! Ey Rəbbimiz! Sən Oda daxil etdiyin kəsi əlbəttə, rüsvay

edərsən. Zalımların köməkçiləri olmaz. Ey Rəbbimiz! Həqiqətən, biz: «Rəbbinizə iman gətirin!» – deyə imana çağıran kimsənin çağırışını eşidib iman gətirdik. Ey Rəbbimiz! Günahlarımızı bizə bağışla, təqsirlərimizdən keç və canımızı itaətkarlarla (möminlərlə) bir yerdə al! Ey Rəbbimiz! Öz elçilərinin vasitəsi ilə bizə vəd etdiklərini ver və qiyamət günü bizi rüsvay etmə! Şübhəsiz ki, Sən vədə xilaf çıxmırsan!» Onların Rəbbi onlara cavab verdi: «Mən, sizlərdən – istər kişi, istərsə də qadın olsun – heç bir iş görənin əməyini puç etmərəm. Siz bir-birinizdənsiniz (dində kişi və qadın eynidir). Hicrət edənlərin, öz yurdlarından çıxarılanların, Mənim yolumda əziyyətə düçar olanların, vuruşanların və öldürülənlərin əlbəttə təqsirlərindən keçəcək və onları (ağacları) altından çaylar axan cənnətlərə daxil edəcəyəm. (Bu, onlar üçün) Allahdan bir mükafatdır. Gözəl mükafat yalnız Allah yanındadır». Qoy kafirlərin

diyarbədiyar gəzib-dolaşması səni aldatmasın! Bu, az (yaxud keçici) bir zövqdür. Sonra isə onların məskəni Cəhənnəmdir. Ora nə pis yataqdır! Lakin öz Rəbbindən qorxanlar üçün [ağacları] altından çaylar axan cənnətlər vardır ki, onlar orada əbədi qalacaqlar. (Bu, onlar üçün) Allahdan bir ziyafətdir. Allah yanında olan (nemətlər) itaətkarlar (möminlər) üçün daha xeyirlidir. Həqiqətən, Kitab əhlindən elələri də vardır ki, Allaha müti olaraq həm Allaha, həm sizə nazil edilənə, həm də özlərinə nazil edilənə inanır, Allahın ayələrini ucuz qiymətə satmırlar. Onların öz Rəbbi yanında mükafatları vardır. Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndir. Ey iman gətirənlər! Səbir edin, dözümlü olun, (sərhəd boyu) növbə ilə keşik çəkin və Allahdan qorxun ki, bəlkə nicat tapasınız!» ("Ali-İmran" surəsi, 190-200).[1]

---

[1] «Fəthul-Bari», 8/237; Muslim, 1/530.

## (2) Paltar geyinərkən edilən dua

٥ – (( الْحَمْدُ للهِ الَّذِي كَسَانِي هَذَا ( الثَّوْبَ ) وَرَزَقَنِيهِ مِنْ غَيْرِ حَوْلٍ مِنِّي وَلاَ قُوَّةٍ ))

5. [Əlhəmdulilləhil-ləzi kəsəni həzə (əs-səubə) va razəqanihi min ğayri haulin minni va lə quvvətin]

5. «Bunu (bu paltarı) mənə geyindirən və özüm heç bir qüdrət və güc sərf etmədən onu mənə bəxş edən Allaha həmd olsun!»[1]

## (3) Təzə paltar geyinərkən edilən dua

٦ – (( اللَّهُمَّ لَكَ الْحَمْدُ أَنْتَ كَسَوْتَنِيهِ، أَسْأَلُكَ مِنْ خَيْرِهِ وَخَيْرِ مَا صُنِعَ لَهُ، وَأَعُوذُ بِكَ مِنْ شَرِّهِ وَشَرِّ مَا صُنِعَ لَهُ ))

6. [Allahummə, ləkəl-həmdu əntə kəsəutənihi, əs'ələkə min xayrihi və xayri

[1] Bunu, ən-Nəsai istisna olmaqla, «Sünən» əsərlərinin müəllifləri rəvayət etmişlər. Bax: «İrvaul-Ğəlil», 7/47. [«Səhih ət-Tərğib vət-Tərhib», 2/222.]

mə sunia ləhu va əuzu bikə min şərrihi va şərri mə sunia ləhu]

6. «Allahım, Həmd Sənədir! Bunu mənə Sən geyindirdin. Onun xeyrini və onun istifadəsinin xeyrini Səndən diləyir, onun şərindən və onun istifadəsinin şərindən Sənə sığınıram!»[1]

## (4) Təzə paltar geyinən üçün edilən dua

٧ – (( تُبْلِي وَيُخْلِفُ اللهُ تَعَالَى ))

7. [Tubli və yuxlifullahu təalə]

7. «(Bunu) köhnəldəsən, Uca Allah da yenisini versin!»[2]

٨ – (( اِلْبِسْ جَدِيدًا، وَعِشْ حَمِيدًا، وَمُتْ شَهِيدًا ))

8. [İlbis cədidən, va iş həmidən, va mut şəhidən]

---

[1] Əbu Davud, ət-Tirmizi və əl-Bəğəvi. Bax: «Müxtəsər Şəmaili-t-Tirmizi», səh.47. [Hədis səhihdir. Bax: «Mişkat əl-Məsabih», 2/486.]

[2] Əbu Davud, 4/41. «Səhih Əbu Davud», 2/760.

8. «Təzə geyinəsən, həmd edərək yaşayasan və şəhid olaraq öləsən!»[1]

## (5) Paltarı soyunarkən nə deyilir

٩ – (( بِسْمِ اللهِ ))

9. [Bismilləh]
9. «Allahın adı ilə!»[2]

## (6) Ayaqyoluna girərkən edilən dua

١٠ – (( [بِسْمِ اللهِ] اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الْخُبْثِ وَالْخَبَائِثِ ))

10. [Bismilləh] [Allahummə inni əuzu bikə minəl-xubsi val-xəbəis]
10. «(Allahın adı ilə!) Allahım, pislikdən və pis əməllərdən (erkək və dişi cinlərdən) Sənə sığınıram!»[3]

---

[1] İbn Macə, 2/1178 və əl-Bəğəvi, 12/41. Bax: «Səhih ibn Macə», 2/275.

[2] ət-Tirmizi, 2/505 və başqaları. Bax: «İrvaul-Ğəlil», №49 və «Səhihul-Cami», 3/203.

[3] əl-Buxari, 1/45; Muslim, 1/283. Əvvəldəki “Bismilləh!” Səid ibn Mənsurun əlavəsidir. Bax: «Fəthul-Bari», 1/244.

## (7) Ayaqyolundan çıxarkən edilən dua

١١ – (( غُفْرَانَكَ ))

11. [Ğufranəkə]
11. «(Allahım!) Məni bağışla!»[1]

## (8) Dəstəmazdan əvvəl edilən zikr

١٢ – (( بِسْمِ اللهِ ))

12. [Bismilləh]
12. «Allahın adı ilə!»[2]

## (9) Dəstəmazdan sonra edilən zikr

١٣ – (( أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ وَأَشْهَدُ أَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ ))

---

[1] Bunu, ən-Nəsai istisna olmaqla, «Sünən» əsərlərinin müəllifləri rəvayət etmişlər. ən-Nəsai isə «Əməlul-Yəumi vəl-Leyl», əsərində rəvayət etmişdir. Bax: «Zadul-Məad», 2/387. [Hədis səhihdir; «İrvaul-Ğəlil», 1/91.]

[2] Əbu Davud, ibn Macə və Əhməd. [Hədis həsəndir. Bax: «İrvaul-Ğəlil», 1/122.]

13. [Əşhədu ən lə iləhə illəllahu vahdəhu lə şərikə ləhu va əşhədu ənnə Muhəmmədən abduhu və Rasuluhu]

13. «Mən şahidlik edirəm ki, Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir!»[1]

١٤ – (( اللَّهُمَّ اجْعَلْنِي مِنَ التَّوَّابِينَ وَاجْعَلْنِي مِنَ الْمُتَطَهِّرِينَ ))

14. [Allahumməc'alni minət-təvvabinə vac'alni minəl-mutətahhirin]

14. «Allahım! Məni tövbə edənlərdən et! Və məni təmizlənənlərdən et!»[2]

١٥ – (( سُبْحَانَكَ اللَّهُمَّ وَبِحَمْدِكَ، أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ أَنْتَ، أَسْتَغْفِرُكَ وَأَتُوبُ إِلَيْكَ ))

15. [Subhanəkəllahummə va bihəmdikə, əşhədu ən lə iləhə illə ənt, əstəğfirukə və ətubu ileyk]

---

[1] Muslim, 1/209.

[2] ət-Tirmizi, 1/78. Bax: «Səhihu-t-Tirmizi», 1/18.

15. «Allahım, Sən pak və müqəddəssən! Sənə həmd olsun. Şahidlik edirəm ki, Səndən başqa məbud yoxdur. Səndən bağışlanma diləyir, Sənə tövbə edirəm».[1]

## (10) Evdən çıxarkən edilən zikr

١٦ – (( بِسْمِ اللهِ، تَوَكَّلْتُ عَلَى اللهِ، وَلاَحَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللهِ ))

16. [Bismilləh, təvakkəltu aləllahi va lə həulə va lə quvvətə illə billəh]

16. «Allahın adı ilə! Allaha təvəkkül etdim. Qüdrət və güc yalnız Allahdadır!»[2]

١٧ – (( اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ أَنْ أَضِلَّ أَوْ أُضَلَّ، أَوْ أَزِلَّ أَوْ أُزَلَّ، أَوْ أَظْلِمَ أَوْ أُظْلَمَ، أَوْ أَجْهَلَ أَوْ يُجْهَلَ عَلَيَّ ))

---

[1] ən-Nəsai «Əməlul-Yəumi val-Leyl», səh. 173. Bax: «İrvaul-Ğəlil», 1/135 və 2/94. [Hədis səhihdir.]

[2] Əbu Davud, 4/325 və ət-Tirmizi, 5/490. Bax: «Səhihu-t-Tirmizi», 3/151.

17. [Allahummə inni əuzu bikə ən ədıllə, əu udallə, əu əzillə, əu uzəllə, əu əzlimə, əu uzləmə, əu əchələ, əu yuchələ aleyyə]

17. «Allahım! Doğru yoldan azmaqdan və ya azdırılmaqdan, çaşmaqdan və ya çaşdırılmaqdan, zülm etməkdən və ya zülmə məruz qalmaqdan, cahil olmaqdan və ya mənə qarşı cahillik edilməsindən Sənə sığınıram».[1]

## (11) Evə girərkən edilən zikr

١٨ – (( بِسْمِ اللهِ وَلَجْنَا، وَبِسْمِ اللهِ خَرَجْنَا، وَعَلَى رَبِّنَا تَوَكَّلْنَا ))

18. [Bismilləhi valəcnə va bismilləhi xaracnə va alə Rabbinə təvakkəlnə]

18. «Allahın adı ilə girdik, Allahın adı ilə çıxdıq və Rəbbimizə təvəkkül etdik!»[2]

---

[1] "Sünən" əsərlərinin müəllifləri. Bax: "Səhih ət-Tirmizi", 3/152 və "Səhih ibn Macə", 2/336.

[2] Əbu Davud, 4/325; İbn Baz hədisin isnadını "həsən" hesab etmişdir ("Tuhfətul-Əxyar", səh.28).

(Bu zikri etdikdən) sonra isə ailəsinə salam versin.

## (12) Məscidə gedərkən edilən dua

١٩ – (( اللَّهُمَّ اجْعَلْ فِي قَلْبِي نُورًا، وَفِي لِسَانِي نُورًا، وَفِي سَمْعِي نُورًا، وَفِي بَصَرِي نُورًا، وَمِنْ فَوْقِي نُورًا، وَمِنْ تَحْتِي نُورًا، وَعَنْ يَمِينِي نُورًا، وَعَنْ شِمَالِي نُورًا، وَمِنْ أَمَامِي نُورًا، وَمِنْ خَلْفِي نُورًا، وَاجْعَلْ فِي نَفْسِي نُورًا، وَأَعْظِمْ لِي نُورًا، وَعَظِّمْ لِي نُورًا، وَاجْعَلْ لِي نُورًا، وَاجْعَلْنِي نُورًا، اللَّهُمَّ أَعْطِنِي نُورًا، وَاجْعَلْ فِي عَصَبِي نُورًا، وَفِي لَحْمِي نُورًا، وَفِي دَمِي نُورًا، وَفِي شَعْرِي نُورًا، وَفِي بَشَرِي نُورًا،)) [اللَّهُمَّ اجْعَلْ لِي نُورًا فِي قَبْرِي... وَ نُورًا فِي عِظَامِي] [وَزِدْنِي نُورًا، وَزِدْنِي نُورًا، وَزِدْنِي نُورًا،] [وَهَبْ لِي نُورًا عَلَى نُورٍ ]

---

[Şeyx əl-Albani isə bu hədisi zəif hesab etmişdir. Bax: "əl-Kəlimut-Teyyib", 1/91]. "Səhih Muslim"də (№2018) isə belədir: «Evinə girən adam həm evə daxil olarkən, həm də yemək yeyərkən Allahı zikr etsə, şeytanlar deyərlər: – Sizin nə gecələməyə yeriniz, nə də şam yeməyiniz var!».

19. [Allahumməc'al fi qalbi nuran va fi lisəni nuran va fi səm'i nuran va fi bəsari nuran va min fəuqı nuran va min təhti nuran va an yəmini nuran va an şiməli nuran va min əməmi nuran va min xalfi nuran, vac'al fi nəfsi nuran va a'zım li nuran va azzım li nuran, vac'al li nuran, vac'alni nuran. Allahummə ə'tıni nuran, vac'al fi asabi nuran va fi ləhmi nuran va fi dəmi nuran va fi şə'ri nuran va fi bəşəri nuran,] [Allahumməc'al li nuran fi qabri... va nuran fi ızami,] [va zidni nuran, va zidni nuran, va zidni nuran,] [va həb li nuran alə nurin]

19. «Allahım! Qəlbimə və dilimə nur saç! Qulağıma və gözümə nur saç! Başımın üstündən və ayağımın altından nur saç! Sağımdan və solumdan nur saç! Önümə və arxama nur saç! Nəfsimi nurlandır! Mənim üçün böyük bir nur və uca bir nur saç! Mənim üçün nur et və məni nurlu et! Allahım mənə nur bəxş et!

Sinirimi nurlu et! Ətimi və qanımı nurlu et! Saçımı və dərimi nurlu et!»[1] [«Allahım! Qəbrimə nur saç! Sümüyümü nurlandır!»][2] [«Nurumu artır, nurumu artır, nurumu artır!»][3] [«Mənə nur üzərindən nur bəxş et!»][4]

## (13) Məscidə girərkən edilən dua

٢٠ – (( أَعُوذُ بِاللهِ الْعَظِيمِ، وَبِوَجْهِهِ الْكَرِيمِ، وَسُلْطَانِهِ الْقَدِيمِ، مِنَ الشَّيْطَانِ الرَّجِيمِ [بِسْمِ اللهِ، وَالصَّلاَةُ] [وَالسَّلاَمُ عَلَى رَسُولِ اللهِ] اللَّهُمَّ افْتَحْ لِي أَبْوَابَ رَحْمَتِكَ ))

---

1 «Fəthul-Bari», 11/116, № 6316. Bu onun mətnidir. Muslim, 1/526, 529, 530, №763.

2 ət-Tirmizi, 5/483, №3419. [Zəifdir; «Səhih və Daif əl-Camius-Səğir», 8/66.]

3 əl-Buxari, «Ədəbul-Mufrad», №695. əl-Albani bu hədisin isnadını "səhih" hesab etmişdir ("Səhih Ədəbul-Mufrad", №536).

4 İbn Həcər bunu «Fəthul-Bari» (11/118) əsərində gətirmiş və ibn Əbu Asimin «Dua» əsərində olduğunu qeyd etmişdir. O demişdir: «Müxtəlif rəvayətlərlə iyirmi beş xislət sadalanmışdır».

20. [Əuzu billəhil-azım va bivachihil-kərim va sultanihil-qadim minəş-şeytanir-racim [Bismilləh, vas-salətu] [vas-sələmu alə Rasulilləh] Allahumməftəh li əbvabə rahmətikə]

20. «Daşqalaq olunmuş [Allahın rəhmətindən qovulmuş, lənətə gəlmiş] şeytandan Böyük Allaha, Onun kəramətli Üzünə və əzəli hökmünə pənah aparıram.[1] [Allahın adı ilə! Salavat][2] [və salam olsun Allahın elçisinə!] [3] [Allahım! Öz mərhəmət qapılarını mənim üçün aç!]»[4]

---

[1] Əbu Davud. Bax: «Səhihul-Cami», № 4591.

[2] İbn əs-Sunni rəvayət edib, №88. əl-Albani onu "həsən" hədis hesab etmişdir.

[3] Əbu Davud, 1/126. Bax: «Səhihul-Cami», 1/528.

[4] Muslim, 1/494. Fatimənin ﷺ rəvayətində: «Allahım! Mənim günahlarımı bağışla və Öz mərhəmət qapılarını mənim üçün aç!»

İbn Macə. əl-Albani bu hədisi "səhih" hesab etmişdir. Bax: «Səhih ibn Macə», 1/128-129.

## (14) Məsciddən çıxarkən edilən dua

٢١ – (( بِسْمِ اللهِ وَالصَّلاَةُ وَالسَّلاَمُ عَلَى رَسُولِ اللهِ، اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ مِنْ فَضْلِكَ، اللَّهُمَّ اعْصِمْنِي مِنَ الشَّيْطَانِ الرَّجِيمِ ))

21. [Bismilləh, vas-salətu vas-sələmu alə Rasulilləh. Allahummə inni əs'əlukə min fadlikə. Allahummə'sımni minəş-şeytanir-racim]

21. «Allahın adı ilə! Salavat və salam olsun Allahın elçisinə! Allahım! Sənin lütfündən diləyirəm. Allahım! Məni daş-qalaq olunmuş [rəhmətindən qovulmuş, lənətə gəlmiş] şeytandan qoru!»[1]

## (15) Azan zikrləri

22. [Azan eşidildikdə] müəzzinin dedikləri təkrar olunmalıdır. Yalnız:

---

[1] Bundan öncəki hədisin mənbələrinə bax. Buradakı: «Allahım! Məni daşqalaq olunmuş şeytandan qoru!» əlavəsi ibn Macənindir. Bax: «Səhih ibn Macə», 1/129.

(( حَيَّ علَى الصَّلاَةِ حَيَّ عَلَى الْفَلاَحِ ))

[Hayyə aləs-saləh! Hayyə aləl-fələh]

«Namaza tələsin!», «Nicat tapmağa tələsin!» ifadələrinin hər biri:

(( لاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللهِ ))

[Lə həulə va lə quvvətə illə billəh]

«Qüdrət və güc yalnız Allahdadır!» ifadəsi ilə əvəz edilməlidir.[1]

٢٣ – (( وَأَنَا أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ وَ أَشْهَدُ أَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ، رَضِيتُ بِاللهِ رَبًّا، وَ بِمُحَمَّدٍ رَسُولاً، وَبِالْإِسْلاَمِ دِينًا ))

23. [Va ənə əşhədu ən lə iləhə illəllahu vahdəhu lə şərikə ləhu va əşhədu ənnə Muhəmmədən abduhu və rasuluhu. Radıtu billəhi Rabbən va bi Muhəm-mədin rasulən va bil-isləmi dinən]

---

[1] əl-Buxari, 1/152; Muslim, 1/288.

23. «Mən də şahidlik edirəm ki, Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir. Allahın Rəbb, Muhəmmədin elçi və İslamın din olduğundan razıyam!»[1] (Bu, müəzzinin şəhadət gətirməyinin ardınca deyilir.[2])

24. Azanı eşidib müəzzinin dediklərini axıra qədər təkrar edən şəxs söylədiklərini bitirdikdən sonra Peyğəmbərə ﷺ salavat gətirməlidir.[3]

25. Sonra da bu duanı oxumalıdır:

٢٥ – (( اللَّهُمَّ رَبَّ هَذِهِ الدَّعْوَةِ التَّامَّةِ، وَالصَّلاَةِ الْقَائِمَةِ، آتِ مُحَمَّدًا الْوَسِيلَةَ وَالْفَضِيلَةَ، وَابْعَثْهُ مَقَامًا مَحْمُودًا الَّذِي وَعَدْتَهُ [إِنَّكَ لاَ تُخْلِفُ الْمِيعَادَ] ))

[1] Muslim, 1/290.
[2] İbn Xuzeymə, 1/220.
[3] Muslim, 1/288.

25. [Allahummə Rabbə həzihid-də'vəti-t-təmmə vas-salətil qaimə əti Muhəmmədən əl-vasılətə val-fadılətə, vab'ashu məqamən məhmudənilləzi va'adtəhu] [<u>İnnəkə lə tuxliful-miad</u>]

«Bu tam dəvətin və qılınacaq namazın Rəbbi olan Allahım! Muhəmmədə vasitəçilik haqqı və fəzilət ver. Onu vəd etdiyin təriflənən məqama çatdır. [<u>Həqiqətən, Sən vədə xilaf çıxmırsan</u>!]»[1]

26. Azan və iqamə arasında özü üçün dua edir. Çünki bu vaxt edilən dua cavabsız qalmır.[2]

---

[1] əl-Buxari, 1/152. Mötərizədəki sözlər əl-Beyhəqinin əlavəsidir və bu əlavənin isnadı "*ceyyid*"dir. Bax: Əbdüləziz ibn Baz, «Tuhfətul-Əxyar», səh.38. [Lakin əl-Albani bu əlavəni "*şazz*" – zəif hesab etmişdir. Bax: «İrvaul-Ğəlil», 1/261.]

[2] ət-Tirmizi, Əbu Davud və Əhməd. Bax: «İrvaul-Ğəlil», 1/262.

## (16) [Namaza başlayarkən birinci təkbirdən[1] sonra edilən] açılış duası

٢٧ – (( اللَّهُمَّ بَاعِدْ بَيْنِي وَبَيْنَ خَطَايَايَ كَمَا بَاعَدْتَ بَيْنَ الْمَشْرِقِ وَالْمَغْرِبِ، اللَّهُمَّ نَقِّنِي مِنْ خَطَايَايَ كَمَا يُنَقَّى الثَّوْبُ ٱلْأَبْيَضُ مِنَ الدَّنَسِ، اللَّهُمَّ اغْسِلْنِي مِنْ خَطَايَايَ بِالثَّلْجِ وَالْمَاءِ وَالْبَرَدِ ))

27. [Allahummə bəıd beyni va beynə xatayəyə kəmə bə'adtə beynəl-məşriqı val-məğribi, Allahummə nəqqıni min xatayəyə kəmə yunəqqas-səubul-əbyədu minəd-dənəsi. Allahummə-ğsilni min xatayəyə bis-səlci val-məi val-bəradi]

27. «Allahım! Məğriblə məşriqin arasını uzaqlaşdırdığın kimi, məni də günahlarımdan uzaqlaşdır! Allahım! Ağ paltar kirdən təmizləndiyi kimi, məni də günahlarımdan təmizlə! Allahım! Mənim günahlarımı qar, su və dolu ilə yu!»[2]

---

[1] [Təkbir – "Allahu Əkbər" demək.]

[2] əl-Buxari, 1/181; Muslim, 1/419.

٢٨ – (( سُبْحَانَكَ اللَّهُمَّ وَبِحَمْدِكَ، وَتَبَارَكَ اسْمُكَ، وَتَعَالَى جَدُّكَ، وَلاَ إِلَهَ غَيْرُكَ ))

28. [Subhanək-əllahummə Va bihəmdikə Va təbərakəs-mukə va təalə cəddukə va lə iləhə ğayrukə]

28. «Allahım! Sən pak və müqəddəssən. Sənə həmd olsun. Sənin adın mübarək, əzəmətin ucadır. Səndən başqa məbud yoxdur!»[1]

٢٩ – (( وَجَّهْتُ وَجْهِيَ لِلَّذِي فَطَرَ السَّمَوَاتِ وَالْأَرْضَ حَنِيفًا وَمَا أَنَا مِنَ الْمُشْرِكِينَ، إِنَّ صَلاَتِي، وَنُسُكِي، وَمَحْيَايَ، وَمَمَاتِي لِلهِ رَبِّ الْعَالَمِينَ، لاَ شَرِيكَ لَهُ وَبِذَلِكَ أُمِرْتُ وَأَنَا مِنَ الْمُسْلِمِينَ. اللَّهُمَّ أَنْتَ الْمَلِكُ لاَ إِلَهَ إِلاَّ أَنْتَ. أَنْتَ رَبِّي وَأَنَا عَبْدُكَ، ظَلَمْتُ نَفْسِي وَاعْتَرَفْتُ بِذَنْبِي، فَاغْفِرْ لِي ذُنُوبِي جَمِيعًا، إِنَّهُ لاَ يَغْفِرُ الذُّنُوبَ إِلاَّ أَنْتَ. وَاهْدِنِي لأَحْسَنِ الْأَخْلاَقِ، لاَ يَهْدِي لأَحْسَنِهَا إِلاَّ أَنْتَ، وَاصْرِفْ عَنِّي سَيِّئَهَا، لاَ يَصْرِفُ عَنِّي سَيِّئَهَا إِلاَّ أَنْتَ. لَبَّيْكَ وَسَعْدَيْكَ، وَالْخَيْرُ كُلُّهُ

[1] "Sünən" əsərlərinin müəllifləri. Bax: «Səhih ət-Tirmizi», 1/77 və «Səhih ibn Macə», 1/135.

بِيَدَيْكَ، وَالشَّرُّ لَيْسَ إِلَيْكَ، أَنَا بِكَ وَإِلَيْكَ، تَبَارَكْتَ وَتَعَالَيْتَ، أَسْتَغْفِرُكَ وَأَتُوبُ إِلَيْكَ ))

29. [Vaccəhtu vachiyə lilləzi fətaras-səməvati val-arda hənifən va mə ənə minəl-muşrikin, innə saləti va nusuki va məhyəyə va məməti lilləhi Rabbil-aləmin, lə şərikə ləhu va bizəlikə umirtu va ənə minəl-muslimin. Allahummə əntəl-məliku lə iləhə illə ənt. Əntə Rabbi va ənə abdukə zaləmtu nəfsi va'təraftu bizənbi, fəğfir li zunubi cəmian, innəhu lə yəğfiruz-zunubə illə ənt, vahdini li-əhsənil-əxləqı lə yəhdi liəhsənihə illə ənt, vasrıf anni seyyiəhə lə yəsrıfu anni seyyiəhə illə ənt. Ləbbeykə va sə'deykə, val-xayru kulluhu biyədeykə, vaş-şərru leysə ileykə, ənə bikə va ileykə, təbəraktə va təaleyt, əstəğfirukə va ətubu ileyk]

29. «Üzümü hənif olaraq[1] göyləri və yeri yaradana çevirdim. Mən müşriklərdən

[1] [Hənif – ixlasla yalnız Allaha ibadət edən.]

deyiləm. Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür. Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən müsəlmanlardanam. Allahım! Hökmdar Sənsən. Səndən başqa məbud yoxdur. Sən mənim Rəbbimsən, mən isə Sənin qulunam. Özümə zülm etdim və günahımı etiraf etdim. Mənim bütün günahlarımı bağışla! Şübhəsiz ki, günahları ancaq Sən bağışlaya bilərsən. Mənə ən gözəl əxlaqı nəsib et! Onun ən gözəlini ancaq Sən bəxş edə bilərsən. Onun pisindən məni uzaq et! Məni onun pisindən ancaq Sən uzaqlaşdıra bilərsən. Buyur, əmrinə müntəzirəm! Xeyir bütünlüklə Sənin iki Əlindədir. Şər isə Sənə aid deyildir. Mən Səninləyəm, Sənə də dönəcəyəm. Mübarək və Ucasan! Səndən bağışlanma diləyir və Sənə tövbə edirəm».[1]

[1] Muslim, 1/534.

٣٠ – (( اللَّهُمَّ رَبَّ جِبْرَائِيلَ، وَمِيكَائِيلَ، وَإِسْرَافِيلَ، فَاطِرَ السَّمَوَاتِ وَالْأَرْضِ، عَالِمَ الْغَيْبِ وَالشَّهَادَةِ، أَنْتَ تَحْكُمُ بَيْنَ عِبَادِكَ فِيمَا كَانُوا فِيهِ يَخْتَلِفُونَ. اهْدِنِي لِمَا اخْتُلِفَ فِيهِ مِنَ الْحَقِّ بِإِذْنِكَ، إِنَّكَ تَهْدِي مَنْ تَشَاءُ إِلَى صِرَاطٍ مُسْتَقِيمٍ ))

30. [Allahummə Rabbə Cibrailə va Mikəilə va İsrafilə fətıras-səməvati val-ard, aliməl-ğaybi vaş-şəhədəti əntə təhkumu beynə ıbədikə fimə kənu fihi yəxtəlifun. İhdini liməxtulifə fihi minəl-həqqı bi iznikə innəkə təhdi mən təşəu ilə sıratın mustəqım]

30. «Cəbrailin, Mikailin və İsrafilin Rəbbi, göyləri və yeri yaradan, qeybdə və aşkarda olanı Bilən Allahım! İxtilafda olduqları şeylər barəsində bəndələrin arasında Sən hökm verirsən. Baş vermiş ixtilafda məni Öz izninlə haqqa yönəlt! Həqiqətən, Sən istədiyini doğru yola yönəldirsən».[1]

[1] Muslim, 1/534.

٣١ – (( اللهُ أَكْبَرُ كَبِيرًا، اللهُ أَكْبَرُ كَبِيرًا، اللهُ أَكْبَرُ كَبِيرًا، وَالْحَمْدُ للهِ كَثِيرًا، وَالْحَمْدُ للهِ كَثِيرًا، وَالْحَمْدُ للهِ كَثِيرًا، وَسُبْحَانَ اللهِ بُكْرَةً وَأَصِيلاً وَسُبْحَانَ اللهِ بُكْرَةً وَأَصِيلاً، وَسُبْحَانَ اللهِ بُكْرَةً وَأَصِيلاً، أَعُوذُ بِاللهِ مِنَ الشَّيْطَانِ: مِنْ نَفْخِهِ وَنَفْثِهِ وَهَمْزِهِ ))

31. [Allahu əkbəru kəbiran, Allahu əkbəru kəbiran, Allahu əkbəru kəbiran, val-həmdulilləhi kəsiran, val-həmdulilləhi kəsiran, val-həmdulilləhi kəsiran, va subhanəllahi bukratən va əsılən, va subhanəllahi bukratən va əsılən, va subhanəllahi bukratən va əsılən. Əuzu billəhi minəş-şeytani, min nəfxihi va nəfsihi va həmzihi]

31. «Allah böyüklükdə ən Böyükdür, Allah böyüklükdə ən Böyükdür, Allah böyüklükdə ən Böyükdür! Allaha çoxlu-çoxlu həmd olsun, Allaha çoxlu-çoxlu həmd olsun, Allaha çoxlu-çoxlu həmd olsun! Səhər-axşam Allaha təriflər olsun!

Səhər-axşam Allaha təriflər olsun! Səhər-axşam Allaha təriflər olsun! Şeytandan – onun lovğalığından, sehrindən və vəsvəsəsindən Allaha sığınıram!»[1]

٣٢ – (( اللَّهُمَّ لَكَ الْحَمْدُ أَنْتَ نُورُ السَّمَوَاتِ وَالْأَرْضِ وَمَنْ فِيهِنَّ، وَلَكَ الْحَمْدُ أَنْتَ قَيِّمُ السَّمَوَاتِ وَالْأَرْضِ وَمَنْ فِيهِنَّ، [وَلَكَ الْحَمْدُ أَنْتَ رَبُّ السَّمَوَاتِ وَالْأَرْضِ وَمَنْ فِيهِنَّ] [وَلَكَ الْحَمْدُ لَكَ مُلْكُ السَّمَوَاتِ وَالْأَرْضِ وَمَنْ فِيهِنَّ] [وَلَكَ الْحَمْدُ أَنْتَ مَلِكُ السَّمَوَاتِ وَالْأَرْضِ] [وَلَكَ الْحَمْدُ] [أَنْتَ الْحَقُّ، وَوَعْدُكَ الْحَقُّ، وَقَوْلُكَ الْحَقُّ، وَلِقَاؤُكَ الْحَقُّ، وَالْجَنَّةُ حَقٌّ، وَالنَّارُ حَقٌّ، وَالنَّبِيُّونَ حَقٌّ، وَمُحَمَّدٌ (ﷺ) حَقٌّ، وَالسَّاعَةُ حَقٌّ] [اللَّهُمَّ لَكَ أَسْلَمْتُ، وَعَلَيْكَ تَوَكَّلْتُ، وَبِكَ آمَنْتُ، وَإِلَيْكَ أَنَبْتُ، وَبِكَ خَاصَمْتُ، وَإِلَيْكَ حَاكَمْتُ، فَاغْفِرْ لِي مَا قَدَّمْتُ، وَمَا أَخَّرْتُ، وَمَا أَسْرَرْتُ، وَمَا أَعْلَنْتُ] [أَنْتَ الْمُقَدِّمُ، وَأَنْتَ الْمُؤَخِّرُ، لاَ إِلَهَ إِلاَّ أَنْتَ] [أَنْتَ إِلَهِي لاَ إِلَهَ إِلاَّ أَنْتَ] ))

---

[1] Əbu Davud, 1/203; İbn Macə 1/265; Əhməd 4/85; Muslim 1/420.

32. [Allahummə ləkəl-həmdu əntə nurus-səməvati val-ardı va mən fihinnə, va ləkəl-həmdu əntə qayyimus-səməvati val-ardı və mən fihinnə [va ləkəl-həmdu əntə Rabbus-səməvati val-ardı va mən fihinnə], [va ləkəl-həmdu ləkə mulkus-səməvati val-ardı va mən fihinnə], [va ləkəl-həmdu əntə məlikus-səməvati val-ard], [va ləkəl-həmdu] [əntəl-həqq, va va'dukəl-həqq, va qaulukəl-həqq, va liqaukəl-həqq, val-Cənnətu həqqun, van-Nəru həqqun, van-nəbiyyunə həqqun, va Muhəmmədun sallallahu aleyhi va sələm həqqun, vas-səatu həqqun], [Allahummə ləkə əsləmtu va aleykə təvakkəltu, va bikə əməntu, va ileykə ənəbtu, va bikə xasəmtu, va ileykə hənkəmtu, fəğfir li mə qaddəmtu va mə əxxartu va mə əsrərtu va mə ə'ləntu], [əntəl-muqaddimu va əntəl-muəxxiru lə iləhə illə ənt], [əntə iləhi lə iləhə illə ənt]].

32. «Allahım! Həmd Sənədir.[1] Sən göylərin, yerin və onlarda olanların nurusan. Həmd Sənədir. Sən göylərin, yerin və onlarda olanların Hamisisən. [Həmd Sənədir. Sən göylərin, yerin və onlarda olanların Rəbbisən.] [Həmd Sənədir. Göylərin, yerin və onlarda olanların səltənəti Sənə məxsusdur.] [Həmd Sənədir. Sən göylərin və yerin Hökmdarısan.] [Həmd Sənədir.] [Sən Haqsan. Verdiyin vəd haqdır. Dediyin söz haqdır. Sənə qovuşmaq haqdır. Cənnət haqdır. Cəhənnəm haqdır. Peyğəmbərlər haqdır. Muhəmməd ﷺ haqdır. Qiyamət haqdır.] [Allahım! Sənə təslim oldum, Sənə təvəkkül etdim, Sənə iman gətirdim, tövbə edib Sənə döndüm, Sənin uğrunda mübarizə apardım və Sənin hökmünə üz tutdum. Əvvəl etdiyim, sonra edəcəyim, gizlin saxladığım və üzə çıxardığım [pis] əməllərimi bağışla!] [Əvvələ çəkən də Sənsən,

---

[1] Peyğəmbər ﷺ gecə qalxıb namaz qılarkən bu duanı oxuyardı.

təxirə salan da Sənsən. Səndən başqa məbud yoxdur. Sən mənim məbudumsan, Səndən başqa məbud yoxdur.]»[1]

## (17) Rükuda[2] edilən dua

٣٣ – (( سُبْحَانَ رَبِّيَ الْعَظِيمِ ))

33. [Subhanə rabbiyəl-azım]

33. «Böyük Rəbbim pak və müqəddəsdir!» (üç dəfə)[3]

٣٤ – (( سُبْحَانَكَ اللَّهُمَّ رَبَّنَا وَبِحَمْدِكَ اللَّهُمَّ اغْفِرْ لِي ))

34. [Subhanək-Allahummə Rabbənə va bihəmdikə, Allahummə-ğfirli]

---

[1] «Fəthul-Bari», 3/3, 11/116, 13/371, 423, 465; Muslim, buna bənzərini ixtisarla rəvayət etmişdir (1/532).

[2] [Rüku – namazda əlləri dizlərə dayayıb əyilmə vəziyyəti.]

[3] "Sünən" əsərlərinin müəllifləri və Əhməd. Bax: «Səhihu-t-Tirmizi», 1/83.

34. «Allahım! Sən pak və müqəddəssən. Ey Rəbbimiz! Sənə həmd olsun. Allahım, məni bağışla!»[1]

٣٥ – (( سُبُّوحٌ، قُدُّوسٌ، رَبُّ الْمَلاَئِكَةِ وَالرُّوحِ ))

35. [Subbuhun, quddusun, Rabbul-mələikəti var-ruh]

35. «Pakdır, müqəddəsdir, mələklərin və Ruhun Rəbbidir!»[2]

٣٦ – (( اللَّهُمَّ لَكَ رَكَعْتُ، وَبِكَ آمَنْتُ، وَلَكَ أَسْلَمْتُ، خَشَعَ لَكَ سَمْعِي، وَ بَصَرِي، وَمُخِّي، وَعَظْمِي، وَعَصَبِي، وَمَا اسْتَقَلَّ بِهِ قَدَمِي ))

36. [Allahummə ləkə rakə'tu va bikə əməntu va ləkə əsləmtu xaşəa ləkə səm'i va bəsari va muxxi va azmi va asabi va məstəqallə bihi qadəmi]

36. «Allahım! Sənə rüku etdim, Sənə iman gətirdim, Sənə təslim oldum!

[1] əl-Buxari, 1/99; Muslim, 1/350.

[2] Muslim, 1/353 və Əbu Davud, 1/230.

Qulağım, gözüm, beynim, sümüyüm, sinirim və ayaqlarımın üstündə dayanan (bədənim) Sənə tabe oldu!»[1]

٣٧ – (( سُبْحَانَ ذِي الْجَبَرُوتِ، وَالْمَلَكُوتِ، وَالْكِبْرِيَاءِ، وَالْعَظَمَةِ ))

37. [Subhanə zil-cəbəruti, val-mələkuti, val-kibriyəi, val-azaməti]

37. «Qüdrət, səltənət, böyüklük və əzəmət Sahibi pak və müqəddəsdir!»[2]

## (18) Rükudan qalxarkən edilən dua

٣٨ – (( سَمِعَ اللهُ لِمَنْ حَمِدَهُ ))

38. [Səmia-llahu limən həmidəh]

38. «Allah Ona həmd edəni eşitdi!»[3]

---

[1] Muslim, 1/534; İbn Macə istisna olmaqla "Sünən" əsərlərinin müəllifləri.

[2] Əbu Davud, 1/230; ən-Nəsai və Əhməd. İsnadı "həsən"dir. [Bax: «Səhih Əbu Davud», 1/166.]

[3] «Fəthul-Bari», 2/282.

٣٩ – (( رَبَّنَا وَلَكَ الْحَمْدُ، حَمْدًا كَثِيرًا طَيِّبًا مُبَارَكًا فِيهِ ))

39. [Rabbənə va ləkəl-həmd, həmdən kəsiran tayyibən mubərakən fih]

39. «Ey Rəbbimiz! Sənə həmd olsun; (özü də) çoxlu, xoş, mübarək bir həmd!»[1]

[*Rabbənə va ləkəl-həmd!* dedikdən sonra bunu da əlavə etmək olar:]

٤٠ – ((... مِلْءَ السَّمَوَاتِ وَمِلْءَ الْأَرْضِ وَمَا بَيْنَهُمَا، وَمِلْءَ مَا شِئْتَ مِنْ شَيْءٍ بَعْدُ. أَهْلَ الثَّنَاءِ وَالْمَجْدِ، أَحَقُّ مَا قَالَ الْعَبْدُ، وَكُلُّنَا لَكَ عَبْدٌ. اللَّهُمَّ لاَ مَانِعَ لِمَا أَعْطَيْتَ، وَلاَ مُعْطِيَ لِمَا مَنَعْتَ، وَلاَ يَنْفَعُ ذَا الْجَدِّ مِنْكَ الْجَدُّ ))

40. [...mil′əs-səməvati va mil′əl-ardı va mə beynəhumə, va mil′ə mə şi′tə min şeyin bə′d. Əhləs-sənəi val-məcdi, əhəqqu mə qaləl-abdu, va kullunə ləkə abdun. Allahumə lə məni'a limə ə'teytə va lə mu'tiyə limə mənə'tə va lə yənfəu zəl-cəddi minkəl-cədd]

[1] «Fəthul-Bari», 2/284.

40. «Göylər dolusu, yer dolusu, onların arasında olanlar və bundan sonra dilədiyin şeylər dolusu [Sənə həmd olsun!]. Ey tərif və şərəf Sahibi! Bəndənin – hamımız Sənin qulunuq – söylədiyi ən doğru söz budur: Allahım! Sənin verdiyinə mane olacaq, mane olduğunu da verəcək (bir kəs) yoxdur. Heç bir hörmət sahibinə Sənin yanında hörməti fayda verməz».[1]

## (19) Səcdədə edilən dua

٤١ – (( سُبْحَانَ رَبِّيَ الْأَعْلَى ))

41. [Subhanə Rabbiyəl-ə'lə]

41. «Ən Uca Rəbbim pak və müqəddəsdir!» (üç dəfə)[2]

٤٢ – (( سُبْحَانَكَ اللَّهُمَّ رَبَّنَا وَبِحَمْدِكَ اللَّهُمَّ اغْفِرْ لِي ))

---

[1] Muslim, 1/346.

[2] "Sünən" əsərlərinin müəllifləri və Əhməd. Bax: «Səhihut-Tirmizi», 1/83.

42. [Subhanəkə-llahummə Rabbənə va bihəmdikə, Allahummə-ğfir li]

42. «Allahım! Sən pak və müqəddəssən. Ey Rəbbimiz! Sənə həmd olsun. Allahım, məni bağışla!»[1]

٤٣ – (( سُبُّوحٌ، قُدُّوسٌ، رَبُّ الْمَلاَئِكَةِ وَالرُّوحِ ))

43. [Subbuhun, quddusun, Rabbul-mələikəti var-ruh]

43. «Pakdır, müqəddəsdir, mələklərin və Ruhun Rəbbidir!»[2]

٤٤ – (( اللَّهُمَّ لَكَ سَجَدْتُ، وَبِكَ آمَنْتُ، وَلَكَ أَسْلَمْتُ، سَجَدَ وَجْهِيَ لِلَّذِي خَلَقَهُ، وَصَوَّرَهُ، وَشَقَّ سَمْعَهُ وَبَصَرَهُ، تَبَارَكَ اللهُ أَحْسَنُ الْخَالِقِينَ ))

44. [Allahummə ləkə səcədtu va bikə əməntu va ləkə əsləmtu, səcədə vachiyə lilləzi xaləqahu, va səvvarahu, va şəqqa səm'ahu və bəsarahu, təbərakəllahu əhsənul-xaliqın]

---

[1] əl-Buxari, 1/99; Muslim, 1/350.

[2] Muslim, 1/533.

44. «Allahım! Sənə səcdə etdim, Sənə iman gətirdim, Sənə təslim oldum! Üzüm onu yaradana, ona surət verənə, onda göz və qulaq açana səcdə etdi. Yaradanların ən gözəli olan Allah nə qədər xeyirxahdır!»[1]

٤٥ – (( سُبْحَانَ ذِي الْجَبَرُوتِ، وَالْمَلَكُوتِ، وَالْكِبْرِيَاءِ، وَالْعَظَمَةِ ))

45. [Subhanə zil-cəbəruti, val-mələkuti, val-kibriyəi, val-azaməti]

45. «Qüdrət, səltənət, böyüklük və əzəmət sahibi pak və müqəddəsdir!»[2]

٤٦ – (( اللَّهُمَّ اغْفِرْ لِي ذَنْبِي كُلَّهُ، دِقَّهُ وَجِلَّهُ، وَأَوَّلَهُ وَآخِرَهُ، وَعَلاَنِيَتَهُ وَسِرَّهُ ))

46. [Allahummə-ğfir li zənbi kulləhu, diqqahu va cilləhu, va əvvaləhu va əxirahu va aləniyətəhu va sirrahu]

---

[1] Muslim, 1/534 və digərləri.

[2] Əbu Davud, 1/230; ən-Nəsai və Əhməd. əl-Albani bu hədisi "səhih" hesab etmişdir. Bax: «Səhih Əbu Davud», 1/166.

46. «Allahım! Günahlarımın hamısını – kiçiyini və böyüyünü, birincisini və axırıncısını, aşkarını və gizlisini mənə bağışla!»[1]

٤٧ – (( اللَّهُمَّ إِنِّي أَعُوذُ بِرِضَاكَ مِنْ سَخَطِكَ، وَبِمُعَافَاتِكَ مِنْ عُقُوبَتِكَ، وَأَعُوذُ بِكَ مِنْكَ، لاَ أُحْصِي ثَنَاءً عَلَيْكَ أَنْتَ كَمَا أَثْنَيْتَ عَلَى نَفْسِكَ ))

47. [Allahummə inni əuzu birıdakə min səxatikə va bimuafətikə min uqubətikə va əuzu bikə minkə, lə uhsı sənə'ən aleykə əntə kəmə əsneytə alə nəfsikə]

47. «Allahım! Sənin qəzəbindən razılığına, cəzandan əfvinə sığınıram. Səndən Sənə pənah aparıram. Mən Səni (layiqincə) tərif edə bilmərəm. Sən Özün Özünü tərif etdiyin kimisən!»[2]

---

[1] Muslim, 1/350.

[2] Muslim, 1/532.

# (20) İki səcdə arasında oturduqda edilən dua

٤٨ – (( رَبِّ اغْفِرْ لِي، رَبِّ اغْفِرْ لِي ))

48. [Rabbi-ğfir li, Rabbi-ğfir li]

48. «Rəbbim, məni bağışla! Rəbbim, məni bağışla!»[1]

٤٩ – (( اللَّهُمَّ اغْفِرْ لِي، وَارْحَمْنِي، وَاهْدِنِي، وَاجْبُرْنِي، وَعَافِنِي، وَارْزُقْنِي، وَارْفَعْنِي ))

49. [Allahummə-ğfir li, varhəmni, vahdini, vacburni, va afini, varzuqni, varfə'ni]

49. «Allahım! Məni bağışla, mənə rəhm et, məni doğru yola yönəlt, mənə lütf et, mənə salamatlıq ver, mənə ruzi yetir və məni ucalt!»[2]

---

[1] Əbu Davud, 1/231; «Səhih İbn Macə», 1/148.

[2] Bunu, ən-Nəsai istisna olmaqla, «Sünən» əsərlərinin müəllifləri rəvayət etmişlər. Bax: «Səhihut-Tirmizi», 1/90; «Səhih İbn Macə», 1/148.

## (21) Tilavət səcdəsində[1] edilən dua

٥٠ – (( سَجَدَ وَجْهِيَ لِلَّذِي خَلَقَهُ، وَشَقَّ سَمْعَهُ وَبَصَرَهُ بِحَوْلِهِ وَقُوَّتِهِ ﴿ فَتَبَارَكَ اللهُ أَحْسَنُ الْخَالِقِينَ ﴾))

50. [Səcədə vachiyə lilləzi xaləqahu, va şəqqa səm'ahu, va bəsarahu bihəulihi va quvvatihi (fətəbərakəllahu əhsənul-xaliqın)]

50. «Üzüm onu yaradana, Öz qüdrət və gücü ilə onda göz və qulaq açana səcdə etdi. Yaradanların ən gözəli olan Allah nə qədər xeyirxahdır!»[2]

٥١ – (( اللَّهُمَّ اكْتُبْ لِي بِهَا عِنْدَكَ أَجْرًا، وَضَعْ عَنِّي بِهَا وِزْرًا، وَ اجْعَلْهَا لِي عِنْدَكَ ذُخْرًا، وَتَقَبَّلْهَا مِنِّي كَمَا تَقَبَّلْتَهَا مِنْ عَبْدِكَ دَاوُدَ ))

---

[1] [Quran oxuyarkən səcdə edilməsi əmr olunmuş ayəni oxuduqdan sonra səcdə etmək.]

[2] ət-Tirmizi 2/474; Əhməd 6/30; Hakim onu "səhih" hesab etmiş, əz-Zəhəbi də bunu təsdiqləmişdir, 1/220. Əlavə də onundur.

51. [Allahummə-ktub li bihə ındəkə əcran, va da' anni bikə vizran, vaca'lhə li ındəkə zuxran, va təqabbəlhə minni kəmə təqabbəltəhə min abdikə Davud]

51. «Allahım! Bunun sayəsində mənə Öz yanında mükafat yaz, onun səbəbilə məndən yükü götür [günahımı sil], onu mənim üçün Öz yanında saxla və onu bəndən Davuddan qəbul etdiyin kimi məndən də qəbul et!»[1]

## (22) Təşəhhüd

٥٢ – (( التَّحِيَّاتُ للهِ، وَالصَّلَوَاتُ، وَالطَّيِّبَاتُ، السَّلاَمُ عَلَيْكَ أَيُّهَا النَّبِيُّ وَرَحْمَةُ اللهِ وَبَرَكَاتُهُ، السَّلاَمُ عَلَيْنَا وَعَلَى عِبَادِ اللهِ الصَّالِحِينَ. أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللهُ وَ أَشْهَدُ أَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ ))

[1] ət-Tirmizi, 2/473. Hakim onu "səhih" hesab etmiş, əz-Zəhəbi də bunu təsdiqləmişdir (1/219). [Bax: «Səhihu-t-Tirmizi», 3/151.]

52. [Əttəhiyyətu lilləhi, vas-saləvatu, vat-tayyibətu, əssələmu aleykə əyyuhən-nəbiyyu va rahmətullahi va bərakətuhu, əssələmu aleynə va alə ibədilləhis-salihin. Əşhədu ən lə iləhə illəllah va əşhədu ənnə Muhəmmədən abduhu va rasuluhu]

52. «Salamlar, dualar və gözəlliklər Allaha aiddir. Ey Peyğəmbər, sənə salam olsun, Allahın mərhəməti və Onun bərəkəti [olsun]! Bizə və Allahın əməlisaleh qullarına salam olsun! Mən şahidlik edirəm ki, Allahdan başqa məbud yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir».[1]

## (23) Təşəhhüddən sonra Peyğəmbərə ﷺ oxunan salavat

٥٣ - (( اللَّهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَعَلَى آلِ مُحَمَّدٍ كَمَا صَلَّيْتَ عَلَى إِبْرَاهِيمَ وَعَلَى آلِ إِبْرَاهِيمَ، إِنَّكَ حَمِيدٌ مَجِيدٌ. اللَّهُمَّ

[1] «Fəthul-Bari», 1/13; Muslim, 1/301.

بَارِكْ عَلَى مُحَمَّدٍ وَعَلَى آلِ مُحَمَّدٍ كَمَا بَارَكْتَ عَلَى إِبْرَاهِيمَ وَعَلَى آلِ إِبْرَاهِيمَ، إِنَّكَ حَمِيْدٌ مَجِيْدٌ ))

53. [Allahummə salli alə Muhəmmədin va alə ali Muhəmməd, kəmə salleytə alə İbrahimə va alə ali İbrahim, innəkə həmidun məcid. Allahummə bərik alə Muhəmmədin və alə ali Muhəmməd, kəmə bəraktə alə İbrahimə va alə ali İbrahim, innəkə həmidun məcid]

53. «Allahım! İbrahimə və İbrahimin ailəsinə xeyir-dua verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də xeyir-dua ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən! Allahım! İbrahimə və İbrahimin ailəsinə bərəkət verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də bərəkət ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən!»[1]

[1] «Fəthul-Bari», 6/408. [Bax: «Səhih əl-Buxari», 3/1233.]

٥٤ – (( اللَّهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَعَلَى أَزْوَاجِهِ وَذُرِّيَّتِهِ، كَمَا صَلَّيْتَ عَلَى آلِ إِبْرَاهِيمَ. وَبَارِكْ عَلَى مُحَمَّدٍ وَعَلَى أَزْوَاجِهِ وَذُرِّيَّتِهِ كَمَا بَارَكْتَ عَلَى آلِ إِبْرَاهِيمَ. إِنَّكَ حَمِيدٌ مَجِيدٌ ))

54. [Allahummə salli alə Muhəmmədin va alə əzvacihi va zurriyyətihi, kəmə salleytə alə ali İbrahim. Va bərik alə Muhəmmədin va alə əzvacihi va zurriyyətihi, kəmə bəraktə alə ali İbrahim. İnnəkə həmidun məcid]

54. «Allahım! İbrahimin ailəsinə xeyir-dua verdiyin kimi, Muhəmmədə, onun zövcələrinə və nəslinə də xeyir-dua ver! İbrahimin ailəsinə bərəkət verdiyin kimi, Muhəmmədə, onun zövcələrinə və nəslinə də bərəkət ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən!»[1]

---

[1] «Fəthul-Bari», 6/407 və Muslim, 1/306. Mətn Muslimindir.

## (24) Axırıncı təşəhhüddən sonra, salamdan qabaq edilən dua

٥٥ – (( اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ عَذَابِ الْقَبْرِ، وَمِنْ عَذَابِ جَهَنَّمَ، وَمِنْ فِتْنَةِ الْمَحْيَا وَالْمَمَاتِ، وَمِنْ شَرِّ فِتْنَةِ الْمَسِيحِ الدَّجَّالِ ))

55. [Allahummə inni əuzu bikə min azəbil-qabri, va min azəbi Cəhənnəmə, va min fitnətil-məhyə val-məməti, va min şərri fitnətil-məsihid-dəccəl]

55. «Allahım! Qəbir əzabından, Cəhənnəm əzabından, həyatın və ölümün fitnəsindən, dəccal məsihin fitnəsinin şərindən Sənə pənah aparıram!»[1]

٥٦ – (( اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ عَذَابِ الْقَبْرِ، وَأَعُوذُ بِكَ مِنْ فِتْنَةِ الْمَسِيحِ الدَّجَّالِ، وَأَعُوذُ بِكَ مِنْ فِتْنَةِ الْمَحْيَا وَالْمَمَاتِ. اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الْمَأْثَمِ وَالْمَغْرَمِ ))

---

[1] əl-Buxari, 2/102; Muslim, 1/412. Buradakı mətn Muslimindir.

56. [Allahummə inni əuzu bikə min azəbil-qabri, va əuzu bikə min fitnətil-məsihid-dəccəl, va əuzu bikə min fitnətil-məhyə val-məməti. Allahummə inni əuzu bikə minəl-mə'səmi val-məğrami]

56. «Allahım! Qəbir əzabından Sənə sığınıram. Dəccal məsihin fitnəsindən Sənə sığınıram. Həyatın və ölümün fitnəsindən Sənə sığınıram. Allahım! Günahdan və cərimədən (borcdan) Sənə sığınıram».[1]

٥٧ – (( اللَّهُمَّ إِنِّي ظَلَمْتُ نَفْسِي ظُلْمًا كَثِيرًا، وَلاَ يَغْفِرُ الذُّنُوبَ إِلاَّ أَنْتَ، فَاغْفِرْ لِي مَغْفِرَةً مِنْ عِنْدِكَ وَارْحَمْنِي، إِنَّكَ أَنْتَ الْغَفُورُ الرَّحِيمُ ))

57. [Allahummə inni zaləmtu nəfsi zulmən kəsiran, va lə yəğfiruz-zunubə illə ənt, fəğfir li məğfiratən min ındikə varhəmni, innəkə əntəl-ğafurur-rahim]

[1] əl-Buxari, 1/202; Muslim, 1/412.

57. «Allahım! Mən özümə çoxlu zülm etdim. Günahları yalnız Sən bağışlayırsan. Özün günahımdan keçməklə məni bağışla və mənə rəhm et. Həqiqətən, Sən Bağışlayansan, Rəhmlisən!»[1]

٥٨ – (( اللَّهُمَّ اغْفِرْ لِي مَا قَدَّمْتُ، وَمَا أَخَّرْتُ، وَمَا أَسْرَرْتُ، وَمَا أَعْلَنْتُ، وَمَا أَسْرَفْتُ، وَمَا أَنْتَ أَعْلَمُ بِهِ مِنِّي. أَنْتَ الْمُقَدِّمُ ، وَأَنْتَ الْمُؤَخِّرُ، لاَ إِلَهَ إِلاَّ أَنْتَ ))

58. [Allahummə-ğfir li mə qaddəmtu, va mə əxxartu, va mə əsrartu, va mə ə'ləntu, va mə əsraftu, va mə əntə ə'ləmu bihi minni. Əntəl-muqaddimu, va əntəl-muəxxiru, lə iləhə illə ənt]

58. «Allahım! Əvvəl etdiyim və sonra edəcəyim, gizlin saxladığım və üzə çıxardığım, xəta etdiyim və məndən daha yaxşı bildiyin [pis] əməllərimi bağışla! Əvvələ çəkən də Sənsən, təxirə salan da Sənsən. Səndən başqa məbud yoxdur».[2]

---

[1] əl-Buxari, 8/168; Muslim, 4/2078.

[2] Muslim, 1/534.

٥٩ – (( اللَّهُمَّ أَعِنِّي عَلَى ذِكْرِكَ، وَشُكْرِكَ، وَحُسْنِ عِبَادَتِكَ ))

59. [Allahummə əınni alə zikrikə, va şukrikə, va husni ıbədətikə]

59. «Allahım! Səni xatırlamaq, Sənə şükür etmək və Sənə gözəl tərzdə ibadət etmək üçün mənə yardım et!»[1]

٦٠ – (( اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الْبُخْلِ، وَأَعُوذُ بِكَ مِنَ الْجُبْنِ، وَأَعُوذُ بِكَ مِنْ أَنْ أُرَدَّ إِلَى أَرْذَلِ الْعُمْرِ، وَأَعُوذُ بِكَ مِنْ فِتْنَةِ الدُّنْيَا وَعَذَابِ الْقَبْرِ ))

60. [Allahummə inni əuzu bikə minəl-buxli, va əuzu bikə minəl-cubni, va əuzu bikə min ən uraddə ilə ərzəlil-umri, va əuzu bikə min fitnətid-dunya va azəbil-qabr]

60. «Allahım! Xəsislikdən Sənə sığınıram. Qorxaqlıqdan Sənə sığınıram.

---

[1] Əbu Davud, 2/86; Ən-Nəsai, 3/53. əl-Albani bu hədisi "səhih" hesab etmişdir. Bax: «Səhih Əbu Davud», 1/284.

Qocalığın ən düşkün çağına çatmaqdan Sənə sığınıram. Dünyanın fitnəsindən və qəbir əzabından Sənə sığınıram!»[1]

٦١ – (( اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْجَنَّةَ وَأَعُوذُ بِكَ مِنَ النَّارِ ))

61. [Allahummə inni əs'əlukəl-cənnətə va əuzu bikə minən-nər]

61. «Allahım! Səndən Cənnəti diləyirəm və Cəhənnəmdən Sənə sığınıram!»[2]

٦٢ – (( اللَّهُمَّ بِعِلْمِكَ الْغَيْبَ وَقُدْرَتِكَ عَلَى الْخَلْقِ أَحْيِنِي مَا عَلِمْتَ الْحَيَاةَ خَيْرًا لِي، وَتَوَفَّنِي إِذَا عَلِمْتَ الْوَفَاةَ خَيْرًا لِي، اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ خَشْيَتَكَ فِي الْغَيْبِ وَالشَّهَادَةِ، وَأَسْأَلُكَ كَلِمَةَ الْحَقِّ فِي الرِّضَا وَالْغَضَبِ، وَأَسْأَلُكَ الْقَصْدَ فِي الْغِنَى وَالْفَقْرِ، وَأَسْأَلُكَ نَعِيمًا لاَ يَنْفَدُ، وَأَسْأَلُكَ قُرَّةَ عَيْنٍ لاَ تَنْقَطِعُ، وَأَسْأَلُكَ الرِّضَا بَعْدَ الْقَضَاءِ، وَأَسْأَلُكَ بَرْدَ الْعَيْشِ بَعْدَ الْمَوْتِ، وَأَسْأَلُكَ لَذَّةَ النَّظَرِ إِلَى وَجْهِكَ وَالشَّوْقَ إِلَى لِقَائِكَ فِي

---

[1] «Fəthul-Bari», 6/35. [Bax: «Səhih əl-Buxari», 2341.]

[2] Əbu Davud. Bax: «Səhih İbn Macə», 2/328.

غَيْرِ ضَرَّاءَ مُضِرَّةٍ وَلاَ فِتْنَةٍ مُضِلَّةٍ، اللَّهُمَّ زَيِّنَّا بِزِينَةِ الْإِيمَانِ وَاجْعَلْنَا هُدَاةً مُهْتَدِينَ ))

«Onu heç kəsə danışmamalı».[2]

«Digər böyrü üstə çevrilməli».[3]

115. «Əgər istəsə, qalxıb namaz qılsın».[4]

## (32) Vitr namazında edilən qunut duası

١١٦ – (( اللَّهُمَّ اهْدِنِي فِيمَنْ هَدَيْتَ، وَعَافِنِي فِيمَنْ عَافَيْتَ، وَتَوَلَّنِي فِيمَنْ تَوَلَّيْتَ، وَبَارِكْ لِي فِيمَا أَعْطَيْتَ، وَقِنِي شَرَّ مَا قَضَيْتَ، فَإِنَّكَ تَقْضِي وَلاَ يُقْضَى عَلَيْكَ، إِنَّهُ لاَ يَذِلُّ مَنْ وَالَيْتَ، [وَلاَ يَعِزُّ مَنْ عَادَيْتَ،] تَبَارَكْتَ رَبَّنَا وَتَعَالَيْتَ ))

116. [Allahummə-hdini fimən hədeytə, va afini fimən afeytə, va təvalləni fimən təvalleytə, va bərik li fimə ə'teytə, va qıni şərra mə qadeytə, fəinnəkə təqdi va

[1] Muslim, 4/1772 və 1773.

[2] Muslim, 4/1772;

[3] Muslim, 4/1773;

[4] Muslim, 4/1773;

lə yuqda aleykə, innəhu lə yəzillu mən valeytə, [va lə yəızzu mən adeytə] təbəraktə Rabbənə va təaleytə]

116. «Allahım! Hidayət verdiyin kimsələr arasında mənə də hidayət ver! Salamatlıq bəxş etdiyin kimsələr arasında mənə də salamatlıq bəxş et! Dost qəbul etdiyin kimsələr arasında məni də dost qəbul et! Mənə verdiklərini bərəkətli et! Qərar verdiyin şeylərin şərindən məni qoru! (Hər şeyə) Sən qərar verirsən, Sənin üçün isə qərar verilməz. Dost qəbul etdiyin kimsə zəlil olmaz. [Düşmənçilik etdiyin kəs isə qüdrətli olmaz.] Ey Rəbbimiz! Sən xeyirxahsan və ucasan!»[1]

---

[1] Bu hədisi «Sünən» əsərlərinin müəllifləri, həmçinin Əhməd, əd-Darimi, əl-Hakim və əl-Beyhəqi də rəvayət etmişlər. Mötərizədəki sözlər əl-Beyhəqinindir. Bax: «Səhihut-Tirmizi», 1/144; «Səhih ibn Macə», 1/194 və əl-Albani, «İrvaul-Ğəlil», 2/172.

١١٧ – (( اللَّهُمَّ إِنِّي أَعُوذُ بِرِضَاكَ مِنْ سَخَطِكَ، وَبِمُعَافَاتِكَ مِنْ عُقُوبَتِكَ، وَأَعُوذُ بِكَ مِنْكَ، لاَ أُحْصِي ثَنَاءً عَلَيْكَ، أَنْتَ كَمَا أَثْنَيْتَ عَلَى نَفْسِكَ ))

117. [Allahummə inni əuzu birıdakə min səxatıkə, va bimuafətikə min uqubətikə, va əuzu bikə minkə, lə uhsı sənə'ən aleykə, əntə kəmə əsneytə alə nəfsikə]

117. «Allahım! Sənin qəzəbindən razılığına, cəzandan əfvinə sığınıram. Səndən Sənə pənah aparıram. Mən Səni (layiqincə) tərif edə bilmərəm. Sən Özün Özünü tərif etdiyin kimisən!»[1]

١١٨ – (( اللَّهُمَّ إِيَّاكَ نَعْبُدُ، وَلَكَ نُصَلِّي وَنَسْجُدُ، وَإِلَيْكَ نَسْعَى وَنَحْفِدُ، نَرْجُو رَحْمَتَكَ، وَنَخْشَى عَذَابَكَ، إِنَّ عَذَابَكَ بِالْكَافِرِينَ مُلْحَقٌ. اللَّهُمَّ إِنَّا نَسْتَعِينُكَ، وَنَسْتَغْفِرُكَ،

[1] Bu hədisi «Sünən» əsərlərinin müəllifləri və Əhməd rəvayət etmişlər. Bax: «Səhihut-Tirmizi», 3/180; «Səhih ibn Macə», 1/194 və əl-Albani, «İrvaul-Ğəlil», 2/175.

وَنُثْنِي عَلَيْكَ الْخَيْرَ، وَلاَ نَكْفُرُكَ، وَنُؤْمِنُ بِكَ، وَنَخْضَعُ لَكَ، وَنَخْلَعُ مَنْ يَكْفُرُكَ ))

118. [Allahummə iyyəkə nə'budu, va ləkə nusalli va nəscudu, va ileykə nəs'a va nəhfidu, nərcu rahmətəkə va nəxşə azəbəkə, innə azəbəkə bil-kəfirinə mulhəq. Allahummə innə nəstə'ınukə va nəstəğfirukə va nusni aleykəl-xayra va lə nəkfurukə, va nu'minu bikə va nəxdau ləkə va nəxləu mən yəkfurukə]

118. «Allahım! Biz yalnız Sənə ibadət edirik! Sənin üçün namaz qılır və Sənə səcdə edirik. Sənə doğru can atır və qulluq etməyə tələsirik. Sənin mərhəmətini diləyir və Sənin əzabından qorxuruq. Əlbəttə, əzabın kafirlərə yetişəcək. Allahım! Səndən kömək istəyir və Səndən bağışlanma diləyirik. Xeyri (Sənə) aid edib Sənə tərif deyirik və Sənə qarşı küfr etmirik. Sənə iman gətirir

və Sənə boyun əyirik. Sənə qarşı küfr edənləri tərk edirik!»[1]

## (33) Vitr namazının salamından sonra edilən zikr

119. Üç dəfə:

(( سُبْحَانَ الْمَلِكِ الْقُدُّوسِ ))

[Subhanəl-Məlikil-Quddus]

«Müqəddəs Hökmdar pak və nöqsansızdır!» deyir və üçüncüsünü deyəndə səsini qaldırıb uzadır. Sonra da deyir:

(( رَبِّ الْمَلاَئِكَةِ وَالرُّوحِ ))

[Rabbil-mələikəti var-Ruh]

«... mələklərin və Ruhun Rəbbi!».[1]

---

[1] Bu hədisi əl-Beyhəqi «Sünənul-Kubra» əsərində (2/211) rəvayət etmiş və onu "səhih" hesab etmişdir. əl-Albani «İrvaul-Ğəlil»də (2/170) demişdir: «Bu isnad "səhih"dir və Ömərə ﷺ qədər birbirinə bağlıdır (*"məuquf"*dur)».

# (34) Üzüntü və kədər anında oxunan dua

١٢٠ – (( اللَّهُمَّ إِنِّي عَبْدُكَ، ابْنُ عَبْدِكَ، ابْنُ أَمَتِكَ، نَاصِيَتِي بِيَدِكَ، مَاضٍ فِيَّ حُكْمُكَ، عَدْلٌ فِيَّ قَضَاؤُكَ، أَسْأَلُكَ بِكُلِّ اسْمٍ هُوَ لَكَ، سَمَّيْتَ بِهِ نَفْسَكَ، أَوْ أَنْزَلْتَهُ فِي كِتَابِكَ، أَوْ عَلَّمْتَهُ أَحَدًا مِنْ خَلْقِكَ، أَوِ اسْتَأْثَرْتَ بِهِ فِي عِلْمِ الْغَيْبِ عِنْدَكَ، أَنْ تَجْعَلَ الْقُرْآنَ رَبِيعَ قَلْبِي، وَنُورَ صَدْرِي، وَجَلاَءَ حُزْنِي، وَذَهَابَ هَمِّي ))

120. [Allahummə inni abdukə, ibnu abdikə, ibnu əmətikə, nəsıyəti biyədikə, mədın fiyyə hukmukə, adlun fiyyə qadaukə, əs'əlukə bikulli-smin huva ləkə, səmmeytə bihi nəfsəkə, əu ənzəltəhu fi kitəbikə, əu alləmtəhu əhədən min xalqıkə,

---

[1] ən-Nəsai, 3/244; əd-Daraqutni, 2/31 və başqaları rəvayət etmişlər. Bax: "Səhih Əbu Davud", 1/268. İkinci dua əd-Daraqutninin əlavəsidir. Bu hədisin isnadı "səhih"dir. Şueyb əl-Arnavut və Abdulqadir əl-Arnavutun təhqiq etdiyi «Zadul-Məad» əsərinə (1/337) bax.

əu istə'sərtə bihi fi ılmil-ğaybi ındəkə, ən təc'aləl-Qur'anə rabia qalbi, va nura sadri, va cələ'ə huzni, va zəhəbə həmmi]

120. «Allahım! Mən Sənin qulunam, qulunun oğluyam, kənizinin oğluyam! Kəkilim (məni idarə etmək) Sənin əlindədir. Barəmdə verdiyin hökm yerinə yetəndir. Mənə yazdığın tale ədalətlidir. Sənə, Özünə verdiyin və ya Kitabında nazil etdiyin yaxud yaratdıqlarından kiməsə öyrətdiyin yaxud da Öz yanında olan qeyb elmində saxladığın Özünə aid olan hər bir adla yalvarıram ki, Quranı qəlbimin baharı və köksümün nuru et, üzüntümün aradan qalxması və kədərimin getməsi (üçün səbəb) et!»[1]

١٢١ – (( اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الْهَمِّ وَالحَزَنِ، وَالْعَجْزِ وَالْكَسَلِ، وَالْبُخْلِ وَالجُبْنِ، وَضَلَعِ الدَّيْنِ وَغَلَبَةِ الرِّجَالِ ))

[1] Əhməd, 1/391. əl-Albani bunu "səhih" hesab etmişdir.

121. [Allahummə inni əuzu bikə min-əl-həmmi val-həzəni, val-aczi val-kəsəli, val-buxli val-cubni, va daləıd-deyni va ğaləbətir-ricəl]

121. «Allahım! Üzüntü və kədərdən, acizlik və tənbəllikdən, xəsislik və qorxaqlıqdan, borc altında qalmaqdan və insanların (məni) sıxışdırmasından Sənə sığınıram!»[1]

## (35) Sıxıntı anında oxunan dua

١٢٢ – (( لاَ إِلَهَ إِلاَّ اللهُ الْعَظِيمُ الْحَلِيمُ، لاَ إِلَهَ إِلاَّ اللهُ رَبُّ الْعَرْشِ الْعَظِيمُ، لاَ إِلَهَ إِلاَّ اللهُ رَبُّ السَّمَوَاتِ وَرَبُّ ٱلْأَرْضِ وَرَبُّ الْعَرْشِ الْكَرِيمُ ))

122. [Lə iləhə illəllahul-azımul-həlim, lə iləhə illəllahu Rabbul-arşil-azım, lə iləhə illəllahu Rabbus-səməvati va Rabbul-ard va Rabbul-arşil-kərim]

[1] əl-Buxari, 7/158. Rəsulullah ﷺ bu duanı çox edərdi. Bax: «Fəthul-Bari», 11/173.

122. «Əzəmətli, Həlim olan Allahdan başqa məbud yoxdur! Ərşin Əzəmətli Rəbbi olan Allahdan başqa məbud yoxdur! Göylərin, Rəbbi, yerin Rəbbi və Ərşin Səxavətli Rəbbi olan Allahdan başqa məbud yoxdur!»[1]

١٢٣ – (( اللَّهُمَّ رَحْمَتَكَ أَرْجُو، فَلاَ تَكِلْنِي إِلَى نَفْسِي طَرْفَةَ عَيْنٍ، وَأَصْلِحْ لِي شَأْنِي كُلَّهُ، لاَ إِلَهَ إِلاَّ أَنْتَ ))

123. [Allahummə rahmətəkə ərcu, fələ təkilni ilə nəfsi tarfətə aynin, va əslih li şə'ni kulləhu, lə iləhə illə ənt]

123. «Allahım! Sənin mərhəmətini diləyirəm! Məni bir göz qırpımı belə başlı-başına buraxma! Bütün işlərimi yoluna qoy! Səndən başqa məbud yoxdur!»[2]

---

[1] əl-Buxari, 7/154 və Muslim, 4/2092.

[2] Əbu Davud, 4/324; Əhməd, 5/42. əl-Albani bu hədisi "həsən" hesab etmişdir. Bax: «Səhih Əbu Davud» 3/959.

١٢٤ – (( لاَ إِلَهَ إِلاَّ أَنْتَ سُبْحَانَكَ إِنِّي كُنْتُ مِنَ الظَّالِمِينَ ))

124. [Lə iləhə illə əntə. Subhanəkə, inni kuntu minə-z-zalimin]

124. «Səndən başqa məbud yoxdur. Sən pak və müqəddəssən! Həqiqətən, mən zalımlardan olmuşam!»[1]

١٢٥ – (( اللهُ اللهُ رَبِّي لاَ أُشْرِكُ بِهِ شَيْئًا ))

125. [Allahu, Allahu Rabbi! Lə uşriku bihi şeyən]

125. «Allahdır, Allahdır mənim Rəbbim! Mən heç bir şeyi ona şərik qoşmuram!»[2]

## (36) Düşmən və ya ixtiyar sahibi ilə rastlaşarkən edilən dua

١٢٦ – (( اللَّهُمَّ إِنَّا نَجْعَلُكَ فِي نُحُورِهِمْ وَنَعُوذُ بِكَ مِنْ شُرُورِهِمْ ))

---

[1] ət-Tirmizi, 5/529. Hakim bu hədisi "səhih" hesab etmiş, əz-Zəhəbi də onu təsdiqləmişdir (1/505). Bax: «Səhihut-Tirmizi», 3/168.

[2] Əbu Davud, 2/87. Bax: «Səhih ibn Macə», 2/335.

126. [Allahummə innə nəc'alukə fi nuhurihim va nəuzu bikə min şururihim]

126. «Allahım! Onların yaxasını Sənə tapşırır və onların şərindən Sənə sığınırıq!»[1]

١٢٧ – (( اللَّهُمَّ أَنْتَ عَضُدِي، وَأَنْتَ نَصِيرِي، بِكَ أَجُولُ، وَبِكَ أَصُولُ، وَبِكَ أُقَاتِلُ ))

127. [Allahummə əntə adudi va əntə nəsıri, bikə əculu va bikə əsulu va bikə uqatilu]

127. «Allahım! Dayağım Sənsən, köməyim Sənsən. Sənin sayəndə hərəkət edir, Sənin sayəndə (düşmənin üstünə) atılır və Sənin sayəndə vuruşuram!»[2]

١٢٨ – (( حَسْبُنَا اللهُ وَنِعْمَ الْوَكِيلُ ))

---

[1] Əbu Davud, 2/89. Hakim bu hədisi "səhih" hesab etmiş, əz-Zəhəbi də onu təsdiqləmişdir 2/142. [Səhih Əbu Davud, 1/286.]

[2] Əbu Davud, 3/42 və ət-Tirmizi, 5/572. Bax: «Səhihut-Tirmizi», 3/183.

128. [Həsbunəllahu va ni'məl-vakil]

128. «Allah bizə bəs edər. O nə gözəl Vəkildir!»[1]

## (37) Rəhbərin zülmündən qorxan kimsənin etdiyi dua

١٢٩ – (( اللَّهُمَّ رَبَّ السَّمَوَاتِ السَّبْعِ، وَرَبَّ الْعَرْشِ الْعَظِيمِ، كُنْ لِي جَاراً مِنْ فُلاَنِ بْنِ فُلاَنٍ، وَ أَحْزَابِهِ مِنْ خَلاَئِقِكَ ؛ أَنْ يَفْرُطَ عَلَيَّ أَحَدٌ مِنْهُمْ أَوْ يُطْغَى، عَزَّ جَارُكَ، وَ جَلَّ ثَنَاؤُكَ، وَ لاَ إِلَهَ إِلاَّ أَنْتَ ))

129. [Allahummə Rabbəs-səməvatis-səb'i va Rabbəl-arşil-azım kun li cəran min <u>fulən ibni fulənin</u>[2] va əhzəbihi min xaləiqıkə, ən yəfruta aleyyə əhədun minhum, əu yətğa, azzə cərukə va cəllə sənə'ukə va lə iləhə illə ənt]

129. «Allahım! Yeddi qat səmanın Rəbbi, böyük Ərşin Rəbbi! Filankəs oğlu

---

[1] əl-Buxari, 5/172.

[2] Burada ehtiyat etdiyi adamın adını deyir.

filankəsdən *(həmin şəxsin adını deyir)* və yaratdıqlarından olan onun köməkçilərindən mənim üçün himayəçi ol ki, onlardan heç biri mənə zərər verməsin və ya (mənə qarşı) azğınlaşaraq həddini aşmasın. Sənin himayə etdiyin kəs qüdrətlidir. Uca təriflər Sənədir və Səndən başqa məbud yoxdur!»[1]

١٣٠ – (( اللَّهُ أَكْبَرُ، اللَّهُ أَعَزُّ مِنْ خَلْقِهِ جَمِيعاً، اللَّهُ أَعَزُّ مِمَّا أَخَافُ وَ أَحْذَرُ، أَعُوذُ بِاللَّهِ الَّذِي لاَ إِلَهَ إِلاَّ هُوَ، الْمُمْسِكِ السَّمَوَاتِ السَّبْعِ أَنْ يَقَعْنَ عَلَى الأَرْضِ إِلاَّ بِإِذْنِهِ، مِنْ شَرِّ عَبْدِكَ فُلاَنٍ، وَ جُنُودِهِ وَ أَتْبَاعِهِ وَ أَشْيَاعِهِ، مِنَ الْجِنِّ وَ الإِنْسِ، اللَّهُمَّ كُنْ لِي جَاراً مِنْ شَرِّهِمْ، جَلَّ ثَنَاؤُكَ وَ عَزَّ جَارُكَ، وَ تَبَارَكَ اسْمُكَ، وَ لاَ إِلَهَ غَيْرُكَ ))

---

[1] əl-Buxari, «Ədəbul-Mufrad», №707. əl-Albani bunu «səhih» hesab etmişdir. Bax: «Səhihul-Ədəbul-Mufrad», №545. [Şeyx əl-Albani həm də: "Məuquf olaraq isnadı səhihdir" demişdir. Bax: "Səhihut-Tərğib vət-Tərhib", 2/267.]

130. [Allahu əkbər, Allahu ə'azzu min xalqıhi cəmian, Allahu ə'azzu mimmə əxafu va əhzəru, əuzu billəhil-ləzi lə iləhə illə huva, əlmumsikis-səməvatis-səb'i ən yəqa'nə aləl-ardı illə bi-iznihi, min şərri abdikə fulənin[1] və cunudihi va ətbəıhi va əşyəihi minəl-cinni val-insi. Allahummə kun li cəran min şərrihim, cəllə sənə'ukə va azzə cərukə va təbərakə-smukə va lə iləhə ğayrukə]

130. «Allah ən Böyükdür! Allah bütün yaratdıqlarından qüdrətlidir. Allah qorxduğum və həzər etdiyim hər şeydən qüdrətlidir. [Allahım!] Sənin filan qulunun şərindən, onun cinlərdən və insanlardan olan qoşunundan, köməkçilərindən və tərəfdarlarından, Özündən başqa məbud olmayan, Öz izni olmadan yerin üzərinə düşməsin deyə yeddi göyü saxlayan, Allaha sığınıram. Allahım!

---

[1] Burada ehtiyat etdiyi adamın adını deyir.

Onların şərindən məni himayə et. Uca təriflər Sənədir. Sənin himayə etdiyin kimsə qüdrətldir. Sənin adın mübarəkdir və Səndən başqa məbud yoxdur!»[1]

## (38) Düşmənə qarşı edilən dua

١٣١ – (( اللَّهُمَّ مُنْزِلَ الْكِتَابِ، سَرِيعَ الْحِسَابِ، اهْزِمِ الأَحْزَابَ، اللَّهُمَّ اهْزِمْهُمْ وَ زَلْزِلْهُمْ ))

131. [Allahummə munziləl-kitəbi, sərial-hisabi ihzimil-əhzəbə, Allahumməhzimhum va zəlzilhum]

131. «Kitabı nazil edən, haqq-hesabı tez çəkən Allahım! (Düşmənlərdən olan) dəstələri darmadağın et! Allahım, onları darmadağın et və onları sarsıt!»[2]

---

[1] əl-Buxari, «Ədəbul-Mufrad», №708. əl-Albani bunu «səhih» hesab etmişdir. Bax: «Səhihul-Ədəbul-Mufrad» №546. [Şeyx əl-Albani həm də: "Məuquf olaraq isnadı səhihdir" demişdir. Bax: Səhihut-Tərğib vət-Tərhib, 2/267.]

[2] Muslim, 3/1362.

## (39) Hər hansı bir camaatdan qorxan kimsənin etdiyi dua

١٣٢ – (( اللَّهُمَّ اكْفِنِيهِمْ بِمَا شِئْتَ ))

132. [Allahummək-finihim bimə şi'tə]

132. «Allahım, istədiyin kimi məni onlardan qoru!»[1]

## (40) İmanda şəkkə düşənin duası

133. «(O kəs) Allaha sığınmalı»[2]; «Şəkk etdiyi şeyi tərk etməli».[3]

١٣٤ – (( آمَنْتُ بِاللهِ وَرُسُلِهِ ))

134. [Əməntu billəhi va rusulihi]

134. «Allaha və Onun elçilərinə iman gətirdim!» [deməli].[4]

---

[1] Muslim, 4/2300.

[2] «Fəthul-Bari», 6/336; Muslim, 1/120.

[3] «Fəthul-Bari», 6/336; Muslim, 1/120.

[4] Muslim, 1/119-120.

135. Uca Allahın bu kəlamını oxumalıdır:

١٣٥ – ﴿هُوَ ٱلۡأَوَّلُ وَٱلۡأٓخِرُ وَٱلظَّٰهِرُ وَٱلۡبَاطِنُۖ وَهُوَ بِكُلِّ شَيۡءٍ عَلِيمٌ﴾

135. [Huval-Əvvalu val-Əxıru vaz-Zahiru val-Bətınu va huva bikulli şeyin alim]

«Əvvəl də, Axır da, Zahir də, Batin də Odur. O hər şeyi Biləndir!»[1,2]

## (41) Borcdan qurtarmaq üçün edilən dua

١٣٦ – (( اللَّهُمَّ اكْفِنِي بِحَلاَلِكَ عَنْ حَرَامِكَ وَ أَغْنِنِي بِفَضْلِكَ عَمَّنْ سِوَاكَ ))

136. [Allahummə-kfini bihələlikə an həramikə va əğnini bifadlikə ammən sivakə]

---

[1] "əl-Hədid" surəsi, 3-cü ayə.

[2] Əbu Davud, 4/329. əl-Albani və Abdulqadir əl-Arnavut bu hədisi "həsən" hesab etmişdir. Bax: «Səhih Əbu Davud», 3/962.

136. «Allahım! Məni Öz halalınla kifayətləndirib haramına möhtac etmə! Məni Öz lütfünlə Özündən başqasına möhtac etmə!»[1]

١٣٧ - (( اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الْهَمِّ وَالْحَزَنِ، وَالْعَجْزِ وَالْكَسَلِ، وَالْبُخْلِ وَالْجُبْنِ، وَضَلَعِ الدَّيْنِ وَغَلَبَةِ الرِّجَالِ ))

137. [Allahummə inni əuzu bikə minəl-həmmi val-həzəni, val-aczi val-kəsəli, val-buxli val-cubni, va daləıd-deyni va ğaləbətir-ricəl]

137. «Allahım! Üzüntü və kədərdən, acizlik və tənbəllikdən, xəsislik və qorxaqlıqdan, borc altında qalmaqdan və insanların (məni) sıxışdırmasından Sənə sığınıram!»[2]

[1] ət-Tirmizi, 5/560. Bax: «Səhihut-Tirmizi», 3/180.

[2] əl-Buxari, 7/158.

## (42) Namaz qılarkən, yaxud Quran oxuyarkən gələn vəsvəsəyə qarşı edilən dua

١٣٨ – (( أَعُوذُ بِاللَّهِ مِنَ الشَّيْطَانِ الرَّجِيمِ ))

138. [Əuzu billəhi minəş-şeytanir-racim]

138. «Lənətlənmiş şeytandan Allaha sığınıram!» de və sol tərəfinə üç dəfə yüngülvari tüpür.[1]

## (43) Bir iş ağır gəldikdə edilən dua

١٣٩ – (( اللَّهُمَّ لاَسَهْلَ إِلاَّ مَا جَعَلْتَهُ سَهْلاً وَأَنْتَ تَجْعَلُ الْحَزْنَ إِذَا شِئْتَ سَهْلاً ))

139. [Allahummə lə səhlə illə mə cə'altəhu səhlən va əntə təc'alul-həznə izə şi'tə səhlən]

---

[1] Muslimdə (4/1729) belə rəvayət olunur ki, Osman ibnul-As ﵁ demişdir: «Mən belə etdim və Allah da onu məndən uzaqlaşdırdı».

139. «Allahım! Sənin asanlaşdırdığından başqa asan olan bir şey yoxdur. Sən istəsən, çətin işi asanlaşdırarsan!»[1]

## (44) Günah edən kəs nə etməlidir

140. «Günah edən bir bəndə gözəl tərzdə dəstəmaz alsa, sonra qalxıb iki rükət namaz qılsa, sonra da Allahdan bağışlanma diləsə, Allah onu mütləq bağışlayar».[2]

## (45) Şeytanı və onun vəsvəsələrini uzaqlaşdıran dua

141. «Ondan Allaha sığınmaq».[3]

---

[1] İbn Hibban, «Səhih», №2427; İbn əs-Sunni, №351. İbn Həcər deyir ki, bu hədis "səhih"dir. Abdulqadir əl-Arnaut da bu hədisi "səhih" hesab etmişdir. Bax: ən-Nəvəvi, «əl-Əzkar», səh.106.

[2] Əbu Davud, 2/86; ət-Tirmizi, 2/257. əl-Albani bu hədisi "səhih" hesab etmişdir, «Səhih Əbu Davud», 1/283.

[3] Əbu Davud, 1/206; ət-Tirmizi. Bax: «Səhihut-Tirmizi», 1/77 və "əl-Muminun" surəsi, 98-99.

142. «Azan vermək».[1]

143. «Şəriətə müvafiq zikrlər etmək və Quran oxumaq».[2]

## (46) Xoşa gəlməyən bir hadisə baş verdikdə, yaxud istədiyi bir iş baş tutmadıqda edilən dua

١٤٤ – (( قَدَرُ اللهِ وَمَا شَاءَ فَعَلَ ))

[1] Muslim, 1/291; əl-Buxari, 1/151.

[2] Peyğəmbər ﷺ demişdir: «Evlərinizi qəbiristanlığa çevirməyin. Şübhəsiz ki, şeytan "əl-Bəqərə" surəsi oxunan evdən qaçar!» (Muslim, 1/539). Həmçinin səhər və axşam zikrləri, yuxudan oyanarkən və yatağa girərkən oxunan zikrlər, evə girərkən və evdən çıxarkən edilən zikrlər, məscidə girərkən və məsciddən çıxarkən edilən zikrlər və başqa bu kimi şəriətə uyğun zikrlər, habelə yatmazdan əvvəl Kürsü ayəsini və "əl-Bəqərə" surəsinin axır iki ayəsini oxumaq, yüz dəfə "Lə iləhə illəllah vahdəhu lə şərikə ləhu, ləhul-mulku va ləhul-həmdu va huva alə kulli şeyin qadir!" demək, – onun üçün gün ərzində şeytandan qoruyucu olar, azan vermək də şeytanı uzaqlaşdırar.

144. [Qadərullahi va mə şə'ə fəalə]

144. «Allahın qədəridir. O, istədiyini edir!».[1]

## (47) Övladı olanı təbrik etmək və bunun qarşılıqlı cavabı

١٤٥ - (( بَارَكَ اللهُ لَكَ فِي الْمَوْهُوبِ لَكَ، وَشَكَرْتَ الْوَاهِبَ، وَبَلَغَ أَشُدَّهُ، وَرُزِقْتَ بِرَّهُ ))

145. [Bərakəllahu ləkə fil-məuhubi ləkə va şəkərtəl-vahibə va bələğa əşuddəhu va ruziqtə birrahu]

145. «Allah sənə (əvəssiz olaraq) verdiyi (bu uşağı) sənin üçün mübarək etsin! (Onu sənə) verənə şükr edəsən.

---

[1] Peyğəmbər ﷺ demişdir: «Allah üçün güclü mömin zəif mömindən daha yaxşı və daha sevimlidir. Onların hər ikisində xeyir var. Sənə fayda verən şeyi götür, (yalnız) Allahdan kömək dilə və aciz olma! Sənə bir hadisə üz versə, demə ki, kaş belə edəydim. Əksinə, de ki, «Allahın qədəridir. O istədiyini edir. Çünki "əgər" şeytana qapı açır» (Muslim, 4/2052).

(Övladın) gəncliyin ən yetkin çağına yetişsin və onun yaxşılıqlarını dadasan!»

Təbrik edilən adam onu təbrik edənə cavab verərək deyir:

(( بَارَكَ اللهُ لَكَ وَبَارَكَ عَلَيْكَ، وَجَزَاكَ اللهُ خَيْرًا، وَرَزَقَكَ اللهُ مِثْلَهُ، وَأَجْزَلَ ثَوَابَكَ ))

[Bərakəllahu ləkə va bərakə aleykə va cəzəkə-llahu xayran va razəqakə-llahu misləhu va əczələ səvabəkə]

«Allah mübarək eləsin, sənin üçün bərəkətli etsin! Allah səni xeyirlə mükafatlandırsın! Allah sənə də beləsini bəxş etsin və savabını da artırsın!»[1]

## (48) Uşaqları qorumaq üçün oxunan dua

146. Peyğəmbər ﷺ Həsən və Hüseyni ﵄ qorumaq üçün belə dua edərdi:

[1] ən-Nəvəvi, «əl-Əzkar», səh.349 və Səlim əl-Hilali, «Səhihul-Əzkar», 2/713.

١٤٦ – (( أُعِيذُكُمَا بِكَلِمَاتِ اللهِ التَّامَّةِ مِنْ كُلِّ شَيْطَانٍ وَهَامَّةٍ، وَمِنْ كُلِّ عَيْنٍ لاَمَّةٍ ))

146. [Uıyzukumə bikəliməti-lləhit-təmməti min kulli şeytanin va həm-mətin va min kulli aynin ləmmətin]

146. «Hər bir şeytandan, zərərli həşə-ratdan və hər pis gözdən qorumaq üçün sizi Allahın tam kəlmələrinə həvalə edirəm».[1]

## (49) Xəstəni ziyarət edərkən onun üçün edilən dua

١٤٧ – (( لاَ بَأْسَ، طَهُورٌ إِنْ شَاءَ اللهُ ))

147. [Lə bə'sə tahurun inşə Allah]

147. «Eybi yoxdur, inşallah (günah-ların) təmizlənir!»[2]

---

[1] əl-Buxari, 4/119. İbn Abbasın ﷺ rəvayətindən.

[2] «Fəthul-Bari», 10/118; [“Səhih əl-Buxari”, 5/2143.]

١٤٨ - (( أَسْأَلُ اللهَ الْعَظِيمَ رَبَّ الْعَرْشِ الْعَظِيمِ أَنْ يَشْفِيَكَ ))

148. [Əs'əlullahəl-azımə Rabbəl-arşil-azımi ən yəşfiyəkə]

148. «Böyük Ərşin Rəbbi olan Əzəmətli Allahdan diləyirəm ki, sənə şəfa versin!» (*yeddi dəfə*)[1]

## (50) Xəstəni ziyarət etməyin fəziləti

149. Əli ibn Əbi Talib ﵁ rəvayət edir ki, Rəsulullahın ﷺ belə dediyini eşitdim: «Müsəlman qardaşını ziyarət edən adam (onun yanına gəlib) oturanadək Cənnət bağından keçir. Oturduqda isə onu mərhəmət bürüyər. Səhər olsa, axşamadək yetmiş min mələk onun üçün xeyir-dua

[1] «Müsəlman bəndə əcəli çatmamış xəstəni ziyarət edib yeddi dəfə bu duanı desə, xəstə sağalar» (ət-Tirmizi və Əbu Davud). Bax: «Səhihut-Tirmizi», 2/210 və «Səhihul-Cami», 5/180.

edər, axşam olsa, səhərədək yetmiş min mələk onun üçün xeyir-dua edər».[1]

## (51) Həyatından əlini üzmüş xəstənin duası

١٥٠ – (( اللَّهُمَّ اغْفِرْ لِي وَارْحَمْنِي وَ أَلْحِقْنِي بِالرَّفِيقِ الأَعْلَى ))

150. [Allahummə-ğfir li varhəmni va əlhiqni birrafiqıl-ə'lə]

150. «Allahım! Məni bağışla, mənə rəhm et, məni Uca Dosta qovuşdur!»[2]

151. Peyğəmbər ﷺ ölümündən əvvəl əllərini suya salıb üzünə sürtər və deyərdi:

١٥١ – (( لاَ إِلَهَ إِلاَّ اللهُ، إِنَّ لِلْمَوْتِ سَكَرَاتٌ ))

151. [Lə iləhə illəllahu, innə lilməuti səkərat]

---

[1] ət-Tirmizi, İbn Macə və Əhməd. Bax: «Səhih İbn Macə», 1/244 və «Səhihut-Tirmizi», 1/286. Əhməd Şakir də bunu səhih hesab etmişdir.

[2] əl-Buxari, 7/10 və Muslim, 4/1893.

151. «Allahdan başqa məbud yoxdur. Həqiqətən, ölümün öz bihuşluğu var».[1]

١٥٢ – (( لاَ إِلَهَ إِلاَّ اللهُ وَاللهُ أَكْبَرُ، لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ، لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لاَ إِلَهَ إِلاَّ اللهُ لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، لاَ إِلَهَ إِلاَّ اللهُ وَلاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللهِ ))

152. [Lə iləhə illəllahu va Allahu əkbər, lə iləhə illəllahu vahdəhu, lə iləhə illəllahu vahdəhu lə şərikə ləhu, lə iləhə illəllahu ləhul-mulku va ləhul-həmdu, lə iləhə illəllahu va lə həulə va lə quvvatə illə billəh]

152. «Allahdan başqa məbud yoxdur. Allah ən Böyükdür. Tək Allahdan başqa məbud yoxdur. Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Allahdan başqa məbud yoxdur. Mülk Onundur və həmd Onadır. Allahdan

[1] «Fəthul-Bari», 8/144. [Bax: "Səhih əl-Buxari", 4/1616.]

başqa məbud yoxdur. Qüdrət və güc yalnız Allahdadır!»[1]

## (52) Can verənə təlqin edilən dua

153. «Kimin son sözü:

١٥٣ – (( لاَ إِلَهَ إِلاَّ اللهُ ))

153. [Lə iləhə illəllah!]
153. «Allahdan başqa məbud yoxdur!» olsa, Cənnətə daxil olar.[2]

## (53) Başına müsibət gələnin duası

١٥٤ – (( إِنَّا للهِ وَإِنَّا إِلَيْهِ رَاجِعُونَ اللَّهُمَّ أْجُرْنِي فِي مُصِيبَتِي وَأَخْلِفْ لِي خَيْراً مِنْهَا ))

---

[1] Bu hədisi ət-Tirmizi, İbn Macə rəvayət etmiş və əl-Albani onu "səhih" hesab etmişdir. Bax: «Səhihut-Tirmizi», 3/152 və «Səhih İbn Macə», 2/317.

[2] Əbu Davud, 3/190. Bax: «Səhihul-Cami», 5/342.

154. [İnnə lilləhi va innə ileyhi raciun, Allahummə'-curni fi musıbəti va əxlif li xayran minhə]

154. «Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq! Allahım! Başıma gələn müsibət sayəsində məni mükafatlandır və əvəzinə ondan da xeyirlisini ver!»[1]

## (54) Meyitin gözlərini qapayarkən edilən dua

١٥٥ – (( اللَّهُمَّ اغْفِرْ لِفُلاَنٍ (باسمه) وَارْفَعْ دَرَجَتَهُ فِي الْمَهْدِيِّينَ، وَاخْلُفْهُ فِي عَقِبِهِ فِي الْغَابِرِينَ، وَاغْفِرْ لَنَا وَلَهُ يَا رَبَّ الْعَالَمِينَ، وَافْسَحْ لَهُ فِي قَبْرِهِ وَنَوِّرْ لَهُ فِيهِ ))

155. [Allahummə-ğfir <u>lifulənin</u> (*ölənin adı çəkilir*) varfə' dəracətəhu fil-məhdiy-yinə vaxlufhu fi aqıbihi fil-ğabirinə vağfir lənə va ləhu yə Rabbəl-aləmin vafsəh ləhu fi qabrihi va nəvvır ləhu fihi]

[1] Muslim, 2/632.

155. «Allahım! Filankəsi (*ölənin adını çəkməli*) bağışla, doğru yolda olanlar arasında onun dərəcəsini yüksəlt, geridə qalanlara (onun yaxınlarına) vəkil ol. Ey aləmlərin Rəbbi, bizi də, onu da bağışla! Onun qəbrini geniş et və oranı onun üçün nurlandır!»[1]

## (55) Cənazə namazında meyit üçün oxunan dua

١٥٦ – (( اللَّهُمَّ اغْفِرْ لَهُ وَارْحَمْهُ، وَعَافِهِ، وَاعْفُ عَنْهُ، وَأَكْرِمْ نُزُلَهُ، وَوَسِّعْ مُدْخَلَهُ، وَاغْسِلْهُ بِالْمَاءِ وَالثَّلْجِ وَالْبَرَدِ، وَنَقِّهِ مِنَ الْخَطَايَا كَمَا نَقَّيْتَ الثَّوْبَ الْأَبْيَضَ مِنَ الدَّنَسِ، وَأَبْدِلْهُ دَارًا خَيْرًا مِنْ دَارِهِ، وَأَهْلاً خَيْرًا مِنْ أَهْلِهِ، وَزَوْجًا خَيْرًا مِنْ زَوْجِهِ، وَأَدْخِلْهُ الْجَنَّةَ وَأَعِذْهُ مِنْ عَذَابِ الْقَبْرِ [ وَعَذَابِ النَّارِ ] ))

156. [Allahummə-ğfir ləhu varhəmhu va afihi va'fu anhu va əkrim nuzuləhu va vassi' mudxaləhu vağsilhu bil-məi

[1] Muslim, 2/634.

vas-səlci val-bəradi va nəqqıhi minəl-xatayə kəmə nəqqaytəs-səubəl-əbyəda minəd-dənəsi, va əbdilhu dəran xayran min dərihi, va əhlən xayran min əhlihi, va zəucən xayran min zəucihi va ədxilhul-cənnətə va əızhu min azəbil-qabri [va azəbin-nəri]]

156. «Allahım! Onu bağışla, ona rəhm et, ona salamatlıq ver, onu əfv et, onu gözəl tərzdə qarşıla, onun yerini geniş et! Onu su, qar və dolu ilə yu! Ağ paltarı kirdən təmizlədiyin kimi onu da günahlardan təmizlə! Ona evinin əvəzinə daha xeyirli ev, ailəsinin əvəzinə daha xeyirli ailə, zövcəsinin əvəzinə daha xeyirli zövcə ver! Onu Cənnətə daxil et! Onu qəbir əzabından (və Cəhənnəm əzabından) qoru!»[1]

١٥٧ – (( اللَّهُمَّ اغْفِرْ لِحَيِّنَا وَمَيِّتِنَا، وَشَاهِدِنَا وَغَائِبِنَا، وَصَغِيرِنَا وَكَبِيرِنَا، وَذَكَرِنَا وَأُنْثَانَا. اللَّهُمَّ مَنْ أَحْيَيْتَهُ مِنَّا فَأَحْيِهِ

[1] Muslim, 2/663.

عَلَى ٱلْإِسْلاَمِ، وَمَنْ تَوَفَّيْتَهُ مِنَّا فَتَوَفَّهُ عَلَى ٱلْإِيْمَانِ. اللَّهُمَّ لاَ تَحْرِمْنَا أَجْرَهُ وَلاَ تُضِلَّنَا بَعْدَهُ ))

157. [Allahummə-ğfir lihəyyinə va meyyitinə va şəhidinə va ğaibinə va sağırinə va kəbirinə va zəkərinə va unsənə. Allahummə mən əhyeytəhu minnə fə əhyihi aləl-isləm va mən təvaffeytəhu minnə fətəvaffəhu aləl-imən. Allahummə lə təhrimnə əcrahu va lə tudıllənə bə'dəhu]

157. «Allahım! Dirimizi və ölümüzü, burada olanımızı və olmayanımızı, kiçiyimizi və böyüyümüzü, kişimizi və qadınımızı bağışla! Allahım! Bizdən kimi yaşatsan, müsəlman kimi yaşat! Bizdən kimi öldürsən, mömin kimi öldür! Allahım, onun əcrindən bizi məhrum etmə və ondan sonra bizi azdırma!»[1]

[1] İbn Macə 1/480; Əhməd, 2/368. Bax: «Səhih İbn Macə», 1/251.

١٥٨ – (( اللَّهُمَّ إِنَّ فُلانَ ابْنَ فُلانٍ فِي ذِمَّتِكَ، وَحَبْلِ جِوَارِكَ، فَقِهِ مِنْ فِتْنَةِ الْقَبْرِ وَعَذَابِ النَّارِ، وَأَنْتَ أَهْلُ الْوَفَاءِ وَالْحَقِّ. فَاغْفِرْ لَهُ وَارْحَمْهُ إِنَّكَ أَنْتَ الْغَفُورُ الرَّحِيمُ ))

158. [Allahummə innə fulənə-bnə fulənin *(vəfat etmiş kəsin adı deyilir)* fi zimmətikə, va həbli civarikə, fəqıhi min fitnətil-qabri va azəbin-nəri, va əntə əhlul-vafəi val-həqqı. Fəğfir ləhu var-həmhu innəkə əntəl-ğafurur-rahim]

158. «Allahım filankəs oğlu filankəs *(vəfat etmiş kəsin adı deyilir)* Sənin himayəndədir, (aqibəti) Səndən asılıdır. Onu qəbir fitnəsindən və Cəhənnəm əzabından qoru! Sən vəfa və haqq sahibisən! Onu bağışla, ona rəhm et! Həqiqətən, Sən Bağışlayansan, Rəhmlisən!»[1]

---

[1] Əbu Davud, 3/211; İbn Macə. Bax: «Səhih İbn Macə», 1/251.

١٥٩ – (( اللَّهُمَّ عَبْدُكَ وَابْنُ أَمَتِكَ احْتَاجَ إِلَى رَحْمَتِكَ، وَأَنْتَ غَنِيٌّ عَنْ عَذَابِهِ، إِنْ كَانَ مُحْسِنًا فَزِدْ فِي حَسَنَاتِهِ، وَإِنْ كَانَ مُسِيئًا فَتَجَاوَزْ عَنْهُ ))

159. [Allahummə abdukə vabnu əmətikə-htəcə ilə rahmətikə va əntə ğaniyyun an azəbihi, in kənə muhsinən fəzid fi həsənətihi va in kənə musiən fətəcavəz anhu]

159. «Allahım! Sənin qulun, Sənin kənizinin oğlu Sənin mərhəmətinə möhtacdır. Sənin ona əzab verməyə ehtiyacın yoxdur. Əgər o, yaxşı əməl sahibidirsə, savabını artır! Yox əgər pis əməl sahibidirsə, günahından keç!»[1]

[1] Bu hədisi əl-Hakim rəvayət etmiş və "səhih" saymış, əz-Zəhəbi də onu təsdiqləmişdir 1/359. Bax: əl-Albani, «Əhkamul-Cənaiz», səh. 125.

## (56) Həddi-büluğa çatmamış uşağın cənazə namazında oxunulan dua

١٦٠ – ((اللَّهُمَّ أَعِذْهُ مِنْ عَذَابِ الْقَبْرِ ))

160. [Allahummə, əızhu min azəbil-qabri]

160. «Allahım! Onu qəbir əzabından qoru!»[1]

Sonra da belə desə yaxşı olar:

(( اللَّهُمَّ اجْعَلْهُ فَرَطًا وذُخْرًا لِوَالِدَيْهِ، وَشَفِيعًا مُجَابًا. اللَّهُمَّ ثَقِّلْ بِهِ مَوَازِينَهُمَا وَأَعْظِمْ بِهِ أُجُورَهُمَا، وَ أَلْحِقْهُ بِصَالِحِ الْمُؤْمِنِينَ،

[1] Səid ibn Museyyib rəvayət edir ki, «Mən Əbu Hureyranın arxasında heç bir günah işləməyən körpə uşağın cənazə namazını qılarkən onun bu cür dua etdiyini eşitdim». Bu hədisi Malik «əl-Muvatta» əsərində (1/288), İbn Əbi Şeybə «əl-Musannaf» əsərində (3/217) və Beyhəqi «Sünən» əsərində (4/9) rəvayət etmişlər. Şueyb əl-Arnaut Bəğavinin «Şərhus-Sunnə» əsərinin təhqiqində (5/357) bu hədisin isnadının «səhih» olduğunu söyləmişdir. [Hədis səhihdir: «Mişkatul-Məsabih», 1/380.]

وَاجْعَلْهُ فِي كَفَالَةِ إِبْرَاهِيمَ، وَقِهِ بِرَحْمَتِكَ عَذَابَ الْجَحِيمِ، وَأَبْدِلْهُ دَارًا خَيْرًا مِنْ دَارِهِ، وَأَهْلاً خَيْرًا مِنْ أَهْلِهِ، اللَّهُمَّ اغْفِرْ لأَسْلاَفِنَا، وَ أَفْرَاطِنَا، وَ مَنْ سَبَقَنَا بِالْإِيْمَانِ ))

[Allahummə-c'alhu fəratan va zuxran livalideyhi va şəfian mucəbən. Allahummə səqqıl bihi məvazinəhumə va ə'zım bihi ucurahumə va əlhiqhu bisalihil-mu'mininə vac'alhu fi kəfələti İbrahim va qıhi birahmətikə azəbəl-cəhim, va əbdilhu dəran xayran min dərihi, va əhlən xayran min əhlihi, Allahummə-ğfir liəsləfinə va əfratinə va mən səbəqanə bil-imən]

«Allahım! Onu valideynləri üçün [cənnətə girməkdə onları] qabaqlayan, saxlanılan bir nemət və duası qəbul olunan bir şəfaətçi et! Allahım! Onun sayəsində onların [yaxşı əməl] tərəzilərini ağır et və onların mükafatlarını böyük et! Onu əməlisaleh möminlərə qovuşdur və İbrahimin himayəsinə

götür. Öz mərhəmətinlə onu Cəhənnəm əzabından qoru! Ona evinin əvəzinə daha xeyirli ev, ailəsinin əvəzinə daha xeyirli ailə ver! Allahım! Bizim sələflərimizi[1], uşaqlarımızı və bizdən əvvəl iman gətirmiş kimsələri bağışla!».[2]

١٦١ – (( اللَّهُمَّ اجْعَلْهُ لَنَا فَرَطًا، وَسَلَفًا، وَأَجْرًا ))

161. [Allahummə-c'alhu lənə fəratan va sələfən va əcran!]

161. «Allahım! Onu bizim üçün [cənnətə girməkdə bizi] qabaqlayan, sələf və mükafat et!»[3]

---

[1] Keçmiş nəslimizi.

[2] Bax: ibn Qudəmə, «əl-Muğni», 3/416; Şeyx Əbdüləziz ibn Abdullah ibn Baz, «əd-Durusul-Muhimmə li Ammətul-Ummə», səh.15.

[3] «əl-Həsən [ibn Əli] uşaq üçün cənazə namazı qıldıqda Kitabı açan ("əl-Fatihə") surəsini oxuyar və [bu duanı] deyərdi:..» (əl-Bəğavi, «Şərhus-Sunnə», 5/357). Abdurrazzaq, №6588. Buxari bu hədisi «əl-Cənaiz» fəslinin «əl-Fatihəni cənazə

## (57) Təziyə[1] duası

١٦٢ – (( إِنَّ لِلَّهِ مَا أَخَذَ، وَلَهُ مَا أَعْطَى وَكُلُّ شَيْءٍ عِنْدَهُ بِأَجَلٍ مُسَمًّى ... فَلْتَصْبِرْ وَلْتَحْتَسِبْ ))

162. [İnnə lilləhi mə əxazə va ləhu mə ə'ta va kullu şey'in ındəhu biəcəlin musəmmə... fəl-təsbir val-təhtəsib]

162. «Şübhəsiz ki, Allahın aldığı da, verdiyi də Özünə aiddir. Onun yanında hər şeyin öz müəyyən əcəli var... Səbr et və [bunun əvəzinə Allah yanında mükafat qazanacağına] ümid bağla!»[2]

Sonra da belə desə yaxşı olar:

(( أَعْظَمَ اللهُ أَجْرَكَ، وَأَحْسَنَ عَزَاءَكَ وَغَفَرَ لِمَيِّتِكَ ))

[Ə'zaməllahu əcrakə va əhsənə azə'əkə va ğafəra limeyyitikə]

---

namazında oxumaq» bölümündə (2/113) «*mualləq*» olaraq rəvayət etmişdir.

[1] [Təziyə – yaxın adamı ölmüş bir şəxsə və ya ailəyə təsəlli vermək.]

[2] əl-Buxari, 2/80; Muslim, 2/636.

«Allah sənin mükafatını böyük etsin, sənə gözəl təskinlik versin və ölmüş adamını bağışlasın!».[1]

## (58) Cənazəni qəbrə qoyarkən edilən dua

١٦٣ – (( بِسْمِ اللهِ وَعَلَى سُنَّةِ رَسُولِ اللهِ ))

163. [Bismilləhi va alə sunnəti Rasulilləhi]

163. «Allahın adı ilə və Rəsulullahın Sünnəsi üzrə!»[2]

## (59) Cənazəni dəfn etdikdən sonra edilən dua

١٦٤ – ((اللَّهُمَّ اغْفِرْ لَهُ اللَّهُمَّ ثَبِّتْهُ ))

---

[1] ən-Nəvəvi, «əl-Əzkar», səh.126.

[2] Əbu Davud, 3/314, isnadı səhihdir. ["Səhih Əbu Davud", 2/619]. Əhməd isə bu hədisi səhih isnadla belə rəvayət etmişdir: «Allahın adı ilə və Rəsulullahın milləti (dini) üzrə!». ["Səhih ibn Macə", 1/259.]

164. [Allahummə-ğfir ləhu, Allahummə səbbithu]

164. «Allahım, onu bağışla! Allahım, onu səbatlı et!»[1]

## (60) Qəbirləri ziyarət edərkən oxunan dua

١٦٥ – (( السَّلاَمُ عَلَيْكُمْ أَهْلَ الدِّيَارِ مِنَ الْمُؤْمِنِينَ وَالْمُسْلِمِينَ، وَإِنَّا إِنْ شَاءَ اللهُ بِكُمْ لاَحِقُونَ [وَيَرْحَمُ اللهُ الْمُسْتَقْدِمِينَ مِنَّا وَالْمُسْتَأْخِرِينَ] أَسْأَلُ اللهَ لَنَا وَلَكُمُ الْعَافِيَةَ ))

165. [Əssələmu aleykum əhləd-diyəri minəl-mu'mininə val-muslimin va innə in şəə Allahu bikum ləhiqunə [va yərhə-

[1] Peyğəmbər ﷺ cənazəni dəfn etdikdən sonra onun qəbri üstündə durub deyərdi: «[Allahdan] qardaşınız üçün bağışlanma diləyin və onun sabit olmasını istəyin. Çünki onu, indi sorğu-sual edirlər». Əbu Davud, 3/315. Hakim onu "səhih" hesab etmiş, əz-Zəhəbi də bunu təsdiqləmişdir (1/370). ["Səhih Əbu Davud", 2/620.]

mullahul-mustəqdiminə minnə val-mustə'xirinə]. Əs'əlullahə lənə va ləkumul-afiyətə]

165. «Ey [bu] diyarın mömin və müsəlman sakinləri! Sizə salam olsun! Allah istəsə, biz də sizə qovuşacağıq. [Allah bizdən əvvəl gedənlərə və qalanlara rəhmət etsin!] Allahdan özümüzə və sizə salamatlıq diləyirəm!»[1]

## (61) Külək əsərkən edilən dua

١٦٦ – (( اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ خَيْرَهَا، وَأَعُوذُ بِكَ مِنْ شَرِّهَا ))

166. [Allahummə inni əs'əlukə xayrahə va əuzu bikə min şərrihə]

---

[1] Muslim, 2/671. Bu hədisin mətni İbn Macənin «Sünən» əsərində Bureydadan ﷺ rəvayət etdiyi hədisdən (1/494) götürülmüşdür. Mötərizə içində olanlar isə Muslimin Aişədən ﷺ rəvayət etdiyi hədisdən (2/671) götürülüb.

166. «Allahım! Səndən onun (küləyin) xeyrini diləyirəm və onun şərindən Sənə sığınıram!»[1]

١٦٧ – (( اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ خَيْرَهَا، وَخَيْرَ مَا فِيهَا، وَخَيْرَ مَا أُرْسِلَتْ بِهِ وَأَعُوذُ بِكَ مِنْ شَرِّهَا، وَشَرِّ مَا فِيهَا، وَشَرِّ مَا أُرْسِلَتْ بِهِ ))

167. [Allahummə inni əs'əlukə xayrahə va xayra mə fihə va xayra mə ursilət bihi, va əuzu bikə min şərrihə va şərri mə fihə va şərri mə ursilət bihi]

167. «Allahım! Səndən onun (küləyin) xeyrini, onda olanın xeyrini və onunla birlikdə göndərilənin xeyrini diləyirəm! Onun şərindən, onda olanın şərindən və onunla birlikdə göndərilənin şərindən Sənə sığınıram!»[2]

---

[1] Əbu Davud 4/326; ibn Macə, 2/1228. Bax: «Səhih ibn Macə», 2/305.

[2] Muslim, 2/616; əl-Buxari, 4/76.

## (62) Göy guruldayarkən edilən dua

١٦٨ – (( سُبْحَانَ الَّذِي يُسَبِّحُ الرَّعْدُ بِحَمْدِهِ وَالْمَلاَئِكَةُ مِنْ خِيْفَتِهِ ))

168. [Subhənə-lləzi yusəbbihur-ra'du bihəmdihi val-mələikətu min xifətihi]

168. «Göy gurultusunun həmd edərək, mələklərin isə qorxusundan şəninə təriflər dediyi (Allah) pak və müqəddəsdir!»[1]

## (63) Yağışın yağması üçün edilən bəzi dualar

١٦٩ – (( اللَّهُمَّ أَسْقِنَا غَيْثًا مُغِيثًا مَرِيئًا مَرِيعًا، نَافِعًا غَيْرَ ضَارٍّ، عَاجِلاً غَيْرَ آجِلٍ ))

[1] «Abdullah ibn əz-Zubeyr ﵁ göy gurultusu eşidəndə sözünü yarımçıq qoyub [bu zikri] deyərdi:..» (Malik, «əl-Muvatta», 2/992). əl-Albani: "*Məuquf* olaraq isnadı səhihdir" demişdir ["əl-Kəlimut-Teyyib", səh.135].

169. [Allahummə əsqınə ğaysən muğısən, məriən, mərian, nəfian ğayra darrin, acilən ğayra əcilin]

169. «Allahım! Bizə imdadımıza çatan, xoş, bərəkətli, faydalı, zərəri olmayan, həmən, gecikdirmədən yağmur endir!»[1]

١٧٠ – (( اللَّهُمَّ أَغِثْنَا، اللَّهُمَّ أَغِثْنَا، اللَّهُمَّ أَغِثْنَا ))

170. [Allahummə əğısnə, Allahummə əğısnə, Allahummə əğısnə]

170. «Allahım, bizə yağmur endir! Allahım, bizə yağmur endir! Allahım, bizə yağmur endir!»[2]

١٧١ – (( اللَّهُمَّ اسْقِ عِبَادَكَ، وَبَهَائِمَكَ، وَانْشُرْ رَحْمَتَكَ، وَأَحْيِي بَلَدَكَ الْمَيِّتَ ))

171. [Allahummə-sqı ıbədəkə va bəhə'iməkə, vanşur rahmətəkə va əhyi bələdəkəl-meyyitə]

---

[1] Əbu Davud, 1/303. əl-Albani bu hədisi səhih hesab etmişdir. Bax: «Səhih Əbu Davud» 1/216.

[2] əl-Buxari, 1/224; Muslim, 2/613.

171. «Allahım! Qullarına və heyvanlarına su ver! Mərhəmətini yay və ölü məmləkətini dirilt!»[1]

## (64) Yağış yağanda edilən dua

١٧٢ – (( اللَّهُمَّ صَيِّبًا نَافِعًا ))

172. [Allahummə sayyibən nəfian]
172. «Allahım, bu yağışı faydalı et!»[2]

## (65) Yağış yağandan sonra edilən zikr

١٧٣ – (( مُطِرْنَا بِفَضْلِ اللهِ وَرَحْمَتِهِ ))

173. [Mutırnə bi fadlilləhi va rahmətihi]

173. «Allahın lütfü və mərhəməti ilə bizə yağmur endirildi».[3]

---

[1] Əbu Davud, 1/305. əl-Albani bu hədisi həsən hesab etmişdir. Bax: «Səhih Əbu Davud», 1/218.

[2] «Fəthul-Bari», 2/518. [“Mişkatul-Məsabih”, 1/338.]

[3] əl-Buxari, 1/205; Muslim, 1/83.

## (66) Havanın açılması üçün edilən dua

١٧٤ – (( اللَّهُمَّ حَوَالَيْنَا وَلاَ عَلَيْنَا. اللَّهُمَّ عَلَى ٱلآكَامِ وَالظِّرَابِ، وَبُطُونِ ٱلأَوْدِيَةِ، وَمَنَابِتِ الشَّجَرِ ))

174. [Allahummə həvaleynə va lə aleynə. Allahummə aləl-əkəmi vaz-zırabi va butunil-audiyəti va mənəbitiş-şəcəri]

174. «Allahım! Üzərimizə deyil, ətrafımıza (yağdır). Allahım! Təpələrə, dağlara, vadilərə və ağac bitən yerlərə (yağdır)!»[1]

## (67) Hilal[2] görünərkən edilən dua

١٧٥ – (( اللهُ أَكْبَرُ، اللَّهُمَّ أَهِلَّهُ عَلَيْنَا بِٱلأَمْنِ وَٱلإِيْمَانِ، وَالسَّلاَمَةِ وَ ٱلإِسْلاَمِ، وَالتَّوْفِيقِ لِمَا تُحِبُّ رَبَّنَا وَتَرْضَى، رَبُّنَا وَرَبُّكَ اللهُ ))

175. [Allahu əkbər, Allahummə əhilləhu aleynə bil-əmni, val-iməni, vas-sələməti, val-isləmi, vat-təufiqı limə

[1] əl-Buxari, 1/224; Muslim, 2/614.

[2] [Hilal – təzə ay.]

tuhibbu Rabbənə va tərda. Rabbunə va Rabbukə-llahu]

175. «Allah ən Böyükdür! Allahım! Onu əmin-amanlıqla, imanla, salamatlıqla, islamla və ey Rəbbimiz, sevdiyin və razı qaldığın işlərə müvəffəqiyyət verməklə başımız üzərinə çıxart! [Ey hilal!] Bizim də Rəbbimiz, sənin də Rəbbin Allahdır!»[1]

## (68) Oruc tutan iftarını açarkən etdiyi dua

١٧٦ – (( ذَهَبَ الظَّمَأُ، وَابْتَلَّتِ الْعُرُوقُ، وَثَبَتَ الأَجْرُ إِنْ شَاءَ اللَّهُ ))

176. [Zəhəbəz-zaməu, vabtəllətil-uruq, va səbətəl-əcru in şəə Allah]

176. «Susuzluq getdi və damarlar islandı. Allah istəsə, savab yazıldı!»[2]

---

[1] ət-Tirmizi, 5/504; əd-Darimi, 1/336. Mətn əd-Dariminindir. Bax: «Səhihut-Tirmizi», 3/157.

[2] Əbu Davud (2/306) və başqaları rəvayət etmişlər. Bax: «Səhihul-Cami», 4/209.

١٧٧ – (( اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ بِرَحْمَتِكَ الَّتِي وَسِعَتْ كُلَّ شَيْءٍ أَنْ تَغْفِرَ لِي ))

177. [Allahummə inni əs'əlukə bi-rahmətikə-lləti vasi'at kullə şey'in ən təğfira li]

177. «Allahım! Səndən hər şeyi əhatə edən mərhəmətinlə məni bağışlamanı diləyirəm!»[1]

## (69) Yeməyə başlayarkən edilən dua

178. «Sizlərdən biri yemək yeməyə başlayarkən:

١٧٨ – (( بِسْمِ اللهِ ))

[Bismilləh]

«Allahın adı ilə!» desin.

---

[1] Abdullah ibn Amr ibnul-Asın ﷺ rəvayətindən. Hədisi İbn Macə (1/557) rəvayət etmiş və İbn Həcər onu "həsən" hesab etmişdir. Bax: «Şərhul-Əzkar», 4/342. [əl-Albani bu hədisi "zəif" hesab etmişdir. Bax: "Daif ibn Macə", 1/135.]

Əgər əvvəldə bunu unutsa, onda:

(( بِسْمِ اللهِ فِي أَوَّلِهِ وَآخِرِهِ ))

[Bismilləhi fi əvvalihi va əxırıhi]

«Əvvəlində də, axırında da Allahın adı ilə!» desin.[1]

179. Qoy Allahın yemək verdiyi kimsə [belə] desin:

١٧٩ – (( اللَّهُمَّ بَارِكْ لَنَا فِيهِ وَأَطْعِمْنَا خَيْرًا مِنْهُ ))

[Allahummə bərik lənə fihi va ət'ımnə xayran minhu]

«Allahım! Bunu bizim üçün bərəkətli et və bizə bundan daha xeyirlisini nəsib eylə!»

Allahın süd nəsib etdiyi kimsə isə [belə] desin:

(( اللَّهُمَّ بَارِكْ لَنَا فِيهِ وَزِدْنَا مِنْهُ ))

---

[1] Əbu Davud, 3/347 və ət-Tirmizi, 4/288. Bax: «Səhihut-Tirmizi», 2/167.

[Allahummə bərik lənə fihi va zidnə minhu]

«Allahım! Bunu bizim üçün bərəkətli et və bundan bizə çox nəsib eylə!»[1]

## (70) Yeməkdən sonra edilən dua

١٨٠ – (( الْحَمْدُ للهِ الَّذِي أَطْعَمَنِي هَذَا وَرَزَقَنِيهِ مِنْ غَيْرِ حَوْلٍ مِنِّي وَلاَ قُوَّةٍ ))

180. [Əlhəmdu lilləhil-ləzi ət'aməni həzə va razəqanihi min ğayri həulin minni va lə quvvatin]

180. «Bunu mənə yedirdən və özüm heç bir qüdrət və güc sərf etmədən onu mənə bəxş edən Allaha həmd olsun!»[2]

١٨١ – (( الْحَمْدُ للهِ حَمْداً كَثِيراً طَيِّباً مُبَارَكاً فِيهِ، غَيْرَ [مَكْفِيٍّ وَلاَ] مُوَدَّعٍ، وَلاَ مُسْتَغْنىً عَنْهُ رَبَّنَا ))

---

[1] ət-Tirmizi, 5/506. [«Səhihut-Tirmizi», 3/158].

[2] Bu hədisi ən-Nəsai istisna olmaqla, «Sünən» əsərlərinin müəllifləri rəvayət etmişlər. Bax: «Səhihut-Tirmizi», 3/159.

181. [Əlhəmdu lilləhi həmdən kəsiran tayyibən mubərakən fihi ğayra [məkfiyyin va lə] muvaddəın va lə mustəğnən anhu Rabbənə]

181. «Rəbbimiz Allaha həmd olsun! (Özü də) çoxlu, xoş, mübarək, [sonsuz], ardı-arası kəsilməyən, onsuz keçinmək mümkün olmayan bir həmd!»[1]

## (71) Qonağın ona yemək verən üçün etdiyi dua

١٨٢ – (( اللَّهُمَّ بَارِكْ لَهُمْ فِيمَا رَزَقْتَهُمْ، وَاغْفِرْ لَهُمْ وَارْحَمْهُمْ ))

182. [Allahummə bərik ləhum fimə razəqtəhum vağfir ləhum varhəmhum]

182. «Allahım! Onlara verdiyin ruzini bərəkətli et, onları bağışla və onlara rəhm et!»[2]

---

[1] əl-Buxari, 6/214 və ət-Tirmizi, 5/507. Buradakı mətn ət-Tirmizinindir.

[2] Muslim, 3/1615.

## (72) Su verən yaxud vermək istəyən şəxs üçün edilən dua

١٨٣ – (( اللَّهُمَّ أَطْعِمْ مَنْ أَطْعَمَنِي وَاسْقِ مَنْ سَقَانِي ))

183. [Allahummə ət'ım mən ət'aməni va-sqı mən səqani]

183. «Allahım! Mənə yemək verənə yemək ver, su verənə su ver!»[1]

## (73) (Başqa evdə) orucunu açan şəxsin ev əhli üçün etdiyi dua

١٨٤ – (( أَفْطَرَ عِنْدَكُمُ الصَّائِمُونَ، وَأَكَلَ طَعَامَكُمُ الأَبْرَارُ، وَصَلَّتْ عَلَيْكُمُ الْمَلاَئِكَةُ ))

184. [Əftara ındəkumus-saimunə va əkələ taəməkumul-əbraru va sallət aleykumul-mələikətu]

184. «Oruc tutanlar sizdə iftar açsın, yeməyinizi yaxşı adamlar yesin, mələklər də sizin üçün dua etsin!»[1]

---

[1] Muslim, 3/126.

## (74) Oruc tutan şəxsin yemək süfrəsi açıldığı zaman orucunu[2] pozmaq istəmədikdə etdiyi dua

185. «Sizlərdən birini qonaq çağırsalar, getsin! Oruc tutubsa, dua etsin, tutmayıbsa, yeməkdən yesin!»[3]

## (75) Oruc tutan onu söyən adama nə deməlidir

١٨٦ – (( إِنِّي صَائِمٌ، إِنِّي صَائِمٌ ))

186. [İnni saimun, inni saimun]
186. «Mən orucam, mən orucam!»[4]

---

[1] «Sünən Əbu Davud», 3/367; İbn Macə 1/556. ən-Nəsai «Əməlul-Yəumi vəl-Leyl»-də (№296-298) rəvayət etmişdir ki, Peyğəmbər ﷺ bu duanı hər hansı bir evdə iftar yeməyi yedikdə edərdi. Bu hədisi əl-Albani "səhih" hesab etmişdir. Bax: «Səhih Əbu Davud», 2/730.

[2] [Burada vacib orucdan başqa tutulan oruclar qəsd edilir.]

[3] Muslim, 2/1054.

[4] «Fəthul-Bari» 4/103; Muslim 2/806.

## (76) Novbar meyvə görərkən edilən dua

١٨٧ - (( اللَّهُمَّ بَارِكْ لَنَا فِي ثَمَرِنَا، وَبَارِكْ لَنَا فِي مَدِينَتِنَا، وَبَارِكْ لَنَا فِي صَاعِنَا، وَبَارِكْ لَنَا فِي مُدِّنَا ))

187. [Allahummə bərik lənə fi səmərinə va bərik lənə fi mədinətinə va bərik lənə fi saınə va bərik lənə fi muddinə]

187. «Allahım! Məhsulumuzu bizim üçün bərəkətli et, şəhərimizi bizim üçün bərəkətli et, saamızı[1] bizim üçün bərəkətli et və muddumuzu[2] bizim üçün bərəkətli et!»[3]

## (77) Asqırdıqda edilən dua

188. «Sizlərdən biri asqırsa,

١٨٨ - (( الْحَمْدُ لِلَّهِ ))

188. [Əlhəmdulilləh]

[1] [Dörd ovuca bərabər ölçü vahididir.]

[2] [Bir ovuca bərabər ölçü vahididir.]

[3] Muslim, 2/1000.

«Həmd olsun Allaha!» desin. Qardaşı və ya dostu isə ona:

(( يَرْحَمُكَ اللهُ ))

[Yərhəmukəllah]

«Allah sənə rəhm etsin!» desin. O da «Allah sənə rəhm etsin!» deyənə:

(( يَهْدِيْكُمُ اللهُ وَيُصْلِحُ بَالَكُمْ ))

[Yəhdikumullahu va yuslihu bələkum]

«Allah sizi doğru yola yönəltsin və işinizi avand etsin!» desin.[1]

## (78) Kafir asqırıb "əlhəmdulilləh" desə, ona nə deyilir

١٨٩ – (( يَهْدِيْكُمُ اللهُ وَيُصْلِحُ بَالَكُمْ ))

189. [Yəhdikumullahu va yuslihu bələkum]

[1] əl-Buxari, 7/125.

189. «Allah sizi doğru yola yönəltsin və işinizi avand etsin!»[1]

## (79) Evlənən üçün edilən dua

١٩٠ – (( بَارَكَ اللهُ لَكَ، وَبَارَكَ عَلَيْكَ؛ وَجَمَعَ بَيْنَكُمَا فِي خَيْرٍ ))

190. [Bərakəllahu ləkə va bərakə aleykə va cəməa beynəkumə fi xayrin]

190. «Allah mübarək eləsin, sənin üçün bərəkətli etsin, hər ikinizi xeyir üzərində birləşdirsin!»[2]

## (80) Evlənən şəxsin özü üçün etdiyi dua və minik heyvanı alanın edəcəyi dua

191. Sizdən biriniz bir qadınla evləndikdə və ya bir xidmətçi (satın) aldıqda belə desin:

---

[1] ət-Tirmizi, 5/82; Əhməd, 4/400; Əbu Davud, 4/308. Bax: «Səhihut-Tirmizi», 2/354.

[2] ən-Nəsai istisna olmaqla «Sünən» əsərlərinin müəllifləri rəvayət etmişlər. Bax: «Səhihut-Tirmizi», 1/316.

١٩١ – (( اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ خَيْرَهَا وَخَيْرَ مَا جَبَلْتَهَا عَلَيْهِ وَأَعُوذُ بِكَ مِنْ شَرِّهَا وَشَرِّ مَا جَبَلْتَهَا عَلَيْهِ ))

[Allahummə inni əs'əlukə xayrahə va xayra mə cəbəltəhə aleyhi, va əuzu bikə min şərrihə va şərri mə cəbəltəhə aleyhi]

«Allahım! Şübhəsiz ki, mən Səndən həm onun xeyrini, həm də ona verdiyin xilqətin xeyrini diləyirəm. Onun şərindən və ona verdiyin xilqətin şərindən Sənə sığınıram!»

Dəvə aldıqda da, onun hörgücünün başından tutub eyni ilə bu duanı desin.[1]

## (81) Həyat yoldaşı ilə cinsi əlaqəyə girməmişdən əvvəl edilən dua

١٩٢ – (( بِسْمِ اللهِ. اللَّهُمَّ جَنِّبْنَا الشَّيْطَانَ، وَجَنِّبِ الشَّيْطَانَ مَا رَزَقْتَنَا ))

[1] Əbu Davud, 2/248 və İbn Macə, 1/617. Bax: «Səhih İbn Macə», 1/324.

192. [Bismilləh. Allahummə cənnibnəş-şeytanə va cənnibiş-şeytanə mə razəqtənə]

192. «Allahın adı ilə! Allahım! Bizi şeytandan uzaqlaşdır, şeytanı da bizə bəxş etdiyin şeydən uzaqlaşdır!»[1]

## (82) Qəzəblənərkən edilən dua

١٩٣ – (( أَعُوذُ بِاللهِ مِنَ الشَّيْطَانِ الرَّجِيمِ ))

193. [Əuzu billəhi minəş-şeytanir-racim]

193. «Lənətlənmiş şeytandan Allaha sığınıram!»[2]

## (83) Müsibətə düçar olmuş kimsəni görərkən edilən dua

١٩٤ – (( الْحَمْدُ للهِ الَّذِي عَافَانِي مِمَّا ابْتَلاَكَ بِهِ وَفَضَّلَنِي عَلَى كَثِيرٍ مِمَّنْ خَلَقَ تَفْضِيلاً ))

---

[1] əl-Buxari, 6/141; Muslim, 2/1028.

[2] əl-Buxari, 7/99; Muslim, 4/2015.

194. [Əlhəmdu lilləhi-lləzi afəni mim-məbtələkə bihi va fəddaləni alə kəsirin mimmən xaləqa təfdılən]

194. «Sənə üz vermiş müsibətdən məni salamat edən və məni yaratdıqlarının çoxundan fəzilətli edərək üstün tutan Allaha həmd olsun!»[1]

## (84) Məclisdə nə deyilir

195. İbn Ömər ﵁ rəvayət edir ki, Peyğəmbərin ﷺ bir məclisdən qalxmazdan öncə yüz dəfə:

١٩٥ – (( رَبِّ اغْفِرْ لِي وَتُبْ عَلَيَّ إِنَّكَ أَنْتَ التَّوَّابُ الْغَفُورُ ))

195. [Rabbiğfir li va tub aleyyə. İnnəkə əntət-təvvabul-ğafur]

«Ey Rəbbim, məni bağışla, tövbəmi də qəbul et! Şübhəsiz ki, Sən Tövbələri

[1] ət-Tirmizi, 5/493-494. Bax: «Səhihut-Tirmizi», 3/153.

qəbul edənsən, Bağışlayansan!» – dediyi sayılardı.[1]

## (85) Məclisin kəffarəsi[2]

١٩٦ – (( سُبْحَانَكَ اللَّهُمَّ وَبِحَمْدِكَ، أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ أَنْتَ، أَسْتَغْفِرُكَ وَأَتُوبُ إِلَيْكَ ))

196. [Subhənəkə Allahummə va bihəmdik, əşhədu ən lə iləhə illə ənt, əstəğfirukə va ətubu ileyk]

196. «Allahım, Sən pak və müqəddəssən! Sənə həmd olsun! Mən şahidlik edirəm ki, Səndən başqa məbud yoxdur. Səndən bağışlanma diləyir və Sənə tövbə edirəm!»[3]

---

[1] Hədisi ət-Tirmizi və başqaları rəvayət etmişlər. Bax: «Səhihut-Tirmizi», 3/153; «Səhih İbn Macə», 2/321. Buradakı mətn ət-Tirmizinindir.

[2] [Kəffarə – günahların bağışlanılması üçün şəriətin buyurduğu qaydada deyilən söz, yaxud verilən sədəqə.]

[3] «Sünən» əsərləri müəllifləri rəvayət etmişlər. Bax: «Səhihut-Tirmizi», 3/153. Aişə ﵂ rəvayət edir

## (86) «Allah səni bağışlasın!» deyən üçün edilən dua

١٩٧ - (( وَلَكَ ))

197. [Va ləkə]
197. «Səni də!»[1]

## (87) Sənə yaxşılıq edən şəxs üçün edəcəyin dua

١٩٨ - (( جَزَاكَ اللهُ خَيْراً ))

198. [Cəzəkə-llahu xayran]

---

ki, Peyğəmbər ﷺ hər bir məclisin sonunda, habelə Quran oxuduqdan və namaz qıldıqdan sonra bu kəlmələri deyərdi:..» (ən-Nəsai, «Əməlul-Yəumi vəl-Leyl», №308; Əhməd, «Müsnəd», 6/77). Doktor Faruq Həmadə bu hədisi ən-Nəsainin «Əməlul-Yəumi vəl-Leyl» əsərinin təhqiqində (səh.273) "səhih" hesab etmişdir.

[1] Əhməd, 5/82; ən-Nəsai, «Əməlul-Yəumi vəl-Leyl». Doktor Faruq Həmadənin təhqiqi, səh.218, №421. [Hədis səhihdir: "Müxtəsər əş-Şəmail", 1/33.]

198. «Allah səni xeyirlə mükafatlandırsın!» desən, gözəl tərzdə təşəkkür etmiş olarsan.[1]

## (88) O zikr ki, Allah onun sayəsində Dəccaldan qoruyar

199. «Kim "əl-Kəhf" surəsinin ilk on ayəsini əzbərləsə, Dəccaldan qorunar!»[2]

Həmçinin, hər namazda axırıncı təşəhhüddən sonra onun fitnəsindən Allaha sığınmaq lazımdır.[3]

## (89) «Səni Allah xatirinə sevirəm» deyən üçün edilən dua

٢٠٠ – (( أَحَبَّكَ الَّذِي أَحْبَبْتَنِي لَهُ ))

200. [Əhəbbəkə-lləzi əhbəbtəni ləhu]

---

[1] ət-Tirmizi, №2035. Bax: «Səhihul-Cami», 6244 və «Səhihut-Tirmizi», 2/200.

[2] Muslim, 1/555. Başqa bir rəvayətdə isə deyilir ki, «son on ayəsini...» (Muslim, 1/556).

[3] Bu kitabdakı 55 və 56-cı dualara bax.

200. «Məni xatirinə sevdiyin [Allah da] səni sevsin!»[1]

## (90) Malını sənə təklif edən kimsə üçün edilən dua

٢٠١ – (( بَارَكَ اللهُ لَكَ فِي أَهْلِكَ وَمَالِكَ ))

201. [Bərakəllahu ləkə fi əhlikə va məlikə]

201. «Allah sənin üçün ailəni və malını bərəkətli etsin!»[2]

## (91) Borcu qaytararkən onu verən şəxs üçün edilən dua

٢٠٢ – (( بَارَكَ اللهُ لَكَ فِي أَهْلِكَ وَمَالِكَ، إِنَّمَا جَزَاءُ السَّلَفِ الْحَمْدُ وَالأَدَاءُ ))

202. [Bərakəllahu ləkə fi əhlikə va məlikə, innəmə cəzəus-sələfil-həmdu valədə'u]

[1] Əbu Davud, 4/333. əl-Albani bu hədisi «həsən» hesab etmişdir. Bax: «Səhih Əbu Davud», 3/965.

[2] «Fəthul-Bari», 4/88. ["Səhih əl-Buxari", 2/722.]

202. «Allah sənin üçün ailəni və malını bərəkətli etsin! Həqiqətən borcun qarşılığı təşəkkür etmək və [onu] ödəməkdir».[1]

## (92) Allaha şərik qoşmaqdan qorxanın edəcəyi dua

٢٠٣ – (( اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ أَنْ أُشْرِكَ بِكَ وَأَنَا أَعْلَمُ، وَأَسْتَغْفِرُكَ لِمَا لاَ أَعْلَمُ ))

203. [Allahummə inni əuzu bikə ən uşrikə bikə va ənə ə'ləmu, va əstəğfirukə limə lə ə'ləmu]

203. «Allahım! Bilə-bilə Sənə şərik qoşmaqdan Sənə sığınıram və bilmədiklərimə görə də Səndən bağışlanma diləyirəm!»[2]

---

[1] ən-Nəsai, «Əməlul-Yəumi vəl-Leyl», səh.300; İbn Macə, 2/809. Bax: «Səhih İbn Macə», 2/55.

[2] Əhməd (4/403) və başqaları rəvayət etmişlər. Bax: əl-Albani, «Səhihul-Cami», 3/233 və «Səhihut-Tərğib vət-Tərhib», 1/19.

## (93) "Allah sənə bərəkət versin" deyən adama nə deyilir

٢٠٤ – (( وَ فِيكَ بَارَكَ اللهُ ))

204. [Va fikə bərakəllahu]
204. «Allah sənə də bərəkət versin!»[1]

## (94) Bəd əlamətə[2] qarşı edilən dua

٢٠٥ – (( اللَّهُمَّ لاَ طَيْرَ إِلاَّ طَيْرُكَ، وَلاَ خَيْرَ إِلاَّ خَيْرُكَ، وَلاَ إِلَهَ غَيْرُكَ ))

205. [Allahummə lə tayra illə tayrukə, va lə xayra illə xayrukə, va lə iləhə ğayrukə]

---

[1] İbn əs-Sunni, səh.138, №278. Bax: Bəşir Muhəmməd Uyunun təhqiqində İbn əl-Qeyyimin «Əl-Vabilus-Sayb» əsəri, səh.304.

[2] [Hər hansı bir şey gördükdə, yaxud eşitdikdə və ya bir hadisə baş verdikdə bunu uğursuzluğa yozmaq.]

205. «Allahım! Sənin [izninlə göydə uçan] quşundan başqa heç bir quş yoxdur[1], Sənin verdiyin xeyirdən başqa xeyir yoxdur və Səndən başqa məbud yoxdur!»[2]

---

[1] [Cahiliyyə dövründə ərəblər səfərə çıxmaq istədikdə onun uğurlu və ya uğursuz olacağını bilmək üçün göyə quş uçurardılar. Onlar belə düşünürdülər ki, quş sağ tərəfə uçsa səfər uğurlu, sol tərəfə uçsa uğursuz olacaq. Beləcə onlar səfərin uğurlu və ya uğursuz olacağını quşun sağ və ya sol tərəfə uçmasına yozardılar. Lakin Allahın Elçisi ﷺ onlara bildirdi ki, quşlar göydə yalnız Allahın izni ilə uçurlar və onların bu inancı batildir. (Bax: "əl-Mulk" surəsi, 19 və "ən-Nəhl" surəsi, 79)]

[2] Əhməd, 2/220; İbn əs-Sunni, №292. Bu hədisi əl-Albani "səhih" hesab etmişdir. Bax: «Silsilətul-Əhadisis-Səhihə», 3/54, №1065. O ki qaldı xoş əlamətə, bu, Peyğəmbərin ﷺ xoşuna gələrdi. Elə buna görə də bir kişinin yaxşı söz söylədiyini eşidib onu bəyəndi və dedi: "Ağzından çıxan xoş əlaməti bəyəndik!" (Əhməd, Əbu Davud). Bu hədisi əl-Albani "səhih" hesab etmişdir. Bax: «Silsilətul-Əhadisis-Səhihə», 2/363 və Əbuş-Şeyx, "Əxlaqun-Nəbiyyi ﷺ", səh.270.

## (95) Minik vasitəsinə minərkən edilən dua

٢٠٦ – (( بِسْمِ اللهِ، الْحَمْدُ للهِ ﴿ سُبْحَٰنَ ٱلَّذِى سَخَّرَ لَنَا هَٰذَا وَمَا كُنَّا لَهُۥ مُقْرِنِينَ وَإِنَّآ إِلَىٰ رَبِّنَا لَمُنقَلِبُونَ ﴾ الْحَمْدُ للهِ، الْحَمْدُ للهِ، الْحَمْدُ للهِ، اللهُ أَكْبَرُ، اللهُ أَكْبَرُ، اللهُ أَكْبَرُ، سُبْحَانَكَ اللَّهُمَّ إِنِّي ظَلَمْتُ نَفْسِي فَاغْفِرْ لِي، فَإِنَّهُ لاَ يَغْفِرُ الذُّنُوبَ إِلاَّ أَنْتَ ))

206. [Bismilləh. Əlhəmdulilləh. Subhənə-lləzi səxxara lənə həzə va mə kunnə ləhu muqrınin. Va innə ilə Rabbinə ləmunqalibun. Əlhəmdulilləh, əlhəmdulilləh, əlhəmdulilləh. Allahu əkbər, Allahu əkbər, Allahu əkbər. Subhənəkə Allahummə inni zaləmtu nəfsi fəğfir li, fəinnəhu lə yəğfiruz-zunubə illə ənt]

206.«Allahın adı ilə! Allaha həmd olsun! «Bunu bizə tabe edən [Allah] pak və müqəddəsdir. [Yoxsa] bizim ona gücümüz çatmazdı. Şübhəsiz ki, biz Rəbbimizə qayıdacağıq». Allaha həmd olsun! Allaha həmd olsun! Allaha həmd olsun!

Allah ən Böyükdür, Allah ən Böyükdür, Allah ən Böyükdür. Allahım, Sən pak və müqəddəssən! Mən özümə zülm etdim. Məni bağışla! Şübhəsiz ki, günahları ancaq Sən bağışlayırsan».[1]

## (96) Səfər duası

٢٠٧ – (( اللهُ أَكْبَرُ، اللهُ أَكْبَرُ، اللهُ أَكْبَرُ، ﴿ سُبْحَٰنَ ٱلَّذِى سَخَّرَ لَنَا هَٰذَا وَمَا كُنَّا لَهُۥ مُقْرِنِينَ وَإِنَّآ إِلَىٰ رَبِّنَا لَمُنقَلِبُونَ ﴾ اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ فِي سَفَرِنَا هَذَا الْبِرَّ وَالتَّقْوَى، وَمِنَ الْعَمَلِ مَا تَرْضَى، اللَّهُمَّ هَوِّنْ عَلَيْنَا سَفَرَنَا هَذَا وَاطْوِ عَنَّا بُعْدَهُ، اللَّهُمَّ أَنْتَ الصَّاحِبُ فِي السَّفَرِ، وَالْخَلِيفَةُ فِي الأَهْلِ، اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ وَعْثَاءِ السَّفَرِ، وَكَآبَةِ الْمَنْظَرِ، وَسُوءِ الْمُنْقَلَبِ فِي الْمَالِ وَالأَهْلِ ))

207. [Allahu əkbər, Allahu əkbər, Allahu əkbər. Subhənə-lləzi səxxara lənə həzə va mə kunnə ləhu muqrının va innə

---

[1] Əbu Davud, 3/34; ət-Tirmizi, 5/501. Bax: «Səhihu-t-Tirmizi», 3/156.

ilə Rabbinə ləmunqalibun. Allahummə innə nəs'əlukə fi səfərinə həzə əl-birra vat-təqva, va minəl aməli mə tərda. Allahummə həvvın aleynə səfəranə həzə vatvı annə bu'dəhu. Allahummə əntəs-sahibu fis-səfəri val-xalifətu fil-əhli. Allahummə inni əuzu bikə min va'səis-səfəri va kə'əbətil-mənzari va suil-munqaləbi fil-məli val-əhli]

207. «Allah ən Böyükdür, Allah ən Böyükdür, Allah ən Böyükdür. «Bunu bizə tabe edən [Allah] pak və müqəddəsdir. [Yoxsa] bizim ona gücümüz çatmazdı. Şübhəsiz ki, biz Rəbbimizə qayıdacağıq». Allahım! Bu səfərimizdə Səndən yaxşılıq, Allah qorxusu və razı qalacağın əməl diləyirik. Allahım! Bu səfərimizi bizim üçün rahat et və onun uzaqlığını bizə yaxın et. Allahım! Səfərdə dost və ailəmiz üçün hami Sənsən. Allahım! Səfərin ağırlığından, məyus edən mənzərədən, malda və ailədə xoşagəlməz dəyişiklikdən Sənə pənah aparıram».

Səfərdən qayıdanda isə həmin duanı oxuyub aşağıdakı sözləri də buna əlavə etmək lazımdır:

(( آيِبُونَ، تَائِبُونَ، عَابِدُونَ، لِرَبِّنَا حَامِدُونَ ))

[Əyibunə, təibunə, abidunə, li-rabbinə hamidun]

«[Biz] geri dönənlər, tövbə edənlər, ibadət edənlər, Rəbbimizə həmd edənlərik!»[1]

## (97) Kəndə yaxud şəhərə daxil olarkən edilən dua

٢٠٨ – (( اللَّهُمَّ رَبَّ السَّمَوَاتِ السَّبْعِ وَمَا أَظْلَلْنَ، وَرَبَّ الأَرَضِينَ السَّبْعِ وَمَا أَقْلَلْنَ، وَرَبَّ الشَّيَاطِينِ وَمَا أَضْلَلْنَ، وَرَبَّ الرِّيَاحِ وَمَا ذَرَينَ. أَسْأَلُكَ خَيْرَ هَذِهِ الْقَرْيَةِ وَخَيْرَ أَهْلِهَا، وَخَيْرَ مَا فِيهَا، وَأَعُوذُ بِكَ مِنْ شَرِّهَا، وَشَرِّ أَهْلِهَا، وَشَرِّ مَا فِيهَا ))

208. [Allahummə Rabbəs-səməvatis-səb'i va mə əzləlnə, va Rabbəl-əradınəs-

[1] Muslim, 2/998.

səb'i va mə əqləlnə, va Rabbəş-şəyatıni va mə ədlələlnə, va Rabbər-rıyəhi va mə zəraynə. Əs'əlukə xayra həzihil-qaryəti va xayra əhlihə, va xayra mə fihə, va əuzu bikə min şərrihə, va şərri əhlihə, va şərri mə fihə]

208. «Allahım! Yeddi qat səmanın və kölgələndirdiklərinin Rəbbi! Yeddi qat yerin və daşıdıqlarının Rəbbi! Şeytanların və azdırdıqlarının Rəbbi! Küləklərin və sovurub apardıqlarının Rəbbi! Səndən bu kəndin xeyrini, onun əhalisinin xeyrini, orada olanların xeyrini diləyirəm! Onun şərindən, onun əhalisinin şərindən, orada olanların şərindən Sənə sığınıram!»[1]

---

[1] əl-Hakim. O, bu hədisi "səhih" hesab etmiş, əz-Zəhəbi də bunu təsdiqləmişdir (2/100); İbn əs-Sunni, №524. İbn Həcər onu "həsən" hesab etmişdir («Əzkar», 5/154). İbn Baz demişdir: «ən-Nəsai bunu "həsən" isnadla rəvayət etmişdir». Bax: «Tuhfətul-Əxyar», səh.37. [Hədis səhihdir: "əl-Kəlimut-Teyyib", səh.147.]

## (98) Bazara girərkən edilən dua

٢٠٩ – (( لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، يُحْيِي وَيُمِيتُ وَهُوَ حَيٌّ لاَ يَمُوتُ، بِيَدِهِ الْخَيْرُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ ))

209. [Lə iləhə illəllahu vahdəhu lə şərikə ləhu, ləhul-mulku va ləhul-həmdu, yuhyi va yumitu va huva həyyun lə yəmutu, biyədihil-xayru va huva alə kulli şeyin qadir]

209. «Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! Dirildir və öldürür. O, diridir və ölməzdir. Xeyir Onun əlindədir və O hər şeyə Qadirdir!»[1]

---

[1] ət-Tirmizi, 5/291 və əl-Hakim, 1/538. əl-Albani bu hədisi «həsən» hesab etmişdir. Bax: «Səhih İbn Macə» 2/21 və «Səhihut-Tirmizi» 2/152.

## (99) Minik vasitəsi büdrədikdə (ilişib qaldıqda) edilən dua

٢١٠ – (( بِسْمِ اللهِ ))

210. [Bismilləh]
210. «Allahın adı ilə!»[1]

## (100) Müsafirin [vidalaşarkən] sakinlər üçün etdiyi dua

٢١١ – (( أَسْتَوْدِعُكُمُ اللهَ الَّذِي لاَ تَضِيعُ وَدَائِعُهُ ))

211. [Əstəudiukumu-llahəl-ləzi lə tədıu vadə'iuhu]

211. «Sizi [Özünə həvalə edilmiş] əmanətləri itməyən Allaha əmanət edirəm!»[2]

---

[1] Əbu Davud, 4/296. əl-Albani bu hədisi «səhih» hesab etmişdir. Bax: «Səhih Əbu Davud», 3/941.

[2] Əhməd 2/403 və İbn Macə, 2/943. Bax: «Səhih İbn Macə», 2/133.

## (101) Sakinlərin [vidalaşarkən] müsafir üçün etdiyi dua

٢١٢ – (( أَسْتَوْدِعُ اللهَ دِينَكَ، وَأَمَانَتَكَ، وَخَوَاتِيمَ عَمَلِكَ ))

212. [Əstəudiu-llahə dinəkə va əmənətəkə va xavatimə aməlikə]

212. «Sənin dinini, sədaqətini və əməllərinin aqibətini Allaha əmanət edirəm!»[1]

٢١٣ – (( زَوَّدَكَ اللهُ التَّقْوَى، وَغَفَرَ ذَنْبَكَ، وَيَسَّرَ لَكَ الْخَيْرَ حَيْثُ مَا كُنْتَ))

213. [Zəvvadəkə-llahut-təqva, va ğafəra zənbəkə, va yəssəra ləkəl-xayra həysu mə kuntə]

213. «Allah sənə təqva[2] nəsib etsin, günahını bağışlasın və harada olsan xeyirli olanı sənin üçün asanlaşdırsın!»[3]

---

[1] Əhməd, 2/7; ət-Tirmizi, 5/499. Bax: «Səhihut-Tirmizi», 2/155.

[2] [Təqva – Allah qorxusu.]

[3] ət-Tirmizi. Bax: «Səhihut-Tirmizi», 3/155.

## (102) Səfərdə yol gedərkən təkbir və təsbih [etmək]

214. Cabir ﷺ demişdir: «Biz yüksəyə qalxanda təkbir edər ("Allahu Əkbər" deyər), aşağı enəndə isə təsbih edərdik ("Subhənallah" deyərdik)».[1]

## (103) Müsafirin səhərə yaxın etdiyi dua

٢١٥ – (( سَمَّعَ سَامِعٌ بِحَمْدِ اللهِ، وَحُسْنِ بَلاَئِهِ عَلَيْنَا. رَبَّنَا صَاحِبْنَا، وَأَفْضِلْ عَلَيْنَا عَائِذًا بِاللهِ مِنَ النَّارِ ))

215. [Səmməa səmiun bihəmdilləhi, va husni bələ'ihi aleynə. Rabbənə sahibnə va əfdıl aleynə aizən billəhi minən-nər]

215. «Üzərimizə olan gözəl sınağından dolayı Allaha etdiyimiz həmdi eşidən eşitdi [və ya eşitdirdi]. Oddan Allaha

---

[1] «Fəthul-Bari», 6/135. [Bax: "Səhih əl-Buxari", 3/1091.]

sığınaraq: – Ey Rəbbimiz! Bizə yoldaş ol və bizə mərhəmət et! [deyirəm]».[1]

## (104) Səfərdə və ya başqa vaxtlarda mənzil başına çatdıqda edilən dua

٢١٦ – (( أَعُوذُ بِكَلِمَاتِ اللهِ التَّامَّاتِ مِنْ شَرِّ مَا خَلَقَ ))

216. [Əuzu bikəliməti-lləhit-təmməti min şərri mə xaləq]

216. «Yaratdıqlarının şərindən Allahın tam kəlmələrinə sığınıram!»[2]

---

[1] Muslim, 4/2086. Hədisdəki «eşidən eşitdi», yəni «Allahın (bizə verdiyi) nemətlərinə və lütfünə görə Ona etdiyimiz həmdə şahid olan şahid oldu». «Eşidən eşitdirdi» sözünün mənası da odur ki, «Mənim bu sözlərimi eşidən, onları başqalarına çatdırdı və o da eyni ilə həmin sözləri dedi». Bu, səhər-səhər zikr və dua etməyə daha çox diqqət yetirmək üçündür. «Ey Rəbbimiz! Bizə yoldaş ol və bizə mərhəmət et!», yəni «bizi hifz et, bizi qoru, bizə nəzarət et, bol-bol nemətlərinlə bizə lütf et və xoşa gəlməyən bütün şeyləri bizdən uzaqlaşdır!» (ən-Nəvəvi, «Şərh Səhih Muslim», 17/39).

[2] Muslim, 4/2080.

## (105) Səfərdən qayıdarkən edilən zikr

217. Hər təpənin üstündə üç dəfə təkbir edib ("Allahu Əkbər" deyib) sonra deyir:

٢١٧ – (( لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ، وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، آيِبُونَ، تَائِبُونَ، عَابِدُونَ، لِرَبِّنَا حَامِدُونَ، صَدَقَ اللهُ وَعْدَهُ، وَنَصَرَ عَبْدَهُ، وَهَزَمَ الأَحْزَابَ وَحْدَهُ ))

217. [Lə iləhə illəllahu vahdəhu lə şərikə ləhu, ləhul-mulku va ləhul-həmdu va huva alə kulli şeyin qadir. Əyibunə, təibunə, abidunə, li-rabbinə hamidun. Sadəqallahu va'dəhu, va nəsara abdəhu va həzəməl-əhzəbə vahdəhu]

«Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir. (Biz) geri dönənlər, tövbə edənlər, ibadət edənlər, Rəbbimizə həmd edənlərik!

Allah vədinə sadiq oldu, quluna kömək etdi və (düşmənlərdən olan) dəstələri tək Özü məğlub etdi!»[1]

## (106) Sevindirici, yaxud xoşagəlməz hal ilə rastlaşan adam nə deməlidir

218. Peyğəmbəri ﷺ sevindirən bir hal baş verdikdə deyərdi:

٢١٨ – (( الْحَمْدُ للهِ الَّذِي بِنِعْمَتِهِ تَتِمُّ الصَّالِحَاتُ ))

218. [Əlhəmdu-lilləhi-lləzi bini'mətihi tətimmus-salihat]

«Neməti sayəsində yaxşı işlər tamamlanan Allaha həmd olsun!».

Xoşuna gəlmədiyi bir hadisə baş verdikdə isə deyərdi:

(( الْحَمْدُ للهِ عَلَى كُلِّ حَالٍ ))

---

[1] Peyğəmbər ﷺ döyüşdən, yaxud həcdən qayıdarkən belə edərdi. Bax: əl-Buxari, 7/163; Muslim, 2/980.

[Əlhəmdulilləhi alə kulli həl]
«Hər bir halda Allaha həmd olsun!»[1]

## (107) Peyğəmbərə ﷺ salavat gətirməyin fəziləti

219. Peyğəmbər ﷺ demişdir: «Kim mənim üçün bir dəfə salavat gətirsə, Allah bunun sayəsində ona on dəfə salavat gətirər!»[2]

220. Peyğəmbər ﷺ demişdir: «Qəbrimi bayram yerinə çevirməyin! Mənə salavat gətirin. Əlbəttə, harada olsanız salavatınız mənə çatar!»[3]

---

[1] İbn əs-Sunni, «Əməlul-Yəumi vəl-Leyl». Bu hədisi əl-Hakim də rəvayət etmiş və onu "səhih" saymışdır (1/499). əl-Albani də onu "səhih" hesab etmişdir («Səhihul-Cami», 4/201).

[2] Muslim, 1/288.

[3] Əbu Davud, 2/218; Əhməd, 2/367. əl-Albani onu "səhih" hesab etmişdir («Səhih Əbu Davud», 2/383.

221. Peyğəmbər ﷺ demişdir: «Xəsis o kəsdir ki, yanında xatırlandığım zaman mənə salavat gətirmir!»[1]

222. Peyğəmbər ﷺ demişdir: «Doğrudan da, Allahın yer üzünü gəzib-dolaşan mələkləri vardır ki, ümmətimdən mənə salam çatdırırlar!»[2]

223. Peyğəmbər ﷺ demişdir: «Kim mənə salam versə, salamını almaq üçün Allah ruhumu mənə qaytarar!»[3]

## (108) Salamı yaymaq

224. Peyğəmbər ﷺ demişdir: «İman gətirməyincə Cənnətə daxil olmazsınız. Bir-birinizi sevməyincə də iman gətirmiş olmazsınız. Sizi elə bir şeyə yönəldimmi

[1] ət-Tirmizi (5/551) və başqaları. Bax: «Səhihul-Cami», 3/25 və «Səhihut-Tirmizi», 3/177.

[2] ən-Nəsai və əl-Hakim (2/421). əl-Albani onu "səhih" hesab etmişdir («Səhihun-Nəsai», 1/274).

[3] Əbu Davud, №2041. əl-Albani onu "həsən" hesab etmişdir («Səhih Əbu Davud», 1/383).

ki, onu etdikdə bir-birinizi sevəsiniz? – Aranızda salamı yayın!»[1]

225. «Üç şey vardır ki, onları [özündə] cəm edən şəxs imanı [özündə] cəm etmiş olar: özünə qarşı insafla rəftar etmək, hər kəsə salam vermək və kasıb ola-ola [malından başqalarına] xərcləmək».[2]

226. Abdullah ibn Ömər ﵄ rəvayət edir ki, bir kişi Peyğəmbərdən ﷺ soruşdu: «İslamın hansı [əməli] daha xeyirlidir?» O dedi: «Yemək yedizdirmək, tanıdığına və tanımadığına salam vermək!»[3]

## (109) Salam verən kafirin salamı necə alınmalıdır

227. «Kitab əhli sizə salam versə, deyin: [va aleykum] (sizin də üzərinizə)!»[4]

---

[1] Muslim (1/74) və başqaları.

[2] «Fəthul-Bari», 1/82. Əmmardan ﵁ *məuquf, muəlləq* isnadla. [Bax: "Səhih əl-Buxari", 1/18.]

[3] «Fəthul-Bari», 1/55 və Muslim, 1/65.

[4] «Fəthul-Bari», 11/42 və Muslim, 4/1705.

## (110) Xoruz banlayarkən və ya uzunqulaq anqırarkən edilən dua

228. «Xoruzun banlamasını eşitsəniz, Allahdan Onun lütfünü diləyin. Çünki o (xoruz), mələk görmüşdür. Uzunqulağın anqırmasını eşitsəniz, şeytandan Allaha sığının. Çünki o (uzunqulaq), şeytan görmüşdür».[1]

## (111) Gecə itlərin hürməsini eşidərkən edilən dua

229. «Gecə itlərin hürməsini və uzunqulaqların anqırmasını eşitsəniz, onlardan Allaha sığının. Çünki onlar sizin görmədiklərinizi görürlər!»[2]

---

[1] «Fəthul-Bari», 6/350 və Muslim, 4/2092.

[2] Əbu Davud, 4/327; Əhməd, 3/306. əl-Albani onu "səhih" hesab etmişdir («Səhih Əbu Davud», 3/961).

## (112) Söydüyün adam üçün edəcəyin dua

230. Peyğəmbər ﷺ demişdir:

٢٣٠ - (( اللَّهُمَّ فَأَيُّمَا مُؤْمِنٍ سَبَبْتُهُ فَاجْعَلْ ذَلِكَ لَهُ قُرْبَةً إِلَيْكَ يَوْمَ الْقِيَامَةِ ))

230. [Allahummə fə-əyyumə mu'minin səbəbtuhu fəc'al zəlikə ləhu qurbətən ileykə yəuməl-qıyaməti]

230. «Allahım! Hansı mömini söymüşəmsə, Qiyamət günü bunu onun üçün Sənə yaxınlaşdıran bir vasitə et!»[1]

## (113) Müsəlman müsəlmanı tərifləyəndə nə deməlidir

231. Peyğəmbər ﷺ demişdir: «Birinizə öz dostunu tərifləmək labüddürsə, desin:

---

[1] «Fəthul-Bari» (11/171) və Muslim (4/2007). Muslimin mətnində «...bunu onun üçün təmizlik və mərhəmət et!» deyilir.

٢٣١ – (( أَحْسِبُ فُلاَناً وَاللهُ حَسِيبُهُ وَلاَ أُزَكِّي عَلَى اللهِ أَحَداً ))

231. [Əhsibu fulənən vallahu həsibuhu va lə uzəkki aləllahi əhədən]

“Mən filankəsi [yaxşı adam] hesab edirəm, onu hesaba çəkən isə Allah olacaq. Mən heç kəsi Allah yanında təmizə çıxartmıram!»

Əgər [həmin şəxsin həqiqətən] o cür olduğunu bilirsə, onda «Mən onun bu cür və bu cür olduğunu hesab edirəm» – desin».[1]

## (114) Təriflənən müsəlman nə deməlidir

٢٣٢ – (( اللَّهُمَّ لاَ تُؤَاخِذْنِي بِمَا يَقُولُونَ، وَاغْفِرْ لِي مَا لاَ يَعْلَمُونَ [وَاجْعَلْنِي خَيْراً مِمَّا يَظُنُّونَ] ))

232. [Allahummə lə tuəxızni bimə yəqulunə, vağfir li mə lə yə'ləmunə [vac'alni xayran mimmə yəzunnunə]]

[1] Muslim, 4/2296.

232. «Allahım! Onların söylədiklərinə görə məni qınama, bilmədikləri şeyləri (onlardan gizli qalan günahlarımı) mənə bağışla [və məni zənn etdiklərindən daha xeyirli et]!»[1]

## (115) Həcc və ya ümrə ziyarəti əsnasında ihramda olan şəxs[2] necə təlbiyə[3] etməlidir

٢٣٣ – (( لَبَّيْكَ اللَّهُمَّ لَبَّيْكَ، لَبَّيْكَ لاَ شَرِيكَ لَكَ لَبَّيْكَ، إِنَّ الْحَمْدَ، وَالنِّعْمَةَ، لَكَ وَ الْمُلْكَ، لاَ شَرِيكَ لَكَ ))

233. [Ləbbeykə-llahummə ləbbeyk, ləbbeykə lə şərikə ləkə ləbbeyk, innəl-

[1] əl-Buxari, «Ədəbul-Mufrad», №761. əl-Albani bu hədisin isnadını "səhih" hesab etmişdir («Səhih Ədəbul-Mufrad», №585). Mötərizədəki sözlər əl-Beyhəqinin əlavəsidir («Şuəbul-İman», 4/228).

[2] [İhram paltarında olan kəs.]

[3] [Allahın əmrinə müntəzir olduğunu bildirmək.]

həmdə van-ni'mətə, ləkə val-mulkə, lə şərikə lək]

233. «Hüzurundayam, Allahım, hüzurundayam! Hüzurundayam, Sənin şərikin yoxdur, hüzurundayam! Həmd Sənədir. Nemət və mülk Sənə məxsusdur. Sənin şərikin yoxdur!»[1]

## (116) Qara daş yerləşən küncə gəlib çatdıqda təkbir gətirmək

234. «Peyğəmbər ﷺ Kəbəni dəvənin üstündə təvaf etdi. O, hər dəfə (qara daş yerləşən) küncə gəlib çatanda özündəki bir şeylə ona tərəf işarə etdi və təkbir gətirdi ("Allahu Əkbər" dedi)».[2]

---

[1] «Fəthul-Bari», 3/408 və Muslim, 2/841.

[2] "Səhih əl-Buxari", 2/583. Bu hədisdə "bir şeylə" dedikdə "çomaq" nəzərdə tutulur. Bax: «Fəthul-Bari», 3/472.

## (117) Yəmən küncü ilə qara daş arasında edilən dua[1]

٢٣٥ ﴿ رَبَّنَآ ءَاتِنَا فِى ٱلدُّنْيَا حَسَنَةً وَفِى ٱلْأَخِرَةِ
حَسَنَةً وَقِنَا عَذَابَ ٱلنَّارِ ﴾

235. [Rabbənə ətinə fid-dunyə həsənətən va fil-əxırati həsənətən va qınə azəbən-nər]

235. **«Ey Rəbbimiz! Bizə dünyada da yaxşılıq** (gözəl nemətlər) **ver, axirətdə də yaxşılıq** (Cənnət) **ver və bizi Odun** (Cəhənnəmin) **əzabından qoru!»**[2]

## (118) Səfa və Mərvə dağları üzərində dayandıqda edilən dua

236. Peyğəmbər ﷺ Səfaya yaxınlaşanda:

[1] [Kəbəni təvaf edərkən qara daş olan künclə ondan əvvəlki künc arasında ediləcək dua.]

[2] Əbu Davud, 2/179; Əhməd, 3/411; əl-Bəğəvi, «Şərhu-s-Sünnə», 7/128. əl-Albani bu hədisi "həsən" hesab etmişdir, «Səhih Əbu Davud», 1/304. Bu əl-Bəqərə surəsinin 201-ci ayəsidir.

٢٣٦ – ﴿ إِنَّ ٱلصَّفَا وَٱلْمَرْوَةَ مِن شَعَآئِرِ ٱللَّهِ ﴾ (( أَبْدَأُ بِمَا بَدَأَ اللَّهُ بِهِ ))

[İnnəs-səfa val-mərvatə min şəa'iri-lləh. Əbdəu bimə bədə' Allahu bihi]

«**Həqiqətən, Səfa və Mərvə Allahın nişanələrindəndir.**[1] Allah nə ilə başlamışsa, mən də onunla başlayıram!" dedi.

Sonra Səfadan başlayıb onun üstünə qalxdı, Kəbəni görəndə isə üzünü qibləyə tərəf tutub "Lə iləhə illəllah" (Allahdan başqa məbud yoxdur) və "Allahu Əkbər" (Allah ən Böyükdür) söylədi və dedi:

(( لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ، أَنْجَزَ وَعْدَهُ، وَنَصَرَ عَبْدَهُ، وَهَزَمَ الأَحْزَابَ وَحْدَهُ ))

[Lə iləhə illəllahu vahdəhu lə şərikə ləhu, ləhul-mulku va ləhul-həmdu va huva alə kulli şeyin qadir. Lə iləhə illəllahu

[1] ["əl-Bəqərə" suərsi, 158-ci ayə.]

vahdəhu, əncəzə va'dəhu va nəsara abdəhu va həzəməl-əhzəbə vahdəhu]

«Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir. Allahdan başqa məbud yoxdur, O təkdir. Allah vədini yerinə yetirdi, quluna kömək etdi və (düşmənlərdən olan) dəstələri tək Özü məğlub etdi!»

"Peyğəmbər ﷺ bu duanı üç dəfə təkrarladı və hər birinin arasında da [Allaha] dua etdi". Hədisdə həmçinin deyilir ki, "Peyğəmbər ﷺ Mərvada da eyni ilə Səfada etdiklərini etdi".[1]

## (119) Ərafa günü[2] edilən dua

237. Peyğəmbər ﷺ demişdir: «Ən xeyirli dua, Ərafa günü edilən duadır. Mənim və məndən əvvəlki peyğəmbərlərin söylədiklərinin ən xeyirlisi budur:

---

[1] Muslim, 2/888.

[2] [Zil-Hiccə ayının doqquzu.]

٢٣٧ – (( لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ ))

237. [Lə iləhə illəllahu vahdəhu lə şərikə ləhu, ləhul-mulku va ləhul-həmdu va huva alə kulli şeyin qadir]

«Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir!»[1]

## (120) Məş'ərülhəramda[2] edilən zikr

238. «Peyğəmbər ﷺ Qəsvayə[3] minib Məş'ərülhərama gəldi, üzünü qibləyə çevirdi. [Allaha dua etdi, Onun ən Böyük olduğunu, Ondan başqa məbud olmadığını və Onun Tək olduğunu söylədi][4].

---

[1] ət-Tirmizi. əl-Albani bu hədisi "həsən" hesab etmişdir («Səhihut-Tirmizi», 3/184 və «Silsilətul-Əhadisus-Səhihə», 4/6).

[2] [Müzdəlifə vadisi.]

[3] [Dəvəsinin adıdır.]

[4] ["Allahu Əkbər" və "Lə iləhə illəllah" dedi.]

O, hava işıqlanana qədər ayaq üstə dayanıb [bu cür dua etməkdə] davam etdi və günəş çıxmazdan əvvəl yola düşdü!»[1]

## (121) Cəməratda[2] hər daşı atarkən təkbir etmək

239. «Cəmərələrin üçündə də hər bir daşı atarkən təkbir edir ("Allahu Əkbər" deyir), birinci və ikinci cəmərədə [daş atdıqdan] sonra irəli çıxıb dayanır, qibləyə üz tutaraq əllərini qaldırıb dua edir. Əqəbə cəmərəsində[3] də hər bir daşı atarkən təkbir edir, sonra isə orada dayanmadan çıxıb gedir».[4]

## (122) Təəccüblənərkən və ya sevinərkən edilən dua

٢٤٠ – (( سُبْحَانَ اللهِ ))

---

[1] Muslim, 2/891.

[2] [Şeytana daş atılan yerlər.]

[3] [Kəbəyə daha yaxın olan cəmərat.]

[4] "Səhih əl-Buxari", 2/624. Bu hədisi həmçinin Muslim də rəvayət etmişdir.

240. [Subhənallahi]
240. «Allah pak və müqəddəsdir!»[1]

٢٤١ – (( اللهُ أَكْبَرُ ))

241. [Allahu Əkbər]
241. «Allah ən Böyükdür!»[2]

## (123) Sevindirici hadisə ilə rastlaşan adam nə etməlidir

242. «Peyğəmbər ﷺ onu sevindirən, yaxud sevindirici bir hadisə baş verəndə xeyirxah və uca Allaha şükür əlaməti olaraq səcdə edərdi».[3]

---

[1] «Fəthul-Bari», 1/210, 390, 414; Muslim, 4/1857.

[2] «Fəthul-Bari» 8/441. Bax: «Səhihut-Tirmizi», 2/103, 235 və Əhməd, 5/218.

[3] ən-Nəsai istisna olmaqla, «Sünən» əsərlərinin müəllifləri rəvayət etmişlər. Bax: «Səhih ibn Macə», 1/233 və «İrvaul-Ğəlil», 2/226.

## (124) Bədənində ağrı hiss edən nə edir

243. «Əlini bədəninin ağrıyan yerinə qoyub üç dəfə (( بِسْمِ اللهِ )) [Bismilləh] «Allahın adı ilə!» de və yeddi dəfə də:

(( أَعُوذُ بِاللهِ وَقُدْرَتِهِ مِنْ شَرِّ مَا أَجِدُ وَأُحَاذِرُ ))

[Əuzu billəhi va qudratihi min şərri mə əcidu va uhəziru]

«Duyduğum və həzər etdiyimin şərindən Allaha və Onun qüdrətinə sığınıram!»[1]

## (125) Bir şeyi gözə gətirəcəyindən qorxan adamın etdiyi dua

244. «Biriniz qardaşında, yaxud özündə, yaxud da malında xoşuna gələn bir şey görsə, [onun üçün bərəkət diləsin[2]]! Çünki gözdəymə həqiqətdir!»[3]

---

[1] Muslim, 4/1728.

[2] ["Təbərakəllah" – desin.]

[3] Əhməd, 4/447; İbn Macə; Malik. əl-Albani bu hədisi "səhih" hesab etmişdir («Səhihul-Cami»,

## (126) Qorxduqda nə deyilir

٢٤٥ – (( لاَ إِلَهَ إِلاَّ اللّٰهُ! ))

245. [Lə iləhə illəllah]

245. «Allahdan başqa məbud yoxdur!»[1]

## (127) Qurban kəsərkən nə deyilir

٢٤٦ – (( بِسْمِ اللّٰهِ وَاللّٰهُ أَكْبَرُ [ اللَّهُمَّ مِنْكَ وَلَكَ ] اللَّهُمَّ تَقَبَّلْ مِنِّي ))

246. [Bismilləhi, vallahu əkbər (Allahummə minkə va ləkə), Allahummə təqabbəl minni]

246. «Allahın adı ilə, Allah ən Böyükdür! [Allahım! Sən vermisən, Sənin üçün də kəsirəm!] Allahım, məndən qəbul et!»[2]

---

1/212). Bax: əl-Arnavutun təhqiqində «Zadul-Məad», 4/170.

[1] «Fəthul-Bari», 6/181; Muslim, 4/2208.

[2] Muslim, 3/1557; əl-Beyhəqi, 9/287. Mötərizədəki sözlər əl-Beyhəqinin əlavəsidir. Digərləri isə

## (128) Üsyankar şeytanların hiyləsini dəf etmək üçün nə deyilir

٢٤٧ – (( أَعُوذُ بِكَلِمَاتِ اللهِ التَّامَّاتِ الَّتِي لاَ يُجَاوِزُهُنَّ بَرٌّ وَلاَ فَاجِرٌ مِنْ شَرِّ مَا خَلَقَ، وَبَرَأَ وَذَرَأَ، وَمِنْ شَرِّ مَا يَنْزِلُ مِنَ السَّمَاءِ، وَمِنْ شَرِّ مَا يَعْرُجُ فِيهَا، وَمِنْ شَرِّ مَا ذَرَأَ فِي الأَرْضِ، وَمِنْ شَرِّ مَا يَخْرُجُ مِنْهَا، وَمِنْ شَرِّ فِتَنِ اللَّيْلِ وَالنَّهَارِ، وَمِنْ شَرِّ كُلِّ طَارِقٍ إِلاَّ طَارِقاً يَطْرُقُ بِخَيْرٍ يَا رَحْمَنُ ))

247. [Əuzu bikəliməti-lləhit-təmməti-lləti lə yucəvızuhunnə bərrun va lə fəcirun min şərri mə xaləqa, va bəraə va zəraə, va min şərri mə yənzilu minəssəmə'i, va min şərri mə yə'rucu fihə, va min şərri mə zəraə fil-ardı, va min şərri mə yəxrucu minhə, va min şərri fitənil-leyli van-nəhəri, va min şərri kulli tarıqın illə tarıqan yətruqu bixayrin yə Rahmən]

---

Muslimin rəvayət etdiyi hədisdən məna ilə götürülmüşdür.

247. «Yaratdıqlarının, düzəltdiklərinin və icad etdiklərinin şərindən, səmadan nazil olanların və orada yüksələnlərin şərindən, yerə əkdiklərinin və oradan çıxanların şərindən, gecənin və gündüzün fitnələrinin şərindən, – gecə xoş xəbərlə gələn müstəsna olmaqla, – gecə gələnlərin hər birinin şərindən həm itaətkarın, həm də günahkarın möhtac olduğu Allahın tam kəlmələrinə sığınıram! Ey Rəhman!»[1]

## (129) Bağışlanma diləmək və tövbə etmək

248. Peyğəmbər ﷺ demişdir: «Allaha and olsun ki, mən gündə yetmiş dəfədən

[1] Əhməd, 3/419, "səhih" isnadla; İbn əs-Sunni, №637. əl-Arnavut "Təhavi"nin təhqiqində bu hədisin isnadını "səhih" hesab etmişdir (səh.133). Bax: «Məcməuz-Zəvaid», 10/127. ["Silsilətul-Əhadisus-Səhihə", 2/339.]

artıq Allahdan bağışlanma diləyir və Ona tövbə edirəm!»[1]

249. Peyğəmbər ﷺ demişdir: «Ey insanlar! Allaha tövbə edin! Mən Ona gündə yüz dəfə tövbə edirəm!»[2]

250. Peyğəmbər ﷺ demişdir: «Kim,

٢٥٠ – (( أَسْتَغْفِرُ اللَّهَ الْعَظِيمَ الَّذِي لاَ إِلَهَ إِلاَّ هُوَ الْحَيُّ الْقَيُّومُ وَأَتُوبُ إِلَيْهِ ))

250. [Əstəğfiru-llahəl-azımə-lləzi lə iləhə illə huval-həyyul-qayyum va ətubu ileyhi]

«Özündən başqa məbud olmayan, Əzəmətli, Yaşayan, Qəyyum Allahdan bağışlanma diləyirəm və Ona tövbə edirəm!» – deyərsə, döyüş meydanından qaçmış olsa belə, Allah onu bağışlayar.[3]

---

[1] «Fəthul-Bari», 11/101. ["Səhih əl-Buxari", 5/2324.]

[2] Muslim, 4/2076.

[3] Əbu Davud, 2/85; ət-Tirmizi, 5/569 və əl-Hakim, 1/511. O, bu hədisi "səhih" saymış, əz-Zəhəbi də

251. Peyğəmbər ﷺ demişdir: «Rəbbin bəndəyə ən yaxın olduğu vaxt gecənin axırıdır. O saatda Allahı zikr edənlərdən ola bilirsənsə, ol!»[1]

252. Peyğəmbər ﷺ demişdir: «Bəndənin Rəbbinə ən yaxın olduğu [hal] onun səcdə vəziyyətidir. Odur ki, [səcdədə] duaları artırın!»[2]

253. Peyğəmbər ﷺ demişdir: «Mənim də qəlbim tutulur və mən gündə yüz dəfə Allahdan bağışlanma diləyirəm!»[3]

---

bunu təsdiqləmişdir. Həmçinin əl-Albani onu "səhih" hesab etmişdir. Bax: «Səhihut-Tirmizi», 3/182 və «Camiul-Usul li Əhadisir-Rəsul», 4/389-390, əl-Arnavutun təhqiqi.

[1] ət-Tirmizi, ən-Nəsai, 1/279 və əl-Hakim. Bax: «Səhihut-Tirmizi», 3/183 və «Camiul-Usul li Əhadisir-Rəsul», 4/144, əl-Arnavutun təhqiqi.

[2] Muslim, 1/350.

[3] Muslim, 4/2075. İbn əl-Əsir deyir: «qəlbim tutulur», yəni örtülür, bürünür. Burada səhv qəsd edilir. Çünki Peyğəmbər ﷺ çoxlu zikr və ibadət

## (130) Təsbih, təhmid, təhlil və təkbirin fəziləti[1]

254. Peyğəmbər ﷺ demişdir: «Kim gündə yüz dəfə:

٢٥٤ – (( سُبْحَانَ اللهِ وَبِحَمْدِهِ ))

[Subhənallahi va bihəmdihi]

«Allah pak və müqəddəsdir! Allaha həmd olsun!» desə, günahları dəniz köpüyü qədər olsa belə, silinər».[2]

255. Peyğəmbər ﷺ demişdir: «Kim gündə on dəfə:

---

edər, [Allaha] davamlı şəkildə itaət edərdi. Hərdən nəyi isə unudar, yaxud səhv edərdisə, bunu özü üçün günah bilib Allahdan bağışlanma diləyərdi». Bax: «Camiul-Usul», 4/386.

[1] Subhanəllah! Əlhəmdulilləh! Lə iləhə illəllah! Allahu Əkbər!

[2] əl-Buxari, 7/168 və Muslim, 4/2071. Bu duanı səhər və axşam yüz dəfə deyənin fəzilətini bilmək üçün bu kitabdakı 91-ci duaya bax.

٢٥٥ – (( لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدُهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ، وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ ))

255. [Lə iləhə illəllahu vahdəhu lə şərikə ləhu, ləhul-mulku va ləhul-həmdu va huva alə kulli şeyin qadir]

«Allahdan başqa məbud yoxdur, təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir!» desə, sanki İsmayıl övladından dörd nəfəri azad etmiş olar».[1]

256. Peyğəmbər ﷺ demişdir: «Dilə yüngül gələn, çəkidə ağır gələn, ər-Rəhmana əziz olan iki kəlmə bunlardır:

٢٥٦ – (( سُبْحَانَ اللهِ وَبِحَمْدِهِ، سُبْحَانَ اللهِ الْعَظِيمِ ))

256. [Subhənallahi va bihəmdihi, subhənallahil-azım]

---

[1] əl-Buxari, 7/167; Muslim, 4/2071. Bu duanı səhər və axşam yüz dəfə deyənin fəzilətini bilmək üçün bu kitabdakı 93-cü duaya bax.

«Allah pak və müqəddəsdir! Allaha həmd olsun! Böyük Allah pak və müqəd-dəsdir!» [1]

257. Peyğəmbər ﷺ demişdir: «Mənə:

٢٥٧ – (( سُبْحَانَ اللهِ، وَالْحَمْدُ للهِ، وَلاَ إِلَهَ إِلاَّ اللهُ، وَاللهُ أَكْبَرُ ))

257. [Subhənallahi, val-həmdulilləhi, va lə iləhə illəllahu, vallahu əkbər]

«Allah pak və müqəddəsdir! Həmd Allahadır! Allahdan başqa məbud yoxdur! Allah ən Böyükdür!» demək, üzərində günəş doğan hər bir şeydən əzizdir».[2]

258. Peyğəmbər ﷺ demişdir: «Sizlərdən hər gün min savab qazanmaqda aciz qalanı varmı?» Yanında oturanlardan biri soruşdu: «Bizlərdən biri min savabı

---

[1] əl-Buxari, 7/168; Muslim, 4/2072.

[2] Muslim, 4/2072.

necə qazana bilər?» O dedi: «Yüz dəfə təsbih etsə (“Subhənallah” desə), ona min savab yazılar, yaxud min günahı silinər!»[1]

259. Peyğəmbər ﷺ demişdir: «Kim:

٢٥٩ – (( سُبْحَانَ اللهِ الْعَظِيمِ وَبِحَمْدِهِ ))

[Subhənallahil-azımi va bihəmdihi]

«Böyük Allah pak və müqəddəsdir! Allaha həmd olsun!» desə, onun üçün Cənnətdə bir xurma ağacı əkilər».[2]

260. Peyğəmbər ﷺ dedi: «Ey Abdullah ibn Qeys, sənə Cənnət xəzinələrindən bir xəzinə göstərimmi?» Mən: «Bəli, ey Allahın Elçisi!» söylədikdə, o buyurdu: «De:

---

[1] Muslim, 4/2073.

[2] ət-Tirmizi, 5/511 və əl-Hakim, 1/501. əl-Hakim bu hədisi “səhih” hesab etmiş, əz-Zəhəbi də onu təsdiqləmişdir. Bax: «Səhihul-Cami», 5/531 və «Səhihut-Tirmizi», 3/160.

٢٦٠ – (( لاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَ بِاللهِ ))

[Lə həulə va lə quvvatə illə billəh]
«Qüdrət və güc yalnız Allahdadır!»[1]

261. Peyğəmbər ﷺ demişdir: «Allaha ən sevimli olan kəlmələr dörddür:

٢٦١ – (( سُبْحَانَ اللهِ، وَالْحَمْدُ للهِ، وَلاَ إِلَهَ إِلاَّ اللهُ، وَاللهُ أَكْبَرُ ))

261. [Subhənallahi, val-həmdulilləhi, va lə iləhə illəllahu, vallahu əkbər]

«Allah pak və müqəddəsdir! Həmd Allahadır! Allahdan başqa məbud yoxdur! Allah ən Böyükdür!» – bunların hansından başlasan, zərəri olmaz».[2]

262. Bir bədəvi ərəb Peyğəmbərin ﷺ yanına gəlib dedi: «Mənə zikr edəcəyim kəlmələri öyrət!» O buyurdu: «De:

[1] «Fəthul-Bari», 11/213; Muslim, 4/2076.

[2] Muslim, 3/1685.

٢٦٢ - (( لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، اللهُ أَكْبَرُ كَبِيراً، وَالْحَمْدُ للهِ كَثِيراً، سُبْحَانَ اللهِ رَبِّ الْعَالَمِينَ، لاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللهِ الْعَزِيزِ الْحَكِيمِ ))

262. [Lə iləhə illəllahu vahdəhu lə şərikə ləhu. Allahu əkbəru kəbiran, val-həmdulilləhi kəsiran, subhənallahi rabbil-aləmin. Lə həulə va lə quvvətə illə billəhil-azizil-həkim]

«Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Allah böyüklükdə ən Böyükdür! Allaha çoxlu-çoxlu həmd olsun! Aləmlərin Rəbbi olan Allah pak və müqəddəsdir! Qüdrət və güc yalnız Qüdrətli, Müdrik Allahdadır!»

Bədəvi ərəb dedi: «Bunlar Rəbbim üçündür. Bəs mənim üçün?» O buyurdu: «De:

(( اللَّهُمَّ اغْفِرْ لِي، وَارْحَمْنِي، وَاهْدِنِي، وَارْزُقْنِي ))

[Allahummə-ğfir li, varhəmni, vahdini, varzuqni]

«Allahım! Məni bağışla, mənə rəhm et, məni doğru yola yönəlt, mənə ruzi ver!»[1]

263. Bir kimsə İslamı qəbul etdikdə Peyğəmbər ﷺ ona namaz qılmağı öyrədər, sonra əmr edərdi ki, bu kəlmələrlə [Allaha] dua etsin:

٢٦٣ – (( اللَّهُمَّ اغْفِرْ لِي، وَارْحَمْنِي، واهْدِنِي، وَعَافِنِي وَارْزُقْنِي ))

263. [Allahummə-ğfir li, varhəmni, vahdini, va afini, varzuqni]

«Allahım! Məni bağışla, mənə rəhm et, məni doğru yola yönəlt, mənə salamatlıq və ruzi ver!»[2]

264. «Ən fəzilətli dua «əlhəmdulilləh», ən fəzilətli zikr isə «lə iləhə illəllah»dır.[1]

---

[1] Muslim, 4/2072. Əbu Davudun əlavəsində (1/220): «Bədəvi ərəb gedəndə Peyğəmbər ﷺ dedi: «O, əllərini xeyirlə doldurdu!» sözləri də var.

[2] Muslim, 4/2073. Başqa rəvayətdə: «Bunlar sənin üçün dünyanı və axirətini cəm edər!»

265. «Əbədi qalacaq saleh əməllər (bunlardır):

٢٦٥ – (( سُبْحَانَ اللهِ، وَالْحَمْدُ للهِ، وَلاَ إِلَهَ إِلاَّ اللهُ، وَاللهُ أَكْبَرُ، وَلاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللهِ ))

265. [Subhənallahi, valhəmdulilləhi va lə iləhə illəllahu, vallahu əkbəru, va lə həulə va lə quvvətə illə billəh]

«Allah pak və müqəddəsdir! Allaha həmd olsun! Allahdan başqa məbud yoxdur! Allah ən Böyükdür! Qüdrət və güc yalnız Allahdadır!»[2]

---

[1] ət-Tirmizi, 5/462; İbn Macə, 2/1249 və əl-Hakim, 1/503. əl-Hakim bu hədisi "səhih" hesab etmiş, əz-Zəhəbi də onu təsdiqləmişdir. Bax: «Səhihul-Cami», 1/362.

[2] Əhməd, №513 (Əhməd Şakirin tərtibinə görə). İsnadı "səhih"dir. Bax: «Məcməuz-Zəvaid», 1/297. İbn Həcər «Buluğul-Məram» əsərində ən-Nəsai-nin bunu Əbu Səiddən ﵁ gələn isnadla rəvayət etdiyini söyləmiş və demişdir: «Bunu İbn Hibban və əl-Hakim "səhih" hesab etmişlər». [Səhihut-Tərğib vət-Tərhib, 2/112.]

## (131) Peyğəmbər ﷺ necə zikr edərdi

266. Abdullah ibn Amr رضي الله عنه rəvayət edir ki, mən Peyğəmbəri ﷺ sağ əli ilə zikr edən gördüm.[1]

## (132) Bəzi xeyir növləri və ədəb qaydaları

267. [Peyğəmbər ﷺ demişdir:] «Gecənin bir vaxtında, yaxud axşama çıxanda uşaqlarınızı [bayıra çıxmağa] qoymayın, çünki həmin vaxt şeytanlar hər tərəfə yayılırlar. Gecədən bir müddət keçəndən sonra isə onları sərbəst buraxın;

Allahın adını zikr edərək qapıları bağlayın, çünki şeytan bağlı qapını aça bilmir;

Allahın adını zikr edərək tuluqlarınızın boğazını bağlayın;

---

[1] Əbu Davud, 2/81 və ət-Tirmizi, 5/521. Buradakı mətn Əbu Davudundur. Bax: «Səhihul-Cami», 4/271, №4865.

Allahın adını zikr edərək qablarınızın ağzını, hətta üstünə bir şey qoymalı olsanız belə, örtün və işıqlarınızı da söndürün!»[1]

*Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və onun bütün əshabələrinə Allahın salavatı və salamı olsun, bərəkəti yetişsin!*

[1] «Fəthul-Bari», 10/88; Muslim, 3/1595.

# Mündəricat

Müqəddimə ........................................................ 3
Zikrin fəziləti ....................................................... 5
(1) Yuxudan oyanarkən edilən zikrlər ............ 11
(2) Paltar geyinərkən edilən dua ..................... 17
(3) Təzə paltar geyinərkən edilən dua ............ 17
(4) Təzə paltar geyinən üçün edilən dua ........ 18
(5) Paltarı soyunarkən nə deyilir ..................... 19
(6) Ayaqyoluna girərkən edilən dua ............... 19
(7) Ayaqyolundan çıxarkən edilən dua .......... 20
(8) Dəstəmazdan əvvəl edilən zikr .................. 20
(9) Dəstəmazdan sonra edilən zikr .................. 20
(10) Evdən çıxarkən edilən zikr ....................... 22
(11) Evə girərkən edilən zikr ........................... 23
(12) Məscidə gedərkən edilən dua .................. 24
(13) Məscidə girərkən edilən dua .................... 26
(14) Məsciddən çıxarkən edilən dua ............... 28
(15) Azan zikrləri ............................................... 28
(16) [Namaza başlayarkən birinci təkbirdən sonra edilən] açılış duası ........................... 32
(17) Rükuda edilən dua .................................... 41
(18) Rükudan qalxarkən edilən dua ................ 43
(19) Səcdədə edilən dua .................................... 45

(20) İki səcdə arasında oturduqda edilən dua ........ 49
(21) Tilavət səcdəsində edilən dua ........ 50
(22) Təşəhhüd ........ 51
(23) Təşəhhüddən sonra Peyğəmbərə ﷺ oxunan salavat ........ 52
(24) Axırıncı təşəhhüddən sonra, salamdan qabaq edilən dua ........ 55
(25) Salam verib namazı bitirdikdən sonra edilən zikrlər ........ 64
(26) İstixarə namazının duası ........ 73
(27) Səhər və axşam zikrləri ........ 76
(28) Yatağa girərkən oxunan zikrlər ........ 102
(29) Gecə yatarkən bir tərəfdən digər tərəfə çevrildikdə edilən dua ........ 115
(30) Yuxuda həyəcan və qorxu keçirən, dəhşətə gələn və [başqa bu kimi] hallarda oxunan dua ........ 116
(31) Pis yuxu görən nə etməlidir ........ 116
(32) Vitr namazında edilən qunut duası ........ 117
(33) Vitr namazının salamından sonra edilən zikr ........ 121
(34) Üzüntü və kədər anında oxunan dua ........ 122
(35) Sıxıntı anında oxunan dua ........ 124
(36) Düşmən və ixtiyar sahibi ilə rastlaşarkən edilən dua ........ 126

(37) Rəhbərin zülmündən qorxan kimsənin etdiyi dua ........ 128
(38) Düşmənə qarşı edilən dua ........ 131
(39) Hər hansı bir camaatdan qorxan kimsənin etdiyi dua ........ 132
(40) İmanda şəkkə düşənin duası ........ 132
(41) Borcdan qurtarmaq üçün edilən dua ........ 133
(42) Namaz qılarkən, yaxud Quran oxuyarkən gələn vəsvəsəyə qarşı edilən dua ........ 135
(43) Bir iş ağır gəldikdə edilən dua ........ 135
(44) Günah edən kəs nə deməli və nə etməlidir ........ 136
(45) Şeytanı və onun vəsvəsələrini uzaqlaşdıran dua ........ 136
(46) Xoşa gəlməyən bir hadisə baş verdikdə, yaxud istədiyi bir iş baş tutmadıqda edilən dua ........ 137
(47) Övladı olanı təbrik etmək və bunun qarşılıqlı cavabı ........ 138
(48) Uşaqları qorumaq üçün oxunan dua ........ 139
(49) Xəstəni ziyarət edərkən onun üçün edilən dua ........ 140
(50) Xəstəni ziyarət etməyin fəziləti ........ 141
(51) Həyatından əlini üzmüş xəstənin duası ........ 142
(52) Can verənə təlqin edilən dua ........ 144

(53) Başına müsibət gələnin duası ................. 144
(54) Meyitin gözlərini qapayarkən edilən dua ................. 145
(55) Cənazə namazında meyit üçün oxunan dua ................. 146
(56) Həddi-büluğa çatmamış uşağın cənazə namazında oxunulan dua ................. 151
(57) Təziyə duası ................. 154
(58) Cənazəni qəbrə qoyarkən edilən dua ................. 155
(59) Cənazəni dəfn etdikdən sonra edilən dua ................. 155
(60) Qəbirləri ziyarət edərkən oxunan dua ................. 156
(61) Külək əsərkən edilən dua ................. 157
(62) Göy guruldayarkən edilən dua ................. 159
(63) Yağışın yağması üçün edilən bəzi dualar ................. 159
(64) Yağış yağanda edilən dua ................. 161
(65) Yağış yağandan sonra edilən zikr ................. 161
(66) Havanın açılması üçün edilən dua ................. 162
(67) Hilal görünərkən edilən dua ................. 162
(68) Oruc tutan iftarını açarkən etdiyi dua ................. 163
(69) Yeməyə başlayarkən edilən dua ................. 164
(70) Yeməkdən sonra edilən dua ................. 166
(71) Qonağın ona yemək verən üçün etdiyi dua ................. 167

(72) Su verən yaxud vermək istəyən şəxs üçün edilən dua ........ 168
(73) (Başqa evdə) orucunu açan şəxsin ev əhli üçün etdiyi dua ........ 168
(74) Oruc tutan şəxsin yemək süfrəsi açıldığı zaman orucunu pozmaq istəmədikdə etdiyi dua ........ 169
(75) Oruc tutan onu söyən adama nə deməlidir ........ 169
(76) Novbar meyvə görərkən edilən dua ........ 170
(77) Asqırdıqda edilən dua ........ 170
(78) Kafir asqırıb "əlhəmdulilləh" desə, ona nə deyilir ........ 171
(79) Evlənən üçün edilən dua ........ 172
(80) Evlənən şəxsin özü üçün etdiyi dua və minik heyvanı alanın edəcəyi dua ........ 172
(81) Həyat yoldaşı ilə cinsi əlaqəyə girməmişdən əvvəl edilən dua ........ 173
(82) Qəzəblənərkən edilən dua ........ 174
(83) Müsibətə düçar olmuş kimsəni görərkən edilən dua ........ 174
(84) Məclisdə nə deyilir ........ 175
(85) Məclisin kəffarəsi ........ 176
(86) «Allah səni bağışlasın!» deyən üçün edilən dua ........ 177

(87) Sənə yaxşılıq edən şəxs üçün edəcəyin dua ........ 177
(88) O zikr ki, Allah onun sayəsində Dəccaldan qoruyar ........ 178
(89) «Səni Allah xatirinə sevirəm» deyən üçün edilən dua ........ 178
(90) Malını sənə təklif edən kimsə üçün edilən dua ........ 179
(91) Borcu qaytararkən onu verən şəxs üçün edilən dua ........ 179
(92) Allaha şərik qoşmaqdan qorxanın edəcəyi dua ........ 180
(93) "Allah sənə bərəkət versin" deyən adama nə deyilir ........ 181
(94) Bəd əlamətə qarşı edilən dua ........ 181
(95) Minik vasitəsinə minərkən edilən dua ..... 183
(96) Səfər duası ........ 184
(97) Kəndə yaxud şəhərə daxil olarkən edilən dua ........ 186
(98) Bazara girərkən edilən dua ........ 188
(99) Minik vasitəsi büdrədikdə (ilişib qaldıqda) edilən dua ........ 189
(100) [Vidalaşdıqda] müsafirin sakinlər üçün etdiyi dua ........ 189
(101) [Vidalaşdıqda] sakinlərin müsafir üçün etdiyi dua ........ 190

(102) Səfərdə yol gedərkən təkbir və təsbih..... 191
(103) Müsafirin səhərə yaxın etdiyi dua....... 191
(104) Səfərdə və ya başqa vaxtlarda mənzil başına çatdıqda edilən dua............................ 192
(105) Səfərdən qayıdarkən edilən zikr.......... 193
(106) Sevindirici, yaxud xoşagəlməz hal ilə rastlaşan adam nə deməlidir..................... 194
(107) Peyğəmbərə ﷺ salavat gətirməyin fəziləti........................................................ 195
(108) Salamı yaymaq ...................................... 196
(109) Salam verən kafirin salamı necə alınmalıdır ..................................................... 197
(110) Xoruz banlayarkən və ya uzunqulaq anqırarkən edilən dua.................................... 198
(111) Gecə itlərin hürməsini eşidərkən edilən dua ........................................................ 198
(112) Söydüyün adam üçün edəcəyin dua..... 199
(113) Müsəlman müsəlmanı təriflƏyəndə nə deməlidir .................................................. 199
(114) Təriflənən müsəlman nə deməlidir ..... 200
(115) Həcc və ya ümrə ziyarəti əsnasında ihramda olan şəxs necə təlbiyə etməlidir ..... 201
(116) Qara daş yerləşən küncə gəlib çatdıqda təkbir gətirmək .................................... 202
(117) Yəmən küncü ilə qara daş arasında edilən dua ........................................................ 203

(118) Səfa və Mərvə dağları üzərində dayandıqda edilən dua ........ 203
(119) Ərafa günü edilən dua ........ 205
(120) Məş'ərülhəramda edilən zikr ........ 206
(121) Cəməratda hər daşı atarkən təkbir etmək ........ 207
(122) Təəccüblənərkən və ya sevinərkən edilən dua ........ 207
(123) Sevindirici hal ilə rastlaşan adam nə etməlidir ........ 208
(124) Bədənində ağrı hiss edən nə deməlidir ........ 209
(125) Bir şeyi gözə gətirəcəyindən qorxan adamın etdiyi dua ........ 209
(126) Qorxduqda nə deyilir ........ 210
(127) Qurban kəsərkən nə deyilir ........ 210
(128) Üsyankar şeytanların hiyləsini dəf etmək üçün nə deyilir ........ 211
(129) Bağışlanma diləmək və tövbə etmək ........ 212
(130) Təsbih, təhmid, təhlil və təkbirin fəziləti ........ 215
(131) Peyğəmbər ﷺ necə zikr edərdi ........ 223
(132) Bəzi xeyir növləri və ədəb qaydaları ........ 223